Azərbaycan Respublikası Baş Prokurorluğu

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi

Təşkilati və informasiya təminatı idarəsi

KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

BAKI - 2018

KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

JURNALI

Jurnal Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri cənab Zakir Qaralovun tapşırıq və tövsiyəsinə əsasən hazırlanmışdır və Azərbaycan Prokurorluğunun 100 illik yubileyinə həsr olunmuşdur.

Jurnalın hazırlanmasına rəhbərlik edən:

Kamran Əliyev *(hüquq elmləri üzrə fəlsəfə doktoru), Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, II dərəcəli dövlət ədliyyə müşaviri*

Jurnalın hazırlanmasına məsul:

Heydər Məmmədov*, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi, ədliyyə müşaviri*

Məsul katiblər:

Natiq Eyvazov*, Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru, kiçik ədliyyə müşaviri*

Arif Əyyubov*, Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru, I dərəcəli hüquqşünas*

Elşən Şükürlü*, Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin məsləhətçisi*

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir


AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUĞU
BAŞ PROKUROR YANINDA KORRUPSİYAYA QARŞI MÜBARİZƏ İDARƏSİ

MÜNDƏRİCAT

Ön söz.....8

Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi.....11

I BÖLMƏ

Beynəlxalq əməkdaşlıq istiqamətində görülmüş işlərin nəticələri.....15

Birləşmiş Millətlər Təşkilatı (UN) ilə əməkdaşlıq.....17

Beynəlxalq Anti-Korrupsiya Akademiyası (IACA) ilə əməkdaşlıq.....26

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-Korrupsiya Şəbəkəsi ilə əməkdaşlıq.....32

Avropa İttifaqı ilə əməkdaşlıq (Tvinninq Proqramı).....37

Avropa Komissiyasının Dələduzluğa qarşı Mübarizə Ofisi (OLAF) və Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC), Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat (GUAM) ilə əməkdaşlıq.....41-42

Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan Dövlətlər Qrupu (GRECO) ilə əməkdaşlıq.....44

İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində əməkdaşlıq.....46

Beynəlxalq Anti-Korrupsiya Orqanları Assosiasiyası (IAACA) ilə əməkdaşlıq.....49

Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP) ilə əməkdaşlıq.....55

Dünya Bankı ilə əməkdaşlıq.....67

Digər təşkilatlarla əməkdaşlıq.....68

II BÖLMƏ

Xarici dövlətlərlə ikitərəfli əməkdaşlıq.....69

Litva ilə münasibətlər.....69

Malayziya ilə münasibətlər.....71

Bolqarıstanla münasibətlər.....72

Çinlə münasibətlər.....74

Rusiya ilə münasibətlər 77
Xorvatiya ilə münasibətlər 79
Moldova ilə münasibətlər.....80
Türkiyə ilə münasibətlər.....81
Digər dövlətlərlə ikitərəfli əməkdaşlıq 83

III BÖLMƏ

Azərbaycan Respublikasında həyata keçirilən korrupsiyaya qarşı mübarizə tədbirlərinin dəyərləndirilməsi.....87

UN çərçivəsində dəyərləndirmə 87

OECD-nin dəyərləndirilməsi 88

GRECO çərçivəsində dəyərləndirmə 89

IV BÖLMƏ

Beynəlxalq əməkdaşlıq çərçivəsində korrupsiya ilə mübarizə üzrə təhsil və ixtisasartırma 92

Beynəlxalq Anti-Korrupsiya Akademiyasında (IACA) təhsil 92

Digər xarici ali tədris müəssisələrində təhsil 93

Fransa Respublikasının Milli İdarəçilik Məktəbində (ENA) ixtisasartırma 93

OECD və ATƏT çərçivəsində seminarlar 94

TAİEX aləti çərçivəsində təlimlər 95

Avropa İttifaqı və Avropa Şurası çərçivəsində təlimlər 97

Digər təlim və seminarlar 98

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin beynəlxalq əməkdaşlıq məsələlərində Təşkilati və informasiya təminatı idrəsinin rolu.....100



“Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram”.

Prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqdakı nitqindən.
(Bakı şəhəri, 28 noyabr 1998-ci il)

Heydər Əliyev

Azərbaycan xalqının ümummilli lideri



“Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə daha ciddi aparılmalıdır. Son illər ərzində böyük işlər görülüb və beynəlxalq təşkilatlar da bunu qeyd edir. Bu məsələ ilə məşğul olan beynəlxalq təşkilatların reytinqlərində Azərbaycan daim irəliyə gedir”.

İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən.
(Bakı şəhəri, 08 iyul 2018-ci il)

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Ön söz



1918-ci il may ayının 28-də yeni demokratik dövlətin yaranması faktını hüquqi cəhətdən təsbit edən “Azərbaycanın istiqlal bəyannaməsi” qəbul edilməklə Azərbaycan Xalq Cümhuriyyəti təsis olunmuşdu. Bu tarixi hadisənin xalqımızın müstəqillik yolunda qazandığı zəfərin təntənəsi olduğunu yaxşı anlayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Cümhuriyyətin dövlətçiliyə verdiyi töhfələrə böyük ehtiram göstərərək 2018-ci ili ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan etmişdir.

Milli prokurorluq orqanlarının tarixi də Xalq Cümhuriyyəti yaradıldığı dövrdən sonra Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli Qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokuror qurumunun təsis edilərək fəaliyyətə başlamasından hesablanır və ümummilli lider Heydər Əliyevin 17 iyun 1998-ci il tarixli sərəncamına əsasən 1 oktyabr tarixi prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilir.

Böyük fəxarət hissi ilə vurğulamaq istərdim ki, bu gün Azərbaycan Prokurorluğu bir əsrlik tarixə, illərin formalaşdırdığı zəngin ənənə və təcrübəyə malik olmaqla, 2018-ci ildə 100 illiyini qeyd edəcəkdir.

Müasir müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında Azərbaycan Respublikasının Prokurorluğuna konstitusion status verilərək, bu mühüm təsisatın dövlət idarəetmə sistemində yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyən edilmişdir. Prokurorluğun işinin təşkili, onun fəaliyyətinin səmərəliliyinin artırılması üzrə həyata keçirilmiş ardıcıl və sistemli tədbirlər nəticəsində dövlətin əsas orqanları sırasına aid edilən bu təsisat insan hüquq və azadlıqlarının təmin edilməsində, demokratik inkişafa maneə törədən halların

aradan qaldırılmasında, məhkəmə-hüquq islahatlarının uğurla həyata keçirilməsində, müstəqil dövlətimizin hüquqi bazasının möhkəm təməllər üzərində qurulmasında mühüm rola malik olmuşdur.

26 fevral 2000-ci il tarixdə ümummilli lider Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə keçirdiyi tarixi əhəmiyyətə malik müşavirədən sonra həyata keçirilən sistemli və ardıcıl islahatlar, görülən mütərəqqi tədbirlər nəticəsində respublikanın prokurorluq orqanları keyfiyyətcə yeni və müasir mərhələyə qədəm qoymaqla, köklü dəyişikliklər və struktur yenilənməsi aparılmış, fəaliyyəti üçün qabaqcıl beynəlxalq standartlara cavab verən normativ hüquqi baza formalaşdırılmışdır. 2002-ci ildə ümumxalq səsverməsi ilə prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi Azərbaycan Prokurorluğunun milli hüquq sistemindəki rolunu daha da gücləndirmişdir.

Sevindirici haldır ki, aparılmış köklü islahatlar və mütərəqqi dəyişikliklər nəticəsində prokurorluq demokratik və sivil dövlət təsisatına çevrilmişdir və dövlətimizdə qanunun aliliyinin tam bərqərar olunması, insan hüquq və azadlıqlarının səmərəli reallaşdırılması və onların qorunmasının təmin edilməsi işinə öz layiqli töhfəsini verməkdədir.

Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin ən önəmli istiqaməti olan korrupsiyaya qarşı mübarizə işinin səmərəliliyinin yüksəldilməsi yönündə də, mühüm tədbirlər həyata keçirilməklə ciddi nəticələr əldə olunmuş, bu sahədə müəyyənləşdirilmiş dövlət strategiyası qurumun fəaliyyətində daim rəhbər tutulmuşdur.

Belə ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş anti-korrupsiya strategiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilərək müasir dövrün tələblərinə uyğun müntəzəm sistemli xarakter almışdır. Korrupsiyaya qarşı mübarizə sahəsində xalqın məramına cavab verən siyasi iradəni ortaya qoymuş dövlət başçısı müvafiq qanunvericilik bazasının formalaşdırılması və həmin qanunvericiliyin tətbiq olunmasını təmin edən institusional bazanın qurulması üçün konkret tədbirlər həyata keçirmişdir. Korrupsiya ilə əlaqədar cinayətlərin mahiyyəti və yüksək ictimai təhlükəlilik dərəcəsi Azərbaycanda korrupsiya ilə bağlı cinayətlər üzrə həyata keçirilən ibtidai istintaq və əməliyyat axtarış fəaliyyəti sahəsində ixtisaslaşdırılmış səmərəli anti-korrupsiya orqanının yaradılmasını zəruri etdiyindən Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 03 mart 2004-cu il tarixli "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" Sərəncamına əsasən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi təsis edilmişdir. Korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış qurumun məhz prokurorluq orqanlarının tərkibində yaradılması dövlət başçısının Azərbaycan Prokurorluğuna göstərdiyi yüksək etimadı bir daha təsdiq etməklə bu qurumun qarşısında yeni mühüm vəzifələr qoymuş oldu.

2014-cu ildə həyata keçirilmiş struktur dəyişikliklərindən sonra Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin adi dəyişdirilərək "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi" adlandırılmış və bununla da Baş İdarə prokurorluğun sisteminə daxil edilərək statusu artırılmaqla səlahiyyətləri daha da genişləndirilmişdir.

Korrupsiyanın transmilli xarakter alması ona qarşı mübarizənin beynəlxalq müstəvidə aparılmasını, bu sahədə dünya ictimaiyyətinin əməkdaşlığını və birgə fəaliyyətini labüd etmişdir. Bu baxımdan korrupsiyaya qarşı mübarizədə beynəlxalq təşkilatların rolu danılmazdır. Korrupsiya ilə mübarizə sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar dövlətləri, onların nümayəndələrini, vətəndaş cəmiyyəti üzvlərini, sahibkarları və medianı bir araya gətirərək müxtəlif sahələrdə şəffaflığın təbliğ edilməsini təşviq edirlər. Eyni zamanda, bu təşkilatlar korrupsiya risklərinin qiymətləndirilməsi, əhalinin maarifləndirilməsi, korrupsiyaya qarşı strategiyanın hazırlanması və islahatların aparılması üçün dövlətlərə dəstək və əməli köməklik göstərirlər. Müasir dövrdə təsis edilmiş beynəlxalq təşkilatların fəaliyyətlərinə

və qəbul edilmiş beynəlxalq hüquqi sənədlərə nəzər salmaqla korrupsiya ilə beynəlxalq səviyyədə mübarizənin vəziyyəti barədə ilkin fikir yürütmək mümkündür.

Azərbaycan Respublikası qoşulmuş olduğu Avropa Şurasının “Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında” və “Korrupsiya ilə əlaqədar mülki məsuliyyət haqqında” konvensiyaları, Birləşmiş Millətlər Təşkilatının "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" və “Korrupsiyaya qarşı” konvensiyaları və digər bu kimi mütərəqqi beynəlxalq təşəbbüslərdə əksini tapan müddəaları öz milli hüquq sitemində tətbiq etməklə səmərəli antikorrupsiya qanunvericiliyi formalaşdırmışdır.

Bununla yanaşı, korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin nəticəsi kimi, GRECO və OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsi də daxil olmaqla əksər beynəlxalq qurumların hesabatlarında ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər müsbət dəyərləndirilir.

Mütəşəkkil cinayətkarlığa və korrupsiyaya qarşı mübarizə beynəlxalq səylərin birləşdirilməsini zəruri etdiyindən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi də öz işində beynəlxalq əməkdaşlığa xüsusi önəm verir, qanunla ona həvalə edilmiş hüquq və vəzifələri çərçivəsində bir sıra dövlətlərin anoloji qurumları və beynəlxalq təşkilatlarla birgə fəaliyyət yönümlü tədbirlər görür, qurulmuş sıx əməkdaşlıq şəraitində təcrübə mübadiləsinin aparılmasında mühüm addımlar atır.

Bununla yanaşı, Baş İdarə ona həvalə edilmiş hər bir fəaliyyət istiqaməti üzrə maarifləndirmə tədbirlərinin həyata keçirilməsi və ictimaiyyətin maarifləndirilməsi məqsədi ilə yarımillik və illik hesabatlar, bülleten, buklet, kitab, metodiki vəsaitlər hazırlayaraq nəşr edir. Lakin, ayrı-ayrı fəaliyyət sahələri üzrə kitabça və digər vəsaitlərin nəşr edilməsinə və Prokurorluğun elmi-praktiki mətbu jurnallarında məlumat xarakterli yazılar verilməsinə baxmayaraq, prokurorluq orqanlarının anti-korrupsiya sahəsində beynəlxalq əməkdaşlığını bütöv və tam şəkildə əhatə edən, xüsusilə son illər ərzində bu fəaliyyətin səmərəliliyinin artırılması və daha da təkmilləşdirilməsi istiqamətində görülən işləri cəm şəklində əks etdirən məcmu xarakterli kitab indiyədək hazırlanıb nəşr edilməmişdir.

Diqqətinizə təqdim olunan bu vəsait məhz Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatlarla fəal və işgüzar əlaqələrin yaradılması və inkişafı istiqamətində görülən genişmiqyaslı işlərin mahiyyətini əks etdirir.

Ümidvaram ki, vəsaitdə əks olunan məlumatlar prokurorluq və digər hüquq mühafizə orqanları işçiləri, prokurorluğun fəaliyyəti ilə maraqlanan oxucular və geniş hüquq ictimaiyyəti üçün kifayət qədər faydalı olacaqdır.

Zakir Qaralov
Azərbaycan Respublikasının Baş prokuroru,
I dərəcəli dövlət ədliyyə müşaviri

Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi



Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi Azərbaycan Respublikası Prezidentinin 03 mart 2004-cu il tarixli "Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" Sərəncamı əsasında yaradılmış, 28 oktyabr 2004-cu il tarixdə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi və prokurorluq işçilərinin umumi say tərkibi təsdiq edilmişdir.

30 sentyabr 2013-cu il tarixdə Baş İdarənin yeni inzibati binasının açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı prokurorluğun tarixində əlamətdar hadisə kimi yadda qalmışdır.

Ölkə başçısının "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair Dövlət Proqramı"nın icrası qaydasında milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni inzibati binasının açılışı mərasimində iştirakı və kollektivlə görüşərək tapşırıq və tövsiyələr verməsi prokurorluq əməkdaşlarında böyük ruh yüksəkliyi yaratmaqla, onlarda məsuliyyət hissini daha da artırmış, bu tarixi an korrupsiyaya qarşı mübarizə sahəsində yüksək siyasi iradənin mövcudluğunu bir daha təsdiq etmişdir.

Cənab Prezidentin Korrupsiyaya qarşı mübarizənin ümumxalq işi olması, ictimaiyyətin bu işlərə fəal qoşulması, hər bir vətəndaşın neqativ hallara biganə qalmaması ilə əlaqədar açılış mərasimindəki proqram xarakterli nitqi bu sahədə yüksək nəticələrin əldə olunması üçün mühüm əhəmiyyət kəsb etməklə prokurorluq orqanları qarşısında məsul vəzifələr qoymuş, korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin kəsərinin daha da artırılmasını, adekvat tədbirlərin gücləndirilməsini, mübarizə üsullarının daha da təkmilləşdirilməsini zəruri etmişdir.

Qısa zaman kəsiyində böyük inkişaf yolu keçən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin adı 2014-cü ildə dəyişdirilərək “Azərbaycan Respublikasinin Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi” adlandırılmış və Baş İdarə prokurorluğun sisteminə daxil edilərək statusu artırılmaqla səlahiyyətləri daha da genişləndirilmişdir. Növbəti ildə Baş İdarənin yeni strukturu, reqlamenti, idarə və şöbələrin əsasnamələri təsdiq edilmişdir.



Belə ki, yarandıqdan sonra cəmi 3 şöbədən (İstintaq, Analitik-informasiya və Daxili təhqiqatlar şöbələri), 40 prokuror və müstəntiqdən, habelə 13 texniki işçidən ibarət olan qurumun 2011-ci ildə strukturunun təkmilləşdirilməsi nəticəsində 3 şöbə (Təşkilati və informasiya təminatı, Əməliyyat və Əməliyyat təminatı şöbələri) və 1 şöbə səlahiyyətli qrup (Mütəxəsislər qrupu) yaradılmış, ləğv edilən 2 şöbənin bazasında adları qarşıda duran vəzifələrin icrasına adekvat yeni 1 şöbə (Preventiv tədbirlər və təhqiqat şöbəsi) və 1 xidmət (Daxili təhlükəsizlik xidməti) təsis edilmiş, beləliklə, idarənin tərkibində olan şöbələrin sayı 7-yə çatmışdır. 2014-cu ildə isə İdarənin əsasnaməsinə edilən dəyişikliyə əsasən qeyd edildiyi kimi Baş İdarə adlandırılmaqla yeni strukturunda 4 idarə və 3 şöbə yaradılmış, əməliyyat işçilərinin ştat vahidi isə 100-dən 140-a çatdırılmışdır.

Xüsusi qeyd edilməlidir ki, 2011-ci ildə Baş İdarəyə korrupsiyaya qarşı mübarizə sahəsində istintaq və təhqiqat funksiyasi ilə yanaşı, mustəqil dövlətlər birliyi məkanında, habelə Azərbaycan prokurorluğunun tarixində ilk dəfə olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyəti də verilmiş, bu təcrübə Baş İdarənin fəaliyyətində səmərəliliyi əhəmiyyətli dərəcədə artırmışdır.



Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəhbər heyəti



Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin kollektivi

Baş İdarənin strukturu aşağıdakı idarə və şöbələrdən ibarətdir:

Təşkilati və informasiya təminatı idarəsi – (Dəftərxana sektoru, Təsərrüfat sektoru və İnformasiya texnologiyaları təminatı sektoru);
İstintaq idarəsi;
Preventiv tədbirlər və təhqiqat idarəsi;
Əməliyyat idarəsi;
Əməliyyat təminatı şöbəsi;
Daxili təhlükəsizlik şöbəsi;
Mütəxəssis təhlilləri şöbəsi.



I Bölmə

Beynəlxalq əməkdaşlığın istiqamətləri və görülmüş işlər

Ümumbəşəri sosial bəla olan korrupsiya ilə mübarizədə beynəlxalq təşkilatların tövsiyələrinin, müvafiq konvensiyaların müddəalarının yerinə yetirilməsinin, bu sahədə digər ölkələrin uğurlarının öyrənilməsinin, qarşılıqlı təcrübə mübadiləsinin, elmi araşdırmaların aparılmasının, ikitərəfli və çoxtərəfli tədbirlərin keçirilməsinin əhəmiyyəti böyük olduğundan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən bu sahədə beynəlxalq əməkdaşlıq daha da genişləndirilməklə korrupsiyaya qarşı təsirin gücləndirilməsi istiqamətində fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatların işində fəal iştirak edilir. Yarandığı ilk dövrlərdən etibarən qurum müxtəlif beynəlxalq və regional səviyyəli tədbirlərdə təmsil olunur, öz fəaliyyətləri ilə həmin təşkilatların işinə müntəzəm olaraq fayda verir.

Cinayətkarlığın yeni formalarının əmələ gəlməsi buna qarşı səylərin birləşdirilməsini, o cümlədən xarici dövlətlərin aidiyyəti orqanları ilə əməkdaşlıq edilməsini, habelə beynəlxalq təşkilatların işində fəal iştirakçılığı zəruri edir. Zamanla səsləşən bu tələb öz növbəsində prokurorluq orqanlarının, o cümlədən milli anti-korrupsiya qurumlarının beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətlərini daha da möhkəmləndirmələrini zəruri edir.

Bu baxımdan korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi ilə əlaqədar həyata keçirilən tədbirlər daim Baş Prokurorluğun fəaliyyətinin prioritet istiqamətini təşkil etmişdir. 2007-ci ilin aprel ayında Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində keçirilən "Korrupsiya ilə mübarizə və vicdanın qorunması" mövzusu üzrə 5-ci Qlobal Forum, İndoneziyada keçirilən Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasına üzv dövlətlərin konfransının 2-ci iclası, 5 oktyabr 2009-cu il tarixdə Fransanın Strasburq şəhərində GRECO-nun 10 illiyinə həsr edilmiş yüksək səviyyəli konfrans, 2009-cu ilin noyabrın 7-13-də Qətərin paytaxtı Dohada Korrupsiyaya qarşı mübarizə üzrə 6-cı Qlobal Forum və BMT-nin Korrupsiyaya qarşı Mübarizə Konvensiyasının Konfransının 3-cü sessiyasında və digər bu kimi mötəbər beynəlxalq tədbirlərdə prokurorluğun rəhbər heyətlə təmsil olunmaları beynəlxalq əməkdaşlığa verilən əhəmiyyətin bariz nümunəsi kimi çıxış edə bilər.

Baş İdarə də, dövlət başçısının fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə beynəlxalq əməkdaşlığın önəmini və qarşılıqlı təcrübənin paylaşılmasının əhəmiyyətini nəzərə almaqla bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əlaqələrin qurulmasına və daha da inkişaf etdirilməsinə daim xüsusi əhəmiyyət vermişdir.

Adıçəkilən qurum yarandığı 2004-cü ildə öz fəaliyyətini dövlət başçısı cənab İlham Əliyevin müvafiq Fərmanı ilə təsdiq edilən əsasnaməsinə uyğun həyata keçirərək əsasən istintaq, analitik təhlil və daxili təhqiqat fəaliyyəti ilə tam və hərtərəfli məşğul olsa da, beynəlxalq əməkdaşlığın qurulması və inkişafı ilə bağlı fəaliyyəti nəzərəçarpacaq dərəcədə inkişaf etməmişdir. Bununla belə, beynəlxaq əlaqələrini ilbəil gücləndirərək 2007-ci ildən etibarən Birləşmiş Millətlər Təşkilatının (UN) Korrupsiya əleyhinə Konvensiyasının (UNCAC) implementasiyası çərçivəsində, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-Korrupsiya Şəbəkəsinin (ACN) İstanbul Fəaliyyət Planı çərçivəsində həmin təşkilatlarla, eləcə də, UN-un Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan Dövlətlər Qrupu (GRECO), Avropa Şurası,Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM, Beynəlxalq Anti-Korrupsiya Orqanları Assosasiyası (IAACA), Beynəlxalq Prokurorlar Assosasiyası (IAP),

Beynəlxalq Anti-Korrupsiya Akademiyası (IACA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (BSEC), Dünya Bankı və digər nüfuzlu beynəlxalq təşkilatlarla, eləcə də xarici dövlətlərin aidiyyəti qurumları ilə ikitərəfli əməkdaşlığa xüsusi önəm verməklə bu sahədə fəaliyyətini daha da möhkəmləndirmişdir.



Beynəlxalq təşkilatlar və onların baş mənzil qərargahlarının yerləşdiyi ölkələr barədə infoqrafika

Həmin dövrdən etibarən əsası qoyulmuş beynəlxalq əməkdaşlıq çərçivəsində görülən ardıcıl tədbirlər Azərbaycan Prokurorluğunu milli anti-korrupsiya stragiyasınının icrasının fəal təşəbbüskarı kimi tanıtmış, habelə, ölkəmizin bu sahədə beynəlxaq arenaya islahatçı bir dövlət kimi tanıdılması işində mühüm bir töhfə olmaqla xarici əlaqələrinin daha da genişləndirilməsinə səbəb olmuşdur. Baş İdarə nəinki xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə iştirak edən fəal tərəf olmuş, həmçinin, bır sıra mötəbər beynəlxalq təşkilatların ölkəmizdə tədbirlərinin keçirilməsində, xarici ölkələrin nümayəndə heyətlərinin ölkəmizə etdikləri səfərlərdə yüksək səviyyəli təşkilatçılıq etmişdir.

Belə ki, 31 mart-2 aprel 2008-ci il tarixlərdə IAACA İcraiyyə Komitəsinin iclasının və Beynəlxalq Konfransın, Azərbaycan Respublikasının Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi ilə əlaqədar 30 iyun-01 iyul 2014-cü il tarixlərdə Azərbaycan Hökuməti və Avropa Şurası tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və IACA-nın iştirakçılığı ilə "Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr" mövzusunda yüksək səviyyəli Beynəlxalq Konfransın, 2017-ci ilin 6-7 iyun tarixlərində Bakıda ECO-ya üzv dövlətlərin prokurorluq, ixtisaslaşdırılmış korrupsiyaya qarşı mübarizə qurumlarının rəhbərlərinin və ombudsmanlarının üçüncü iclasının, 9-11 oktyabr 2017-ci il tarixlərdə Azərbaycan Respublikası Prokurorluğu və IAP-ın, həmçinin Avropa İttifaqı və Avropa Şurasının birgə təşkilatçılığı ilə "Kibercinayətkarlıqla mübarizəyə dair Konfrans"ın, eləcə də 2018-ci ilin 9-10 aprel tarixlərdə IAP İcraiyyə Komitəsinin 45-ci iclasının Bakı şəhərində keçirilməsi, Bolqarıstan Respublikasının Baş Prokurorluğu ilə əməkdaşlığın genişləndirilməsi fonunda həmin ölkənin Baş prokuroru Sotir Tsatsarovun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri, beynəlxalq əməkdaşlıq çərçivəsində korrupsiya ilə mübarizə üzrə təhsil və ixtisasartırmanın formalaşdırılması və inkişafı qeyd edilən dövrdə anti-korrupsiya sahəsində beynəlxalq əməkdaşlığın qurulması və inkişafına misal kimi göstərilə bilər.

Birləşmiş Millətlər Təşkilatı (UN) ilə əməkdaşlıq

Təşkilatın qısa tarixi

1945-ci ildə yaradılmış dövlətlərarası beynəlxalq təşkilat olan UN-un hazırki üzvlərinin sayı 193 ölkədən ibarətdir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirmək olan bu təşkilatın baş mənzil qərargahı Nyu-York şəhərində yerləşir. UN İkinci Dünya Müharibəsindən sonra beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması, millətlər arasında dostluq əlaqələrinin inkişafı, sosial tərəqiyyə yardım, insan həyatının və hüquqlarının müdafiəsi səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmaqla nizamnaməsi 1945-ci il 26 iyunda San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanaraq 1945-ci il 24 oktyabrda qüvvəyə minmişdir. Bu beynəlxalq təşkilatın əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir. Üzv ölkələr öz aralarında onların hüquq və vəzifələrini müəyyənləşdirən UN Nizamnaməsi çərçivəsində əməkdaşlıq edirlər.

Təşkilatla Azərbaycan arasında münasibətlərin qurulması və Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi ilə (UNODC) Korrupsiya əleyhinə Konvensiyasının (UNCAC) implementasiyası çərçivəsində əməkdaşlıq

Azərbaycan Respublikası 1992-ci ildən bu mötəbər beynəlxalq təşkilatın üzvüdür. Azərbaycan Prokurorluğu bu qurumla əsasən UNODC və UNCAC-ın implementasiyası çərçivəsində əməkdaşlıq etməkdədir.

UNODC 1997-ci ildə yaradılmışdır. İdarənin qərargahı Avstriyanın paytaxtı Vyana şəhərində yerləşir və müxtəlif dövlətlərdə 21 nümayəndəliyi mövcuddur. İdarə UN-un Baş katibi tərəfindən təyin edilən sədrdən, 4 şöbədən, katiblikdən və 30-dan artıq struktur qurumdan ibarətdir.

Qurumun başlıca məqsədi müvafiq texniki yardım göstərməklə üzv-dövlətlərin narkotik vasitələrin qanunsuz alqı-satqısı, “çirkli pullar”ın yuyulması, terrorçuluğun maliyyələşdirilməsi, korrupsiya, insan alveri və bu kimi təhlükəli cinayətlərə qarşı tədbirləri həyata keçirmək potensialını gücləndirməklə onlara yardım göstərməkdən ibarətdir. Bundan başqa, İdarə UN-un Baş Assambleyasının 2003-cü il 31 oktyabr tarixli Qətnaməsi ilə qəbul edilmiş UNCAC müddəalarının qeyd edilən sənədin iştirakçısı olan dövlətlər tərəfindən yerinə yetirilməsinə dair qiymətləndirmələr həyata keçirir.

Azərbaycan Respublikası UNCAC-ın implementasiyasına həsr olunmuş bütün bu konfranslarda yüksək səviyyəli nümayəndə heyətləri ilə təmsil olunaraq Konvensiyanın müddəalarının üzv dövlətlər tərəfindən icra olunmasına nəzarət mexanizminin təşkil olunması ilə bağlı məzmunlu müzakirələrdə iştirak etmiş və tədbirlərdə önəmli qərarlar qəbul edilmişdir.

UNCAC-ı ratifikasiya etmiş üzv-ölkələrin Konfranslarında iştirak

Konfrans UNCAC üzrə əsas siyasi qurumdur. Konvensiyanın həyata keçirilməsində iştirakçı dövlətləri və imzalayanları dəstəkləyir və anti-korrupsiya fəaliyyətini inkişaf etdirmək və həyata keçirmək üçün UNODC-a siyasi istiqamət verir. Konfrans Konvensiyanın 63-cü maddəsinə əsasən yaradılmışdır. Həmin maddədə qeyd edilir ki, konvensiyanı həyata keçirmək üçün dövlətlərin potensialını artırmaq, konvensiyanın məqsədlərinə nail olmaq üçün dövlətlər arasında əməkdaşlığı genişləndirmək, konvensiyanın həyata keçirilməsini təşviq etmək və nəzərdən keçirmək üzv dövlətlərin Konfransı təsis edilir.

Konfrans hər iki ildə bir dəfə görüş keçirir və mandatının davam etdirilməsi üçün qətnamələr və qərarlar qəbul edir. Konvensiyanı ratifikasiya etmiş dövlətlər Konfransın tərəfləri hesab edilir, imzalamış dövlətlər isə Konfransda müşahidəçi qismində iştirak etmək hüququna malikdirlər. Konfrans Konvensiyanın səmərəli surətdə tətbiq edilməsinə kömək məqsədilə, zəruri hesab edərsə, hər hansı müvafiq mexanizmi və ya orqanı təsis edir.

Təsis edildiyi vaxtdan etibarən Konfrans cəmi 7 sessiya keçirtmişdir. İlk sessiya 10-14 dekabr 2006-cı ildə Omanda, 28 yanvar – 01 fevral 2008-ci ildə İndoneziyada, 9-13 noyabr 2009-cu il Dohada, 24-28 oktyabr 2011-ci ildə Mərakeşdə, 25-29 noyabr 2013-cü ildə Panamada, 2-6 noyabr 2015-ci ildə Rusiya Federasiyasında, 6-10 noyabr 2017-ci ildə isə Avstriyada keçirilmişdir.

Həmin sessiyalar çərçivəsində Konvensiya müddəalarının icrasına nəzarət mexanizmlərinin təmin edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi, korrupsiya cinayətlərinin qarşısının alınmasında preventiv fəaliyyətin rolu, texniki yardım kimi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılaraq, müvafiq rəyə gəlinir və qərarlar qəbul edilir.

Ölkəmiz daima həmin Konfransın sessiyalarında təmsil olunaraq korrupsiyanın formaları və bu sahədə təmayüllər, korrupsiyanın qarşısının alınması və onunla mübarizə, bu sahədə uğurlu təcrübə barədə məlumat verir, bu sahədə regional və beynəlxalq səviyyədə, o cümlədən ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinə dair mövqeyini sərgiləyir.

Qeyd edilməlidir ki, 2011-ci ilin 24-28 oktyabr tarixlərində Mərakeş Krallığının Mərrakeş şəhərində UNCAC-ı ratifikasiya etmiş üzv-ölkələrin Konfransının 4-cü sessiyası keçirilmiş və həmin tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri, Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının üzvü Fuad Ələsgərovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Baş prokurorun müavini Namiq Əsgərov və Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin rəisi Kamran Əliyev iştirak etmişlər.

Fuad Ələsgərov konfransda çıxış edərək, Prezident cənab İlham Əliyev tərəfindən korrupsiyaya qarşı mübarizə məsələlərinin dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirildiyini vurğulamış, bu sahədə Azərbaycan Respublikasının strateji kursu, ölkəmizdə həyata keçirilən şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və Fəaliyyət Planı çərçivəsində əldə olunmuş nailiyyətlər barədə ətraflı məlumat vermişdir.

Konfransın gedişatında Konvensiyanın implementasiya edilməsi, korrupsiya əməllərinin kriminallaşdırılması, bu sahədə beynəlxalq əməkdaşlıq və beynəlxalq hüquqi yardım məsələləri, Konvensiya müddəalarının icrasına nəzarət mexanizmlərinin təmin edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi, korrupsiya cinayətlərinin qarşısının alınmasında preventiv fəaliyyətin rolu, cinayət yolu ilə əldə olunmuş əmlakın müəyyən edilməsi,

izlənilməsi, müsadirəsi və bərpa olunması, çirkli pulların yuyulması, korrupsiya cinayətləri ilə əlaqədar ekstradisiyaların həyata keçirilməsi və texniki yardım kimi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılaraq, bu sahədə regional və beynəlxalq səviyyədə, o cümlədən ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi vurğulanmışdır.

Bundan başqa, 2013-cü ilin noyabrın 25-29-da Panamada keçirilmiş Konfransın 5-ci sessiyasında Azərbaycanı ədliyyə naziri Fikrət Məmmədovun başçılıq etdiyi rəsmi nümayəndə heyəti təmsil etmişdir. Nümayəndə heyətinə Milli Məclisin deputatı, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın üzvü Bəxtiyar Əliyev, Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin rəisi Kəmran Əliyev və Ədliyyə Nazirliyinin məsul şəxsləri daxil olunmuşlar.

F.Məmmədov Konfransın ilk sessiyasında çıxış edərək dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsi ilə ölkəmizdə korrupsiyaya qarşı aparılan sərt mübarizə, o cümlədən institusional və qanunvericilik tədbirləri, Açıq Hökumətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət planlarının həyata keçirilməsi, elektron, innovativ və şəffaf xidmətlərin dairəsinin genişləndirilməsi, ölkə Prezidentinin təşəbbüsü ilə yaradılmış və Azərbaycanın brendi sayılan ASAN xidmət barədə məlumat vermiş, Korrupsiyaya qarşı mübarizə idarəsinin fəaliyyətinin səmərəsinin artırılmasını vurğulamışdır.

Korrupsiya ilə mübarizədə müstəsna əhəmiyyət kəsb edən məhkəmə sisteminin müasirləşdirilməsi və infrastrukturunun yaxşılaşdırılmasını, hakimlərin müstəqilliyinin gücləndirilməsini, Azərbaycanda hakimliyə namizədlərinin dünyada ən şəffaf seçimini qeyd etmişdir.

Nazir həmçinin, antikorrupsiya sahəsində beynəlxalq əməkdaşlığa toxunaraq əsas məqsədi UNCAC-ın implementasiyasına dəstək vermək olan IAACA vitse-prezidenti kimi bu qurumun həmin ərəfədə Panamada qanunun aliliyi və korrupsiya ilə mübarizə mövzusuna həsr olunmuş İllik Konfransı barədə məlumat vermiş, habelə dövlətimizin IACA nizamnaməsinə xüsusi qanunla qoşularaq onun tamhüquqlu üzvü olduğunu vurğulamışdır.

Qeyd edilməlidir ki, həmin sessiyada qəbul edilmiş tərəqqi hesabatında Azərbaycan Respublikası qarşılıqlı hüquqi yardımın həyata keçirilməsini müvəffəqiyyətlə təmin edən 8 ölkə sırasında xüsusi vurğulanmışdır.





UNCAC-ı ratifikasiya etmiş üzv-ölkələrin Konfransının növbəti illik sessiyası Rusiya Federasiyasında təşkil edilmiş və ölkəmiz həmin tədbirdə təmsil olunmuşdur. Belə ki, 2015-ci ilin 2-6 noyabr tarixlərində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində UNCAC-a Tərəf Dövlətlərin Konfransının "Korrupsiyanın prevensiyası və əmlakın bərpası" mövzusunda keçirilmiş 6-cı sessiyası olmuşdur. UN-a üzv dövlətlərin yüksək səviyyəli nümayəndələri, antikorrupsiya qurumlarının, habelə bu sahədə ixtisaslaşmış nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri, qeyri-hökumət təşkilatlarının və beynəlxalq ekspertlərin iştirak etdiyi tədbirdə

ölkəmizi Baş prokurorun müavini –Baş İdarə rəisi Kamran Əliyevin rəhbərlik etdiyi və tərkibinə Baş Prokurorluq, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, həmçinin Azərbaycanın Avstriyadakı səfirliyinin əməkdaşları və ölkəmizin Sankt-Peterburq şəhərindəki baş konsulunun daxil olduğu nümayəndə heyəti təmsil etmişdir.



UN-un Korrupsiya əleyhinə Konvensiyasına Tərəf Dövlətlərin Konfransının "Korrupsiyanın prevensiyası və əmlakın bərpası" mövzusunda 6-cı sessiyası

Konfrans çərçivəsində Kamran Əliyev çıxış edərək "Korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycanın müsbət təcrübələri" adlı tədbir keçirilməklə Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər, o cümlədən məhkəmə-hüquq islahatları, ixtisaslaşmış antikorrupsiya qurumu - Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyası, habelə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış cinayət təqibi orqanı kimi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, habelə "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti barədə ətraflı məlumat verilmişdir. Plenar sessiya çərçivəsində Azərbaycan Respublikasının müəllifi olduğu "Qabaqcıl təcrübələrin və texnoloji innovasiyaların tətbiqi vasitəsilə şəffaf, məsuliyyətli və səmərəli ictimai xidmətlərin göstərilməsinin təşviq edilməsi ilə korrupsiyanın qarşısının alınması" adlı qətnamə səsverməyə çıxarılmış və Ermənistan nümayəndə heyətinin davamlı etirazlarına baxmayaraq qətnamə qəbul edilmişdir.

Həmin tədbir çərçivəsində Baş İdarə rəisi xarici dövlətlərin anti-korrupsiya qurumlarının rəhbərləri, Baş prokurorları, o cümlədən Belorusiya Respublikasının Baş prokuroru Aleksandr Konyukla görüşərək ikitərəfli qaydada ölkələrimizin korrupsiyaya qarşı mübarizə qurumları arasında əməkdaşlıq imkanlarının daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparmışdır.

Ölkəmizin iştirakının təmin edildiyi UN tərəfindən təşkil edilmiş tədbirlərdən biri kimi 6-10 noyabr 2017-ci il tarixlərdə Avstriya Respublikasının paytaxtı Vyana şəhərində UNCAC-a Tərəf Dövlətlərin Konfransının 7-ci Sessiyası xüsusilə qeyd edilməlidir. Həmin tədbirdə

ölkəmizi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov, Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyev, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov, Baş İdarənin böyük prokuroru vəzifəsini icra edən Səbuhi Alıyev və Azərbaycan Respublikasının Avstriya Respublikasındakı səfirliyinin III katibi Rövşən Səfərovdan ibarət nümayəndə heyəti təmsil etmişdir.

UNCAC-a tərəf olan 183 dövləti, müşahidəçi statusuna malik ölkələri, beynəlxalq və qeyri-hökumət təşkilatlarını təmsil edən 1800-dən çox nümayəndənin iştirak etdiyi konfransda təşkilatın UNCAC-ın icrası istiqamətində həyata keçirilmiş tədbirlərə dair ölkələrin məruzələri dinlənilmiş, eləcə də korrupsiyanın qarşısının alınması, cinayət yolu ilə əldə edilmiş gəlirlərin bərpası, həmçinin korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi ilə bağlı dinləmələr keçirilmiş, müvafiq qətnamə layihələri müzakirə edilərək qəbul edilmişdir.

Tədbir müddətində, həmçinin bir sıra ölkələrin nümayəndə heyətləri ilə keçirilən ikitərəfli görüşlər çərçivəsində ölkələrimizin korrupsiyaya qarşı mübarizə qurumları arasında əməkdaşlıq imkanlarının daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparılmış, UNCAC-



UNCAC-a Tərəf Dövlətlərin Konfransının 7-ci Sessiyası

ın icra vəziyyəti ilə bağlı Azərbaycan Respublikasının 2-ci dövri icmalının təşkili ilə bağlı bir sıra məsələlər müzakirə edilmişdir.

UN tərəfindən Azərbaycan üzrə monitorinqin keçirilməsi və UNCAC-ın İmplementasiyası üzrə Nəzarət Qrupunun sessiyalarında iştirak

İştirakçı Dövlətlərin Konfransı öz fəaliyyətini təmin etmək üçün köməkçi orqanlarını təsis etmişdir. Həmin orqanlara “Korrupsiyanın qarşısının alınması üzrə Açıq Hökumətlərarası İşçi Qrupu”, “UNCAC-ın İmplementasiyası üzrə Nəzarət Qrupu”, "Aktivlərin Bərpası üzrə İşçi Qrupu, “Beynəlxalq Əməkdaşlıq üzrə Ekspert Görüşü” aiddir. Bu orqanlardan UNCAC-ın İmplementasiyası üzrə Nəzarət Qrupu Konvensiyanın səmərəli həyata keçirilməsi üçün texniki yardım tələblərini nəzərdən keçirməyə məsuliyyət daşıyır.

Ölkəmiz UNCAC-a qoşulmuş ilk ölkələr sırasında olmaqla, həmin Konvensiyanın müddəalarının tətbiq olunmasına nəzarət mexanizminin UN-nin ekspertləri tərəfindən monitorinq edilməsinə şərait yaratmış, həmçinin qeyd edilən köməkçi orqanların iclaslarında, o cümlədən "UNCAC-ın İmplementasiyası üzrə Nəzarət Qrupu"nun sessiyalarında mütəmadi iştirak etmişdir.

Belə ki, prosedur qaydalara müvafiq olaraq Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə haqqında qanunvericilik və onun tətbiqinə dair ətraflı hesabat hazırlanaraq UNODC-a təqdim edildikdən sonra qurumun nümayəndə heyəti 12-17 mart 2012-ci il tarixlərdə Bakıda Azərbaycan Respublikasında UNCAC-ın həyata keçirilməsi ilə əlaqədar dəyərləndirmə səfərində olmuş, müxtəlif dövlət orqanlarında, o cümlədən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində görüşlər keçirmiş və həmin görüşlər zamanı ölkəmizin bu sahədə əldə etdiyi nailiyyətlərlə tanış olmuşlar.

Həmin monitorinqin davamı olaraq 2012-ci ilin 18-22 iyun tarixlərində Avstriyanın paytaxtı Vyana şəhərində keçirilmiş UNCAC-ın İmplementasiyası üzrə Nəzarət Qrupunun 3-cü sessiyasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və UNODC əməkdaşlarının, həmçinin Bosniya və Herseqovina, Qvatemala Respublikasından olan ekspertlərin birgə iştirakı ilə tərtib edilmiş Azərbaycan Respublikasının Konvensiyanın əsas maddələrinin implementasiyasına dair hesabat layihəsinin müzakirəsi aparılmışdır. Həmin sessiyada Baş İdarə sabiq rəis müavini İlqar Abbasovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunmuşdur.

2012-ci ilin 14-16 noyabr tarixlərində isə Konvensiyanın İmplementasiyası üzrə Nəzarət Qrupunun Vyanada keçirilmiş növbəti iclasında ölkəmizin hesabatının təsdiq olunması elan edilməklə bu barədə tərtib edilmiş xülasə üzv ölkələrin nümayəndələri arasında yayılmışdır. Həmin xülasədə ölkəmizdə korrupsiyanın kriminallaşdırılması və qarşılıqlı hüquqi yardım sahələrində görülmüş işlər qənaətbəxş hesab edilmiş, korrupsiyaya qarşı mübarizə işində hüquq mühafizə tədbirləri yaxşı təcrübə kimi təqdir edilmişdir.

2014-cü ilin 13-15 oktyabr tarixlərində Avstriyanın paytaxtı Vyana şəhərində keçirilən UNCAC-a Tərəf Dövlətlərin Konfransının İcraya Nəzarət Qrupunun 5-ci sessiyasında da Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin prokuroru Əmir Ocaqverdiyev və Preventiv tədbirlər və təhqiqat şöbəsinin böyük prokuroru Heydər Məmmədov tərəfindən təmsil olunmuşdur.

Sessiya zamanı UNCAC icmal prosesi çərçivəsində yaranan çətinliklər və müsbət təcrübələr barədə fikir mübadiləsi aparılmış, üzv dövlətlərin texniki yardım ehtiyacları müəyyənləşdirilmiş, Konvensiyanın icrasına nəzarət mexanizminin təkmilləşdirilməsi, habelə maliyyə və büdcələşmə məsələləri müzakirə edilmişdir.

Dövlətimizin təmsil olunduğu UNCAC-ın İmplementasiyası üzrə Nəzarət Qrupunun digər sessiyalara misal kimi 2016-cı ilin 14-16 noyabr tarixlərində Avstriyanın Vyana şəhərində keçirilmiş UNCAC-ın İmplementasiyasının Təftiş qrupunun bərpa olunan 7–ci sessiyası da göstərilə bilər ki, həmin tədbirdə Baş İdarə təmsil olunmuş və tədbir çərçivəsində korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizin gördüyü işlər, o cümlədən qarşılıqlı hüquqi yardım sahələrində görülmüş işlər qənaətbəxş hesab edilmiş, bu mübarizə sahəsində hüquq mühafizə tədbirləri müsbət dəyərləndirilmişdir.

Ölkəmizin nümayəndələrinin UN-un eksperti qismində iştirakı

UNCAC-a üzv Dövlətləri Konfransının İmplementasiya üzrə Nəzarət Qrupunun 2012-ci ilin iyun sessiyasında qəbul etdiyi qərara əsasən Meksika Birləşmiş Ştatları tərəfindən həmin

Konvensiyanın bir sıra maddələrinin implementasiyasını dəyərləndirəcək iki dövlətdən biri kimi Azərbaycan Respublikası müəyyən edildiyinə görə UNODC Katibliyi ilə danışıqlar aparılmaqla sözügedən dövlətin özünü dəyərləndirmə hesabatının qiymətləndirilməsi üzrə iş bölgüsü aparılmışdır.

18-22 avqust 2013-cü tarixlərdə Baş İdarənin əməkdaşı ekspertlər qrupu tərkibində Meksika Birləşmiş Ştatlarının Mexiko şəhərində Dəyərləndirmə iclasında iştirak etmişdir.

Tədbirdə Meksika hökumətinin özünüdəyərləndirmə toplusuna hazırladığı cavablar Azərbaycan mütəxəssisi tərəfindən öyrənilərək qiymətləndirilmiş, cavabdeh ölkəyə eskpert rəylərinin layihələri təqdim olunmuşdur. İş bölgüsünə əsasən korrupsiyanın kriminallaşdırılması, hüquq mühafizə qurumları, əmlak üzərinə həbs qoyulması və müsadirə, cinayət təqibindən immunitet, hüquqi şəxslərin korrupsiya cinayətlərinə görə məsuliyyəti, sübutetmə və sair məsələlər üzrə Meksika qanunvericiliyinin və təcrübəsinin beynəlxalq tələblərə cavab verməsinin qiymətləndirilməsi həyata keçirilmişdir.

Bundan başqa, 19 sentyabr -27 sentyabr 2015-ci il tarixlərində UNCAC-ın icrası ilə əlaqədar Kot d'İvuar (Fildişi Sahili) Respublikasının da dəyərləndirilməsini Baş İdarənin əməkdaşı həyata keçirmişdir.

UN xətti ilə həyata keçirilmiş konfranslarda iştirak



Bu beynəlxalq təşkilatla sıx münasibətlər zəminində 16-19 noyabr 2011-ci il tarixlərdə İsveçrənin Cenevrə şəhərində təşkil edilmiş Krans Montana Forumunun təşkilatçılığı ilə Transmilli Cinayətkarlığa qarşı 13-cü Beynəlxalq Sammit və Qlobal Təhlükəsizlik üzrə Forumda ölkəmizin rəhbər vəzifəli şəxslərindən ibarət nümayəndə heyəti iştirak etmişdir. Tədbir aktual beynəlxalq təhlükəsizlik məsələlərinə, o cümlədən beynəlxalq cinayətkarlığa, terrorizmə və korrupsiyaya qarşı mübarizə məsələlərinə həsr edilmişdir.

Tədbirdə Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri, Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının üzvü Fuad Ələsgərovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev iştirak etmişdir.

Azərbaycanda son illər ərzində yüksək iqtisadi və sosial inkişafa nail olunduğunu, demokratik dövlət quruculuğunun, müasir hüquq sisteminin təşkili sahəsində əsaslı islahatların həyata keçirildiyini bildirən Fuad Ələsgərov korrupsiya və mütəşəkkil cinayətkarlığa qarşı sərt və səmərəli tədbirlərin görüldüyünü qeyd etmiş, həmçinin ölkəmizin terrorizmə qarşı beynəlxalq koalisiyada fəal iştirak etdiyini, Azərbaycanın həyata keçirdiyi

enerji siyasəti nəticəsində beynəlxalq enerji təhlükəsizliyinin təminatçılarından biri kimi çıxış etdiyini bildirmişdir. Bununla yanaşı, Azərbaycanın da beynəlxalq terrorizmə məruz qaldığı, torpaqlarımızın Ermənistan tərəfindən işğal edilməsinin yalnız regional təhlükəsizliyə deyil, həmçinin qlobal təhlükəsizliyə, o cümlədən transmilli cinayətkarlığa, xüsusilə narkotik vasitələrin və silahların qanunsuz dövriyyəsinə şərait yaratdığı diqqətə çatdırılmışdır.

Daha sonra Kamran Əliyev sözügedən Forumda korrupsiya və qlobal idarəetmə mövzusunda çıxış edərək bu sahədə həyata keçirilən kompleks və sistemli tədbirlər barədə ətraflı məlumat vermiş, ölkəmizin götürdüyü beynəlxalq öhdəliklər, qanunvericilik və təşkilati tədbirlərin səmərəliliyi, təsis edilmiş ixtisaslaşmış qurumlar - Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin fəaliyyətinə xüsusi toxunmuşdur. O, idarə tərəfindən istintaqı aparılmış cinayət işlərinin statistikası və İdarədə yaradılmış "Qaynar xətt" əlaqə mərkəzinin fəaliyyəti barədə forum iştirakçılarına məlumat vermiş, bu sahədə QHT-lər və beynəlxalq qurumlarla sıx əməkdaşlığın qurulduğunu vurğulamışdır.

Sadalanan mötəbər tədbirlərlə yanaşı, 12–19 aprel 2015-ci il tarixlərində Qətərin paytaxtı Doha şəhərində 190-dan çox ölkədən olan 3 min nümayəndənin, o cümlədən ədliyyə və daxili işlər nazirləri, baş prokurorlar, digər hökumət üzvləri, nüfuzlu beynəlxalq təşkilatların rəhbər vəzifəli şəxslərinin iştirakı ilə keçirilmiş UN-un “Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi” üzrə 13-cü Konqresində Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti tərkibində Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyev iştirak etmişdir.





Tədbirdə Qətərin Baş naziri Abdulla bin Naser Al Tani Konqresin prezidenti, Azərbaycanın ədliyyə naziri isə vitse-prezidentlərdən biri seçilmiş, cinayətkarlıqla mübarizə üzrə səylərin gücləndirilməsinə dair Doha Bəyannaməsi qəbul olunmuşdur.

Korrupsiya məsələlərinə həsr edilmiş sessiyasında Kamran Əliyev çıxış edərək son dövrlər ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş qanunvericilik və institusional tədbirlər, əldə edilmiş uğurlar barədə məlumat vermişdir.

Azərbaycan nümayəndə heyəti tərəfindən ölkə başçısı cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları haqqında məlumatlar iştirakçıların diqqətinə çatdırılmışdır.

Bundan başqa, 23 may 2018-ci il tarixdə UN siyasi əhəmiyyətli tədbirində Baş prokurorun müavini - Baş İdarənin rəisi Kamran Əliyev iştirak etmiş və məruzə ilə çıxış etmişdir. Belə ki, UNCAC-ın qəbul edilməsinin 15 illiyi ilə bağlı Baş Assambleyasnın yüksək səviyyəli müzakirələri keçirilmiş, Baş Assambleyanın prezidenti Miroslav Layçak və UN-un baş katibi Antonio Quterreşin də iştirak etdikləri tədbirdə ölkəmizi Baş prokurorun müavini - Baş İdarənin rəisi Kamran Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir.

Tədbirin yüksək səviyyəli seqmentində çıxış edən K.Əliyev korrupsiyanın istənilən cəmiyyətdə demokratiyaya və qanunun aliliyinə təhlükə təşkil etdiyini, onun iqtisadi inkişafını ləngitdiyini bildirmişdir. Qeyd edilmişdir ki, korrupsiyaya qarşı mübarizə Prezident İlham Əliyevin Azərbaycanda həyata keçirdiyi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycanın UNCAC başda olmaqla, beynəlxalq və regional sənədlərə qoşulduğunu, qısa



UN-un Korrupsiyaya Qarşı Mübarizə Konvensiyasının qəbul edilməsinin 15 illiyi ilə bağlı Baş Assambleyanın yüksək səviyyəli tədbiri

müddət ərzində ölkəmizdə beynəlxalq standartlara uyğun müasir qanunvericilik sisteminin yaradıldığını, bu vaxta qədər korrupsiyaya qarşı dörd milli fəaliyyət planının icra edildiyini bildirən Baş prokurorun müavini korrupsiyanın qarşısının alınması sahəsində milli siyasəti müəyyənləşdirən Korrupsiyaya Qarşı Mübarizə Komissiyasının və konvensiyanın müddəalarına uyğun olaraq ixtisaslaşmış antikorrupsiya qurumunun - Baş İdarənin təsis olunması və onların uğurlu fəaliyyəti barədə məlumat vermişdir.

UN-un Korrupsiyaya Qarşı Mübarizə Konvensiyasının qəbul edilməsinin 15 illiyi ilə bağlı Baş Assambleyanın yüksək səviyyəli tədbirində çıxış edən K.Əliyev Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində dövlət xidmətlərinin şəffaflığına xüsusi əhəmiyyət verildiyini və bunun bariz nümunəsi kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan və Azərbaycan brendi hesab edilən "ASAN xidmət"in 2015-ci ildə UN-un ictimai xidmətlər üzrə mükafatına layiq görüldüyünü bildirmişdir.

Korrupsiyaya qarşı mübarizənin digər istiqaməti kimi ölkəmizdə ədliyyə sahəsində aparılan islahatlara toxunan baş prokurorun müavini bu islahatların Avropa Şurasının Ədliyyənin Səmərəliliyi üzrə Komissiyası tərəfindən yüksək dəyərləndirildiyini vurğulamışdır.

Çıxışda, eyni zamanda, korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığa da mühüm önəm verildiyi bildirilib və Azərbaycanın konvensiyanın icrasının icmalı mexanizmində, eləcə də korrupsiyaya qarşı mübarizə aparan prokurorların şəbəkəsinin işində fəal iştirak etdiyi qeyd olunmuşdur.

Tədbir çərçivəsində bir sıra ölkələrin anti-korrupsiya qurumlarının rəhbərləri və UNODC Ofisinin rəsmiləri ilə ikitərəfli görüşlər keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının UN yanında daimi nümayəndəsi Yaşar Əliyev də iştirak etmişdir.

Beynəlxalq Anti-Korrupsiya Akademiyası (IACA) ilə əməkdaşlıq

Təşkilatın qısa tarixi



UNODC, Avstriya Respublikasının, Avropa Komissiyasının Dələduzluğa qarşı Mübarizə Ofisi (OLAF) və digər maraqlı tərəflərin birgə təşəbbüsü ilə yaradılmış IACA anti-korrupsiya sahəsində bilik və təcrübədə mövcud çatışmazlıqları aradan qaldırmaq məqsədi güdür. Bu məqsədə nail olmaq üçün İACA korrupsiyaya qarşı mübarizə, təlim, şəbəkə və əməkdaşlıq, elmi tədqiqat sahəsində müstəqil bir mərkəz kimi fəaliyyət göstərir.

9-13 noyabr 2009-cu il tarixlərdə Qətərin Doha şəhərində keçirilmiş UNCAC-ın iştirakçı dövlətləri Konfransının üçüncü sessiyasında İACA-nın yaradılması haqqında qərar qəbul edilmişdir. Akademiyanın rəsmi açılış mərasimi 2010-cu il 2-3 sentyabr tarixlərində Avstriyanın Vyana şəhərində keçirilmişdir. Beynəlxalq təşkilat kimi İACA-nın yaradılması haqqında müqaviləyə UN-a üzv olan 35 dövlət tərəfindən təqdim olunmuş və imzalanmışdır. 2010-cu ilin sonunda müqavilə 50 dövlət və 3 beynəlxalq təşkilat tərəfindən imzalanmışdır. Belə bir qısa müddətdə 50-dən çox üzvü ilə IACA tarixin ən müvəffəqiyyətli beynəlxalq təşəbbüslərindən birini xarakterizə etməyə başlamışdır.

IACA-nın konfranslarında ölkəmizin iştirakı

Azərbaycan Respublikası da üzvü olduğu bu təşkilatın təşkil etdiyi görüşlərdə ali rəhbər vəzifəli şəxslər səviyyəsində daim iştirak etmiş və korrupsiyaya qarşı mübarizə istiqamətində qarşıya qoyulmuş vəzifələr və bu sahədə faydalı qarşılıqlı əməkdaşlıq məsələlərinə dəstəyini ifadə etmişdir. Belə ki, 14 fevral 2012-ci il tarixdə Baş prokuror cənab Zakir Qaralovun IACA-nın keçid qrupunun rəhbəri Martin Kreutner, Baş müşaviri Kladuia Bandion-Ortner və Baş elmi proqram mütəxəssisi Suzzane Haydenlə görüşü keçirilmişdir.

Görüş zamanı korrupsiyaya qarşı mübarizə istiqamətində Azərbaycan Respublikasında həyata keçirilən qanunvericilik və institusional tədbirlər, əldə olunmuş nailiyyətlər, qarşıya qoyulmuş vəzifələr, habelə bu kimi beynəlxalq təşkilatlarla faydalı qarşılıqlı əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Bundan başqa, Baş prokuror cənab Zakir Qaralov 29-30 noyabr 2012-ci il tarixlərdə Avstriya Respublikasının paytaxtı Vyana şəhərində IACA-nın Beynəlxalq Təşkilat kimi təsis edilməsi haqqında Sazişi ratifikasiya etmiş ölkə və təşkilatların yüksək vəzifəli nümayəndələrinin iştirakı ilə keçirilən ilk Assambleyasında da nümayəndə heyətinin rəhbəri qismində iştirak etmişdir. Həmin nümayəndə heyətinin tərkibində ölkəmizin Avstriya Respublikasındakı səfiri Qalib İsrafilov, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov və İdarə rəisi Kamran Əliyev də iştirak etmişlər.

Dünyanın 60-dan çox ölkəsinin və təşkilatlarının nümayəndələrinin, beynəlxalq müşahidəçilərin iştirak etdiyi Assambleyada çıxış edən Azərbaycanın Baş prokuroru ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırıldığını diqqətə çatdırmışdır. Nümayəndə heyətinin rəhbəri həmçinin, ölkə başçısının rəhbərliyi və təşəbbüsü ilə son dövrlərdə həyata keçirilmiş qanunverici və praktiki

tədbirlər, onların müsbət nəticələri barədə ətraflı məlumat vermiş, habelə ölkəmizin IACA ilə bundan sonra da sıx əməkdaşlıq edəcəyini vurğulamışdır.

Tədbir zamanı Akademiyanın rəhbəri Martin Kreutner və digər yüksək vəzifəli nümayəndələrlə ikitərəfli görüşlər keçirilməklə qarşılıqlı əməkdaşlığın perspektivləri müzakirə edilmişdir. Həmçinin Malayziya, Latviya, Cənubi Koreya, Tacikistan və digər ölkələrin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirilərək korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilməklə bu istiqamətdə gələcək əməkdaşlığın perspektivləri müzakirə edilmişdir. Azərbaycan Respublikasında Korrupsiyaya qarşı mübarizə tədbirlərini özündə əks etdirən bukletlər və Baş prokurorun çıxışının mətni tədbir iştirakçılarına paylanmışdır.

Assambleya gündəlikdə olan cari məsələlərə baxmış, o cümlədən təşkilatın İdarəetmə Şurasının üzvləri seçilmiş, yeni Prosedur Qaydalar qəbul edilmiş və növbəti ilin İşçi Proqramı və büdcə məsələləri müzakirə edilmişdir. IACA-nın 2-ci iclasının 2013-cü ildə Tayland Krallığında keçirilməsi qərara alınmışdır.



"Korrupsiyaya qarşı mübarizə: Beynəlxalq Standartlar və Milli Təcrübələr" mövzusunda keçirilmiş beynəlxalq konfrans

Azərbaycan Respublikasının Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi ilə əlaqədar 30 iyun-01 iyul 2014-cü il tarixlərdə Azərbaycan Hökuməti və Avropa Şurası tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və IACA-nın iştirakçılığı ilə "Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr" mövzusunda keçirilmiş yüksək səviyyəli beynəlxalq konfransda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın, mərkəzi icra hakimiyyəti orqanlarının, Baş Prokurorluğun, habelə ölkəmizin digər hüquq mühafizə qurumlarının, ali təhsil müəssisələrinin, QHT-lərin və beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin əməkdaşları iştirak etmişlər.

Konfransa Avropa Şurasına daxil olan 35 ölkədən və 13 nüfuzlu beynəlxalq təşkilatdan 130-dan çox nümayəndə, o cümlədən Türkiyə, Albaniya, Moldova, Xorvatiya, Gürcüstan, Monako və Lixtenşteynin baş prokurorları, Bosniya və Herseqovina, Albaniya, Xorvatiyanın

ədliyyə nazirləri, Fransa, Polşa, Litva, Makedoniya və Serbiyanın ixtisaslaşdırılmış anti-korrupsiya qurumlarının rəhbərləri, Avropa Şurasının İnsan Hüquqları və Hüquqi Məsələlər üzrə Baş İdarəsinin direktoru, GRECO-nun prezidenti, IACA-nın icraçı katibi, IAP-ın prezidenti, IAACA-nın baş katibi və digərləri qatılmışlar.

Baş prokuror Zakir Qaralov konfransın açılış mərasimində çıxış edərək dövlət başçısının Avropa Şurası Parlament Assambleyasının iclasında korrupsiyaya qarşı mübarizənin ölkəmizin Nazirlər Komitəsinə sədrliyi dövründə əsas prioritetlərdən birini təşkil edəcəyini və Avropanın qabaqcıl ölkələrinin müsbət təcrübəsindən istifadənin beynəlxalq əməkdaşlığın mühüm istiqaməti olduğunu bildirdiyini diqqətə çatdırmışdır.



"Korrupsiyaya qarşı mübarizə: Beynəlxalq Standartlar və Milli Təcrübələr" mövzusunda keçirilmiş beynəlxalq konfrans

Prezident Administrasiyasının rəhbəri, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın sədri, akademik Ramiz Mehdiyev konfrans iştirakçılarını salamlamış, bir çox ölkənin korrupsiyaya qarşı mübarizə sahəsində yaxşı təcrübə qazandığını vurğulamışdır. Prezident Administrasiyasının rəhbəri ölkəmizdə də korrupsiyaya qarşı mübarizə sahəsində çox böyük təcrübə qazanıldığını, Prezidentin Sərəncamı ilə mühüm qurumların yaradıldığını bildirmişdir. Akademik Ramiz Mehdiyev bu qurumlar arasında Baş İdarənin, dünyada nadir təcrübə olan "ASAN" xidmətin əhəmiyyətini xüsusi vurğulamışdır. Sonra akademik Ramiz Mehdiyev Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini diqqətə çatdırmışdır.

Habelə tədbirdə çıxış edən Avropa Şurasının İnsan Hüquqları və Hüquqi Məsələlər üzrə Baş İdarəsinin direktoru Filip Buoya, GRECO-nun prezidenti Marin Mrçela, IACA-nın dekanı və icraçı katibi Martin Kreutner konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycana öz təşəkkürlərini bildirərək korrupsiya və ona qarşı mübarizənin Avropa Şurasının və digər beynəlxalq qurumların gündəliklərində duran ən əsas məsələlərdən biri olduğunu bildirmişlər.

Prezident Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın üzvü Fuad Ələsgərov çıxışında korrupsiyaya qarşı mübarizə Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən olduğunu bildirmişdir.

Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri, IAACA-nın vitse-prezidenti Fikrət Məmmədov "Azərbaycanda anti-korrupsiya qanunvericiliyinin tətbiqi

və onun məhkəmə-hüquq sisteminin səmərəliliyinin artırılmasında rolu” mövzusunda məruzə ilə çıxış etmişdir.

Həmçinin, qeyd edilən yüksək səviyyəli konfransda Baş İdarə rəisi Kamran Əliyev “Korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış orqanlar: Azərbaycan təcrübəsi” mövzusunda çıxış edərək Prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər barədə ətraflı məlumat vermişdir.

2014-cü ilin noyabr ayının 19-da Bakıda, “Four Seasons” otelində IACA-nın üzvü və iştirakçısı olan dövlətlərin Assambleyasının 3-cü sessiyası da yaddaqalan olmuşdur. Belə ki, sessiyada 43 ölkədən 130-dan çox nümayəndə, o cümlədən nüfuzlu beynəlxalq təşkilatların - Avropa Şurasının, Avropa İttifaqının, GRECO, OLAF-ın, müstəqil anti-korrupsiya qurumlarının rəhbərləri, ədliyyə və daxili işlər nazirləri iştirak etmişlər. Əvvəlcə Prezident Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov Prezident İlham Əliyevin tədbir iştirakçılarına təbrik məktubunu oxumuşdur.



Sessiyanı giriş sözü ilə açan IACA-nın icraçı katibi Martin Kreutner Akademiyanın sürətli inkişafını və artıq dünya əhalisinin üçdə ikisini əhatə etdiyini diqqətə çatdırmışdır. O, Azərbaycanın IACA-ya qoşulduğu vaxtdan qurumun işində fəallığını bildirərək ölkəmizin bu mötəbər tədbirə ev sahibliyini təqdirəlayiq adlandırmışdır. M.Kreutner bu tədbirin Akademiyanın təşkilat kimi möhkəmlənəcəyinə böyük təkan verəcəyini qeyd edərək Azərbaycanın bu məsələdə dəstəyini, eləcə də sessiyanın yaxşı təşkil olunduğunu yüksək dəyərləndirmişdir.

Həmin tədbir çərçivəsində Baş prokuror Zakir Qaralov IACA-nın Assambleyasına sədr seçilərək həmin səlahiyyətlərini bir il müddətinə icra etmişdir.

Tədbir iştirakçılarını salamlayan Baş prokuror Zakir Qaralov regionun aparıcı dövləti olan, demokratik imicini gücləndirən Azərbaycanın IACA kimi nüfuzlu qurumun təşkilatçılığı ilə keçirilən tədbirə yenidən ev sahibliyi etməsinin hüquq ictimaiyyəti üçün əlamətdar hadisə olduğunu bildirmişdir.

Baş prokuror Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi müddətində korrupsiyaya qarşı mübarizə sahəsində səmərəli əməkdaşlığın digər məsələlərlə yanaşı, prioritetlər sırasına daxil edilməsini dövlətimizin başçısı İlham Əliyevin güclü siyasi iradəsinin nəticəsi olduğunu vurğuladı. Zakir Qaralov Azərbaycanın bütün beynəlxalq təşkilatlar kimi,

IACA-nın da fəaliyyətinə çox böyük önəm verməklə bu mötəbər tədris qurumu ilə sıx əlaqələr yaratdığını və təşkilatın üzvü kimi üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirdiyini diqqətə çatdırmışdır. Baş prokuror Assambleyanın üçüncü sessiyasının qlobal səviyyədə əməkdaşlığın bundan sonra da dərinləşməsinə zəmin yaradacağına, dünyada korrupsiyaya qarşı mübarizə sahəsində proseslərə töhfə verəcəyinə ümidvar olduğunu söyləmişdir.

Bununla yanaşı, 06 mart 2015-ci il tarixdə Avstriya Respublikasının Laksenburq şəhərində Avstriyanın yüksək vəzifəli şəxslərinin, Akademiyanın İdarəetmə Şurası üzvlərinin, Vyanada akkreditə olunmuş diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi IACA-nın yaradılmasının 4-cü ildönümünə həsr edilmiş tədbirdə Baş prokuror Zakir Qaralovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti tərkibində Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyev iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan Akademiyanın icraçı dekanı Martin Kroytner görülmüş işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat vermişdir. Akademiyanın Azərbaycanla səmərəli institusional əməkdaşlığını qeyd edən M.Kroytner bu tədris ocağı ilə əlaqələrə xüsusi önəm verdiyinə görə ölkəmizə dərin minnətdarlığını bildirmişdir.

Mərasimdə Baş prokuror, IACA Assambleyasının sədri Zakir Qaralov çıxış edərək dövlətimizin başçısı İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizənin ölkəmizdə prioritet olduğunu, kompleks və ardıcıl inzibati və institusional islahatların həyata keçirildiyini, bu siyasətin uğurla davam etdirildiyini diqqətə çatdırmışdır. Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq standartlara cavab verən qanunvericilik bazasının formalaşdırıldığını, korrupsiyaya qarşı mübarizə komissiyasının, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, "ASAN" xidmət və "Elektron Hökumət" portalının yaradıldığını vurğulayan Baş prokuror ölkəmizin bu sahədə öz müsbət təcrübəsini bölüşməyə hazır olduğuna əminlik ifadə etmişdir.

Həmçinin tədbir iştirakçılarına "ASAN" xidmətin, korrupsiyaya qarşı mübarizə Baş idarəsinin fəaliyyətini və ölkəmizdə korrupsiya ilə mübarizə sahəsində görülmüş işləri əks etdirən kitab, jurnal və digər nəşrlər təqdim edilmişdir.

Eyni zamanda, tədbir çərçivəsində Bolqarıstanın vitse-prezidenti, Akademiyanın İdarəetmə Şurasının rəhbəri xanım Marqarita Popova, Avstriyanın ədliyyə naziri Volfqanq Brandştetter, daxili işlər naziri xanım Yohanna Mikl-Leitner və digər rəsmi şəxslərlə görüşlər keçirilmiş, qarşılıqlı fəaliyyətə dair fikir mübadiləsi aparılmışdır.

Qeyd edilən mötəbər tədbirlərlə yanaşı, 10 sentyabr 2015-ci il tarixdə UN-un Avstriyanın paytaxtı Vyana şəhərində yerləşən mənzil-qərargahında Baş prokuror Zakir Qaralovun sədrliyi ilə IACA-nın Assambleyasının Bürosunun geniş tərkibli iclası keçirilmişdir. Büroya üzv ölkələrin yüksək səviyyəli nümayəndələri, habelə UN-un nəzdində fəaliyyət göstərən regional qruplara sədrlik edən ölkələrin səfirlərinin iştirak etdiyi iclasda Assambleyanın 9-11 dekabr 2015-ci ildə Vyana şəhərində keçirilməsi nəzərdə tutulan 4-cü sessiyasına hazırlıqla əlaqədar zəruri təşkilati işlər, qeyd olunan sessiyada qəbul edilməsi nəzərdə tutulmuş qətnamə layihələri, Akademiyanın İdarə Heyətinə seçkilər və sair məsələlər üzrə ətraflı müzakirələr aparılmışdır. Belə ki, tədbir çərçivəsində Akademiyanın İdarə Heyətinə seçkilər keçirilmiş və səsvermə keçirilmədən akklamasiya qaydasında Milli Məclisin üzvü Vüsal Hüseynov 6 il müddətinə İdarə Heyətinə üzv seçilmişdir.

Büronun iclasını giriş sözü ilə açan Assambleyanın sədri Zakir Qaralov Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin dövlət başçısı cənab Ilham Əliyevin möhkəm siyasi iradəsinə əsaslandığını xüsusi vurğulamaqla bu sahədə həyata keçirilmiş qanunvericilik və institusional islahatlar barədə ətraflı məlumat vermişdir. Korrupsiyaya qarşı

mübarizə sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyəti qeyd olunmaqla çıxışında IACA-nı bu sahədə ən uğurlu beynəlxalq təşəbbüslərdən biri kimi qiymətləndirmişdir.

Büronun geniş tərkibli iclasında nümayəndə heyətinin tərkibində Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri Qalib İsrafilov və Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyev iştirak etmişlər.

Bolqarıstanın vitse-prezidenti, IACA-nın İdarəetmə Şurasının sədri xanım Marqarita Popovanın ölkəmizə səfəri IAP-Azərbaycan münasibətlərinin yeni dövrünə qədəm qoyulması kimi qeyd edilə bilər. Belə ki, 29 sentyabr 2016-cı il tarixdə Baş prokuror Zakir Qaralov ölkəmizdə keçirilən V Bakı Beynəlxalq Humanitar Forumu ilə əlaqədar səfərdə olan Bolqarıstanın vitse-prezidenti, IACA-nın İdarəetmə Şurasının sədri xanım Marqarita Popova ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında mövcud strateji əməkdaşlığın ruhuna uyğun olaraq hər iki ölkənin prokurorluq orqanları arasında səmərəli ikitərəfli əlaqələrin inkişaf etməsindən doğan məmnunluq ifadə edilmiş, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən qanunvericilik və institusional, cinayət təqibi və qabaqlayıcı tədbirlər barədə, habelə Baş İdarənin strukturu və fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verilmişdir.



IACA-nın İdarəetmə Şurasının sədri xanım Marqarita Popovanın Bakıya səfəri

Eyni zamanda, Baş prokuror Zakir Qaralov korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın əhəmiyyətini, təcrübə mübadiləsinin vacibliyini nəzərə almaqla, bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əlaqələrin qurulmasına və daha da inkişaf etdirilməsinə daim önəm verildiyini bildirmişdir.

Baş prokuror ölkələrimiz arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsində, o cümlədən IACA-nın İdarəetmə Şurasının sədri kimi fəaliyyət göstərdiyi müddət ərzində ölkəmizə ayırmış olduğu xüsusi diqqət və müsbət töfhələrinə görə, o cümlədən bu mötəbər beynəlxalq təşkilatla əməkdaşlığın inkişaf etdirilməsində göstərdiyi fəal dəstəyə görə xanım Marqarita Popovaya minnətdarlığını bildirmişdir.

Görüş zamanı Azərbaycan və Bolqarıstan Baş Prokurorluqları arasında 2017-ci il ərzində qarşılıqlı əməkdaşlığın daha da inkişaf etdirilməsi və təcrübə mübadiləsi məqsədilə müvafiq fəaliyyət planının tərtib edilməsinə dair ilkin razılıq əldə olunmuşdur.

Həmçinin, 10-11 noyabr 2016-cı il tarixlərdə Vyana şəhərində IACA Assambleyasının 5-ci illik sessiyası keçirilmişdir ki, bu tədbirdə ölkəmizi Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir. Həmin iclasda Kamran Əliyev Akademiyanın Büro üzvü, Assambleyanın 5-ci sessiyasının sədrinin müavini vəzifəsinə seçilmiş və bu vəzifəsini 2017-ci ilin oktyabr ayına kimi icra etmişdir.

IACA çərçivəsində təhsil və ixtisasartırma

Qeyd edilməlidir ki, Azərbaycandan olan nümayəndələr öz peşə və ixtisas dərəcələrini artırması üçün IACA Yay Məktəbi Proqramında (IACSA) və magistraturasında (MACS) sistematik olaraq təhsil alırlar.

Belə ki, indiyədək İACSA-da 15 Azərbaycandan olan nümayəndə iştirak edərək onlara müvəffəqiyyət sertifikatları təqdim olunmuş, elmi təhsil alınması ilə əlaqədar olaraq MACS-ı 6 şəxs bitirmiş, 3 şəxs isə həmin Proqrama qəbul olunaraq hazırda təhsillərini davam etdirirlər.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-Korrupsiya Şəbəkəsi ilə əməkdaşlıq

Təşkilatın qısa tarixi

OECD 1947-ci ildə II Dünya Müharibəsindən sonra Avropanın bərpa olunması üçün ABŞ və Kanadanın Marşal Planına əsasən təsis etdiyi Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı əsasında qurulmuşdur.

Şimalı Atlantika Müqaviləsi Təşkilatının (NATO) iqtisadi müqabili olan OECD 1961-ci ildə onun təsis edilməsinə dair Konvensiya əsasında qurulmuşdur. Təşkilatın fəaliyyətinin əsas məqsədləri üzv ölkələrdə davamlı iqtisadi inkişafın təmin edilməsinə, işsizliyin aradan qaldırılması və həyat səviyyəsinin yüksəldilməsinə yardım etməkdən ibarətdir.

Hazırda 35 dövlət Təşkilatın üzvüdür və qurum 100-dən çox ölkədə iqtisadi inkişafa yardım göstərir. Təşkilatın baş qərargahı Fransa Respublikasının paytaxtı Paris şəhərində yerləşir.

Qeyd edilən təşkilat, həmçinin qlobal miqyasda korrupsiyaya qarşı mübarizənin öncüllərindən olmuş, 1994-cü ildə qurum Beynəlxalq Biznes Əməliyyatlarında Rüşvətxorluqla bağlı İşçi Qrupu təsis etmiş, həmin İşçi Qrupu tərəfindən 1997-ci ildə “Beynəlxalq Biznes Əməliyyatlarında xarici vəzifəli şəxslərin rüşvətxorluğuna qarşı Konvensiya” hazırlanaraq qəbul edilmişdir.

2003-cü ildə Təşkilat tərəfindən keçmiş kommunist bloku ölkələrinin anti-korrupsiya islahatlarına dəstək məqsədilə regionun 25 ölkəsini əhatə edən Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsi təsis edilmişdir. Cari olaraq Anti-Korrupsiya Şəbəkəsində iştirak edən ölkələr Albaniya, Azərbaycan, Ermənistan, Belarus, Bosniya və

Herseqovina, Bolqarıstan, Xorvatiya, Estoniya, Keçmiş Yuqoslaviya Respublikası Makedoniya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Moldova, Monqolustan, Monteneqro, Rumıniya, Rusiya, Serbiya, Sloveniya, Tacikistan, Türkmənistan, Ukrayna və Özbəkistandır.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-Korrupsiya Şəbəkəsi ilə əməkdaşlığın qurulması və inkişafı

Azərbaycan Respublikasının qeyd edilən Təşkilat və Şəbəkə ilə əməkdaşlığı ölkəmizin 2003-cü ildə İstanbul Fəaliyyət Planını qəbul edərək Təşkilat çərçivəsində iqtisadiyyatları keçid mərhələsində olan ölkələrin anti-korrupsiya şəbəkəsinə bölgənin digər ölkələri ilə birgə qoşulması ilə başlamışdır. İstanbul Fəaliyyət Planı Şəbəkəyə üzv ölkələrdə mərhələli şəkildə anti-korrupsiya islahatlarının həyata keçirilməsini və nəticələrinin qiymətləndirilməsini nəzərdə tutur. Fəaliyyət Planı üzrə qəbul edilmiş tövsiyələrin icra edilməsinə, həmçinin ölkənin qurumları arasında monitorinq prosesi ilə bağlı koordinasiyanın təmin edilməsinə Milli Koordinator cavabdehlik daşıyır. Hazırda Azərbaycan Respublikası üzrə Milli Koordinator Baş prokurorun müavini –Baş İdarə rəisi Kamran Əliyevdir.

İlk dəfə 2004-cü ilin iyun ayında qeyd olunan Fəaliyyət Planına əsasən Azərbaycan Hökuməti tərəfindən korrupsiyaya qarşı mübarizəyə dair qanunvericilik, institusional baza və dövlət qulluğunun şəffaflığı üzrə geniş məruzə təqdim olunmuş, həmin məruzə əsasında OECD-nin və üzv dövlətlərin ekspertləri tərəfindən dəyərləndirmə aparılmış və 24 tövsiyə verilmişdir. Bunların sırasında Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşdırılmış qurumunun Baş Prokurorluğun tərkibində təsis olunmasına dair tövsiyə də olmuşdur. İndiyədək respublikamız üç monitorinq mərhələsini uğurla tamamlayaraq uyğunluq hesabatı əldə etmişdir. Belə ki, ölkəmiz 2006-2010-cu illərdə I, 2010-2013-cü illərdə II, 2013-2016-cı illərdə III Monitorinq Mərhələlərindən uğurla keçmişdir.

Qeyd edilməlidir ki, Təşkilat və Şəbəkə ilə əməkdaşlıq çərçivəsində 2012-ci ildə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının sabiq katibi İnam Kərimov, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev və idarənin böyük prokuroru Elnur Musayev fevralın 22-dən 24-dək Monitorinq iclasında iştirak etmişlər.

İclasa sədrlik edən OECD-nin Azərbaycan Respublikası üzrə milli əlaqələndiricisi Kamran Əliyev çıxışında korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizin siyasi rəhbərliyi tərəfindən həyata keçirilmiş qanunvericilik və institusional tədbirlər, habelə korrupsiyaya qarşı mübarizə sahəsində aparılmış cinayət təqibi barədə ətraflı məlumat vermişdir.

Tədbirdə İdarə tərəfindən ingilis dilində hazırlanmış "Azərbaycanda hüquq-mühafizə üsulları ilə korrupsiyaya qarşı mübarizə" adlı kitabın təqdimatı keçirilmişdir. Həmin vəsait iştirakçı dövlətlərin və beynəlxalq təşkilatların, o cümlədən ATƏT və Avropa Şurası nümayəndələrinin böyük marağına səbəb olmuşdur.

Tədbirin son sessiyasında İstanbul Fəaliyyət Planının 2012-ci il, habelə 2013-2015-ci illər üçün fəaliyyət proqramı müzakirə edilərək üzv ölkələr tərəfindən bəyənilmişdir.

10-11 dekabr 2012-ci il tarixdə OECD-nin Paris şəhərindəki qərargahında "Şərqi Avropa və Mərkəzi Asiyada siyasi iradəyə təkan verilməsi" mövzusunda keçirilmiş Yüksək Səviyyəli Görüşündə Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri cənab Fuad Ələsgərovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. Tədbirdə çıxış edən Fuad Ələsgərov Prezident cənab İlham Əliyevin ölkəmizin davamlı iqtisadi inkişafını təmin etmək məqsədilə korrupsiyanın qarşısının alınmasına və dövlət idarəçiliyində şəffaflığın artırılmasına yönəlmiş möhkəm siyasi iradə nümayiş etdirdiyini vurğulamaqla korrupsiyaya

qarşı mübarizə sahəsində həyata keçirilən kompleks islahatlar barədə məlumat vermiş, habelə OECD-nin Azərbaycan Respublikası üzrə 3-cü raund dəyərləndirməsinin başlanmasını dəstəkləmiş və 2013-cü ilin iyun ayının əvvəllərində Bakı şəhərində keçirilməsi planlaşdırılan Monitorinq missiyasının səfəri ilə əlaqədar zəruri tədbirlərin görüləcəyini bildirmişdir.

Qeyd edilənlərlə yanaşı, 23-25 sentyabr 2013-cü il tarixlərdə isə Paris şəhərində ACN-nın İstanbul Fəaliyyət Planının 12-ci Monitorinq Görüşü və Rəhbər Qrupun 15-ci iclası keçirilmişdir. OECD-yə üzv ölkələrin, o cümlədən ABŞ, Türkiyə, Qərbi və Şərqi Avropa ölkələrinin, ATƏT, Avropa Şurası, Dünya Bankı və digər nüfuzlu beynəlxalq təşkilatların təmsil olunduğu tədbirlərdə Azərbaycan Respublikasını layihənin ölkəmiz üzrə milli əlaqələndiricisi - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov, layihə üzrə milli ekspert - İdarənin böyük prokuroru Elnur Musayevdən ibarət nümayəndə heyəti təmsil etmişdir. Təşkilatçıların dəvəti ilə tədbirlərdə həmçinin vətəndaş cəmiyyətinin nümayəndəsi - Korrupsiyaya qarşı mübarizə Qeyri-Hökumət Təşkilatlarının Məlumat Şəbəkəsinin əlaqələndiricisi - Konstitusiya araşdırmaları Fondunun sədri Əliməmməd Nuriyev iştirak etmişdir.

Monitorinq Görüşündə Azərbaycanın 3-cü raund dəyərləndirilməsinə dair hesabatı dinlənilmiş, ölkə rəhbərliyinin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə tədbirlərinin daha sistematik, genişmiqyaslı və səmərəli həyata keçirilməsinin təmin edilməsinə yönəlmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı", əsas istiqamətləri dövlət idarəçiliyində hesabatlılığın təmin edilməsi, ictimaiyyətin iştirakının genişləndirilməsi, yeni texnologiyaların tətbiqinin dəstəklənməsi olan "Açıq Hökumətin təşviq edilməsinə dair Milli Fəaliyyət Planı", korrupsiya hüquqpozmalarının aşkar edilməsi, təqsirləndirilən şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində nailiyyətlər, qabaqlayıcı tədbirlər, o cümlədədən mühüm anti-korrupsiya tədbiri kimi "ASAN" xidmət mərkəzlərinin yaradılması diqqətə çatdırılmışdır.

3-7 iyun 2013-cü il tarixlərdə ekspertlər qrupunun səfəri ilə əlaqədar hazırlanmış ikinci raund dəyərləndirmənin nəticəsində verilmiş tövsiyələrin icra vəziyyətini müəyyən edən qiymətləri və yeni tövsiyələri əks etdirən hesabat layihəsi iki oxunuşda üzv ölkələrin nümayəndələrinin müzakirəsinə çıxarılaraq qəbul edilmiş, bununla da Azərbaycan Respublikası Şəbəkənin 3-cü raund dəyərləndirilməsindən müvəffəqiyyətlə keçən ilk ölkə olmuşdur.

Hesabata əsasən Azərbaycanda korrupsiyaya qarşı mübarizənin strateji təşkili, bu prosesdə vətəndaş cəmiyyətinin iştirakı, tədqiqatların və sorğuların aparılması, treninqlərin təşkili, ixtisaslaşmış qurumların səmərəliliyinin artırılması, korrupsiya əməllərinə görə cinayət məsuliyyətinin və hüquqi şəxslərin korrupsiya cinayətlərinə görə məsuliyyətinin nəzərdə tutulması, müsadirənin tətbiqinin gücləndirilməsi, satınalmalarda və məhkəmə sistemində korrupsiyanın qarşısının alınması, dövlət qulluğunda və siyasi partiyaların maliyyələşdirilməsində şəffaflığın artırılması, özəl sektorda dürüstlüyün təşviqi sahələrində verilmiş tövsiyələrin icrası qənaətbəxş hesab edilmişdir.

ACN tərəfindən ölkəmizin anti-korrupsiya qanunvericiliyinin və onun icra səviyyəsinin icrası, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin modeli uğurlu nümunə kimi tanınmış, "ASAN" xidmət mərkəzlərinin fəaliyyəti təqdirəlayiq təcrübə olaraq göstərilmişdir.

Monitorinq Görüşündə həmçinin Gürcüstanın 3-cü raund dəyərləndirilməsinə dair hesabatları və Şəbəkənin digər üzvlərinin, o cümlədən Ukrayna, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Monqolustan dövrü hesabatları dinlənilmişdir.

Bundan başqa, 17 yanvar 2014-cü il tarixdə Baş İdarədə OECD Katibliyinin Anti-Korrupsiya məsələləri üzrə baş müşaviri Olqa Savran və qurumun İstanbul Fəaliyyət Planının layihə rəhbəri Tatyana Xavanska, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin



rəisi, ölkəmizin OECD ilə milli əlaqələndiricisi Kamran Əliyev, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov, ATƏT, Avropa İttifaqı, Avropa Şurası və digər beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin məsul əməkdaşları, müvafiq dövlət qurumlarının, vətəndaş cəmiyyəti institutlarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə ACN-nın İstanbul Fəaliyyət Planı tərəfindən ölkəmizin 3-cü Dəyərləndirmə Raundunun birinci mərhələsini müvəffəqiyyətlə keçməsi ilə əlaqədar qəbul etdiyi hesabatın təqdimatı keçirilmişdir.

Qeyd edilənlərin davamı olaraq, 23-24 mart 2015-ci il tarixlərində Paris şəhərində ACN-nın İstanbul Fəaliyyət Planının 15-ci Monitorinq Görüşü keçirilmişdir. Tədbirdə ölkəmizi OECD-nin ACN üzrə milli koordinatoru, Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Tədbirdə çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri ölkəmizdə Prezident cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində aparılan genişmiqyaslı tədbirlər barədə, o cümlədən ACN-nın İstanbul Fəaliyyət Planı çərçivəsində görülmüş işlər barədə ətraflı məlumat vermişdir. Eyni zamanda, Azərbaycan tərəfi təşkilatın ACN-nın IV raund üzrə yeni proqramının müzakirəsində fəal iştirak edərək, ölkəmiz üçün zəruri olan bir sıra məsələlərin proqramın layihəsinə daxil edilməsinə nail olmuşdur.

OECD-nin birgə təşəbbüsü ilə bağlı keçirilmiş mötəbər tədbirlərdən biri 25 -27 oktyabr 2017-ci il tarixlərdə Baş İdarənin inzibati binasında baş tutmuş “Korrupsiya cinayətlərinin istintaqı və cinayət təqibi: cinayət yolu ilə əldə edilmiş gəlirlərin müsadirəsi, əmlakın bərpası və prokurorların müstəqilliyi” mövzusunda beynəlxalq konfrans olmuşdur. Sözügedən tədbirə Şərqi Avropa və Mərkəzi Asiya regionundakı 20-dən artıq ölkənin korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış qurumlarının rəhbər şəxsləri, bilavasitə korrupsiya cinayətlərinin

istintaqı və cinayət təqibini həyata keçirən müstəntiq və prokurorlar, anti-korrupsiya məsələləri üzrə ixtisaslaşmış beynəlxalq ekspertlər, OECD-nin rəsmiləri, eləcə də ölkəmizin hüquq mühafizə orqanlarının nümayəndələri olmaqla 70-dən artıq iştirakçı qatılmışdır.

Tədbir çərçivəsində bir sıra iştirakçı dövlətlərin nümayəndələri tərəfindən konkret cinayət işlərinin nümunəsində təmsil olunduqları ölkələrin korrupsiya cinayətlərinin istintaqı və bu yolla əldə edilmiş gəlirlərin müsadirəsi təcrübəsinə dair çıxışlar edilmişdir. Görüşlərdə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsi əməkdaşları tərəfindən də bir sıra təqdimatlar keçirilmiş, ölkəmizin bu sahədə əldə etdiyi müsbət iş təcrübəsi önə çəkilmişdir. Bununla yanaşı, təmsilçilərimizlə Latviya, Rumıniya, Ukrayna və digər ölkələrin nümayəndə



“Korrupsiya cinayətlərinin istintaqı və cinayət təqibi: cinayət yolu ilə əldə edilmiş gəlirlərin müsadirəsi, əmlakın bərpası və prokurorların müstəqilliyi” mövzusunda beynəlxalq konfrans

heyətləri arasında ikitərəfli görüşlər keçirilmiş, Baş İdarə tərəfindən ibtidai istintaqı aparılan cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımla bağlı sorğuların icra vəziyyəti və əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Avropa İttifaqı ilə əməkdaşlıq (Tvinninq layihəsi)

Təşkilatın fəaliyyət istiqamətləri

Avropa Birliyi ilə əməkdaşlıq əsasən Avropada Qonşuluq Siyasəti konteksində həyata keçirilir. Bu əməkdaşlığın uğurlu nümunəsi Avropa İttifaqına üzv dövlətlərin və benefisiar ölkələrin dövlət idarəçilik qurumları arasında əməkdaşlıq aləti olan – "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinə dəstək" Tvinninq layihəsi olmuşdur.

Avropa İttifaqına üzv ölkələrin və Azərbaycan Respublikasının dövlət təsisatları arasında birgə layihələrin həyata keçirilməsini nəzərdə tutan "Tvinninq proqramı" həmin ölkələrin dövlət qurumlarının iş təcrübəsinin öyrənilməsinə yönəldilmişdir.

Ölkəmizin Avropa İttifaqının Tvinninq Proqramına qoşulması

Avropa İttifaqının Şərqi Əməkdaşlıq və Qonşuluq Siyasəti kontekstində həyata keçirilən və Avropa standartlarına uyğun şəkildə təşkilati quruluş prosesinə dəstək vermək məqsədi daşıyan Tvinninq Proqramı çərçivəsində Avropa Birliyinin ekspertləri ilə birgə "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsinə dəstək" layihəsi hazırlanmış və həmin layihədə Litva Respublikasının Baş Prokurorluğu və Xüsusi İstintaq İdarəsinin (STT) iştirak edəcəyi Avropa Birliyi tərəfindən 2009-cu ilin iyul ayında təsdiq olunmuşdur.

Əvvəlcədən 22 ay müddətinə nəzərdə tutulmuş layihə 2011-ci ilin aprel ayında başa çatmalı idi. Lakin tərəflərin qarşılıqlı razılığı əsasında 5 ay müddətinə uzadılmışdır.

Başlıca məqsədi Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə İdarəsinin fəaliyyətinin və səlahiyyətlərinin təkmilləşdirilməsi olan layihə 5 əsas istiqamət - idarənin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının, İdarənin korrupsiyanın qarşısının alınması sahəsində müxtəlif tərəfdaşlarla (media, QHT-lər, digər yerli və beynəlxalq əməkdaşlar ilə) qarşılıqlı əməkdaşlığının, idarə əməkdaşlarının təlim bacarıqlarının təkmilləşdirilməsi, idarə əməkdaşlarının peşəkarlığının artırılması və idarə əməkdaşlarının korrupsiya cinayətlərinə qarşı mübarizə, beynəlxalq qurumlarla işləmək vərdişlərinin inkişaf etdirilməsi istiqamətlərində həyata keçirilmişdir.

Layihə çərçivəsində korrupsiyaya qarşı mübarizə sahəsində Respublikamızdakı mövcud vəziyyət, eyni zamanda, qanunvericilik bazası ətraflı şərh edilmişdir. Müəyyən edilmiş cədvəl üzrə ekspertlərin ölkəmizə, həmçinin müsbət iş təcrübəsinin öyrənilməsi məqsədilə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi əməkdaşlarının Baltikyanı ölkələrə çoxsaylı tanışlıq səfərləri həyata keçirilmiş, layihə müddəti ərzində Litvanın Xüsusi İstintaq Xidmətinin (STT) 2 daimi məsləhətçisi idarədə fəaliyyət göstərmişdir.

Layihənin həyata keçirildiyi müddətdə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi əməkdaşlarının qabaqcıl təcrübənin öyrənilməsi məqsədi ilə müntəzəm olaraq Litva Respublikasının Xüsusi İstintaq Xidməti (STT), Korrupsiyanın Qarşısının alınması və Mübarizə Bürosu (KNAB), habelə Avstriya və Estoniya Respublikalarının korrupsiyaya qarşı

mübarizə sahəsində ixtisaslaşmış orqanlarına tanışlıq səfərləri həyata keçirilmişdir. İdarə əməkdaşlarının digər hüquq mühafizə orqanları nümayəndələrinə korrupsiyaya qarşı mübarizə sahəsində təlim bacarıqlarının təkmilləşdirilməsi, eyni zamanda, xarici ölkələrdə olan əmlakın müəyyən edilməsi və geri qaytarılması istiqamətlərində peşə vərdişlərinin inkişaf etdirilməsi istiqamətlərində çoxsaylı treninq və seminarlar təşkil edilmişdir.

Belə ki, 2010-cu il ərzində Tvinninq Layihəsinin 2-ci və icrasına uğurla başlanılmış 3-cü rübündə layihənin icrası istiqamətində Korrupsiyaya qarşı Mübarizə İdarəsi tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. Layihə hüquq ictimaiyyətinin diqqət mərkəzində olmaqla, Baş Prokurorluğun digər struktur qurumları da mütəmadi olaraq görülmüş işlər barədə məlumatlandırılmışdır. Layihənin 5 komponenti üzrə işlər paralel aparılmış, müxtəlif ekspert qruplarının Azərbaycan Respublikasında səfərləri ilə əlaqədar təsdiq olunmuş qrafik üzrə müvafiq tədbirlər həyata keçirmiş, layihənin 1-ci komponent üzrə 50-dən çox normativ-hüquqi akt toplanılaraq tərcüməsi təmin edilmiş və mövcud təcrübə öyrənilmişdir. Hesabat dövrü ərzində layihə üzrə nəzərdə tutulmuş köməkçi və tərcüməçilər müsabiqə yolu ilə seçilərək fəaliyyətə başlamışlar.

İdarənin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə 5 ölkənin – Rumıniya, İspaniya, Polşa, Latviya və Litva Respublikalarının təcrübəsi öyrənilmiş, 2-ci komponent üzrə ictimaiyyətin etimadını öyrənmək məqsədilə tanışlıq xarakterli görüşlər keçirilmiş, 3-cü komponent üzrə Korrupsiyaya qarşı Mübarizə İdarəsinin tədris tələbatları öyrənilmiş, 4-cü komponent üzrə idarə əməkdaşlarının sahələr üzrə təlim ehtiyacları təhlil edilərək treninqlərin siyahısı tərtib edilmiş, 5-ci komponent üzrə beynəlxalq xarakterli və transmilli cinayət işlərinin istintaqı, habelə bu cinayət işləri üzrə beynəlxalq əməkdaşlığın öyrənilməsi ilə əlaqədar müəyyən işlər görülmüşdür.

Tvinninq çərçivəsində seminar

Layihə çərçivəsində Latviya Respublikası Korrupsiyanın qarşısının alınması və korrupsiyaya qarşı mübarizə bürosunun (KNAB) 2 nəfər eksperti Eva Kutsika və Elze Leymane tərəfindən 2010-cu ilin 24-25 fevral tarixlərində Baş Prokurorluğun inzibati binasında prokurorluğun kütləvi informasiya vasitələri ilə işləyən əməkdaşları, o cümlədən İdarənin 6 əməkdaşı, Baş Prokurorluğun Hüquqi-təminat və informasiya idarəsinin 3 əməkdaşı, Azərbaycan Respublikası Hərbi və Bakı şəhər prokurorunun ictimaiyyətlə əlaqələr üzrə köməkçiləri üçün "İctimaiyyətlə əlaqələrin gücləndirilməsi" mövzusunda treninq-seminar keçirilmişdir. Seminar çərçivəsində ekspertlər tərəfindən prokurorluq əməkdaşlarına Latviya Respublikasının Korrupsiya ilə mübarizə və korrupsiyanın qarşısının alınması bürosunun yaranma tarixi, iş prinsipləri, ictimaiyyətlə əlaqələrin xüsusatları, kütləvi informasiya vasitələri ilə əlaqələrin qurulması, o cümlədən, mətbuat konfranslarının təşkil edilərək keçirilməsi, müsahibələrin verilməsi və sair məsələlər barədə məlumat verilmişdir.

Tvinninq çərçivəsində tanışlıq səfərləri

Layihəsinin 3-cü rübü üzrə planlaşdırılmış tədbirlərə müvafiq olaraq İdarə əməkdaşlarından ibarət nümayəndə heyəti 10-15 may 2010-cu il tarixlərdə Rumıniyada səfərdə olmuşlar. Səfər çərçivəsində əməkdaşlar Ruminiyanın korrupsiyaya qarşı mübarizə

sahəsində ixtisaslaşmış qurumlarının, o cümlədən Ədliyyə və Vətəndaş azadlığı Nazirliyinin Baş Əməkdaşlıq Direktorluğunun, Rumıniyanın Milli Antikorrupsiya İdarəsinin (DNA), Rumıniya Daxili İşlər Nazirliyinin Anti-korrupsiya İdarəsinin, Milli Dürüstlük Agentliyinin fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Layihə çərçivəsində idarə əməkdaşlarından ibarət nümayəndə heyəti 14-28 iyun 2010-cu il tarixlərdə Estoniya, Litva və Latviya Respublikalarında səfərdə olmuşlar. Səfər zamanı nümayəndə heyətinin üzvləri Estoniya Respublikası Daxili İşlər Nazirliyi və Təhlükəsizlik Polisi, Latviya Respublikasının Baş Prokurorluğu və Korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə bürosu (KNAB), Litva Respublikasının Baş Prokurorluğu, Xüsusi İstintaq İdarəsi (STT) və bir sıra digər korrupsiyaya qarşı mübarizə aparan ixtisaslaşmış dövlət qurumları və vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti ilə yaxından tanış olmuş, qarşılıqlı təcrübə mübadiləsi aparmışlar.

Bundan başqa, layihə çərçivəsində idarə əməkdaşlarından ibarət nümayəndə heyəti 08-14 iyul 2010-cu il tarixlərdə Litva və Latviya Respublikalarında tanışlıq səfərində olmuşlar.



Tvinninq layihəsi çərçivəsində Avropa Komissiyasının iclası

Ölkəmiz tərəfindən bu layihə çərçivəsində görülmüş işlərin hesabatı

Qeyd edilən təşkilatla əməkdaşlığın davamı olaraq, 08 avqust 2010-cu il tarixdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsində Tvinninq layihəsinin 4-cü rübü üzrə görülmüş işlərin hesabatına həsr olunmuş iclas keçirilmiş, 23 noyabr 2010-cu il tarixdə isə idarədə Tvinninq layihəsinin 2010-cu ilin avqust-oktyabr ayları üzrə görülmüş işlərin hesabatına həsr olunmuş iclas keçirilmişdir.

Avropa İttifaqı çərçivəsində seminarlar

Tvinninq proqramı çərçivəsində Litva Respublikasının Xüsusi İstintaq İdarəsi (STT) ekspertlərinin iştirakı ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsində iki seminar keçirilmişdir. Belə ki, 7-9 dekabr 2010-cu il tarixdə keçirilmiş seminar "Beynəlxalq hüquqi əməkdaşlığın təşkilinin praktiki məsələləri", 14-15 dekabr 2010-cu il tarixlərdə keçirilmiş seminar "Əmlakın bərpa olunması və əmlak müsadirəsi" mövzularında olmuşdur. Seminarlarda İdarənin əməkdaşları ilə yanaşı, Baş Prokurorluğun digər idarələrinin də prokurorları iştirak etmişlər.

12 aprel 2013-cü il tarixdə Bakı şəhərində Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Avropa İttifaqının təşkilatçılığı ilə Tvinninq, TAİEX və SİQMA Alətlərinin Proqram İdarəetmə Qurumu (PİQ) və Tvinninq, TAİEX və SİQMA əməliyyatlarının tətbiqinə dəstək (İTTSO) layihəsi çərçivəsində keçirilmiş "Tvinninq proqramlaşdırılması-2012" adlı seminarda İdarənin əməkdaşı iştirak etmişdir.

Tədbirdə Tvinninq, TAİEX və SİQMA Alətlərinin Proqram İdarəetmə Qurumunun, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin, Tvinninq, TAİEX və SİQMA əməliyyatlarının tətbiqinə dəstək (İTTSO) layihəsinin, Vergilər Nazirliyinin və Dövlət Statistika Komitəsinin əməkdaşları məruzələrlə çıxış etmişlər.

Bundan başqa, 18 aprel 2013-cü il tarixdə İqtisadi İnkişaf Nazirliyində Avropa İttifaqının Tvinninq, TAİEX və SİQMA Alətlərinin Proqram İdarəetmə Qurumu və "Tvinninq, TAİEX və SİQMA əməliyyatlarının tətbiqinə dəstək (İTTSO)" layihəsi tərəfindən keçirilmiş "Tvinninq layihələri üzrə sinopsislərin hazırlanması" adlı təlimdə İdarənin əməkdaşı iştirak etmişdir.

Respublikamızın Nazirlik, komitə və digər dövlət qurumlarının məsul əməkdaşlarının iştirak etdiyi təlimdə Avropa İttifaqının Tvinninq, TAİEX və SİQMA Alətlərinin Proqram İdarəetmə Qurumu və "Tvinninq, TAİEX və SİQMA əməliyyatlarının tətbiqinə dəstək (İTTSO)" layihəsi ekspertləri tərəfindən Tvinninq layihələri üzrə sinopsislərin hazırlanması, layihənin müddəti və əsas mərhələləri, layihə ideyasının müəyyənləşdirilməsi və əsaslandırılması, habelə Tvinninqi tamamlayan TAİEX və SİQMA alətlərinə dair ətraflı məruzələr söylənilmiş, iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

Avropa Komissiyasının Dələduzluğa qarşı Mübarizə Ofisi (OLAF) və Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) ilə əməkdaşlıq



Təşkilatın qısa tarixi

OLAF-a Avropa İttifaqı tərəfindən Avropa İttifaqının maliyyə maraqlarını qorumaq üçün mandat verilmişdir. Avropa Komissiyasının 1999/352 saylı qərarı ilə 28 aprel 1999-cu ildə təsis edilmişdir və vəzifələri Avropa Birliyinin büdcəsinə təsir edən fırıldaqçılıqlarla mübarizə aparmaq, Avropa İttifaqı qurumlarının əməkdaşları tərəfindən korrupsiyanın araşdırılmasını təmin etmək və dələduzluqla mübarizə qanunvericiliyi və siyasətlərini inkişaf etdirməkdir.

OLAF müstəqil daxili və xarici tədqiqatlar apararaq öz missiyasına nail olur. Fırıldaqçılıqla mübarizədə üzv dövlətlərdə dələduzluqla mübarizə tərəfdaşlarının fəaliyyətini əlaqələndirir. OLAF üzv dövlətlərə lazımi dəstəyi və texniki biliklərini təmin edir ki, onlara dələduzluqla mübarizə fəaliyyətində yardım göstərsinlər. Bu Avropa İttifaqının dələduzluqla mübarizə strategiyasının görünüşünə xidmət edir və müvafiq qanunvericiliyin gücləndirilməsi üçün zəruri təşəbbüslər görür. OLAF inzibati araşdırmalar da aparır. Milli hüquq-mühafizə orqanlarını onun təqib tövsiyələrini yerinə yetirməyə məcbur etmək üçün məhkəmə səlahiyyətləri isə yoxdur.

EPAC Avropa Şurası Üzv ölkələrinin 70-dən çox korrupsiyaya qarşı mübarizə aparan orqan və polis nəzarəti orqanlarını bir araya gətirən müstəqil, qeyri-rəsmi bir şəbəkədir. Müxtəlif mənşəli səlahiyyətlər və hüquqi formaları vardır. EPAC təcrübə mübadiləsi, imkanları müəyyənləşdirmə və ümumi strateji və yüksək peşəkar standartları inkişaf etdirmə məqsədləri ilə milli sərhədlər arasında əməkdaşlığa vasitə rolunu oynayır. Hər il EPAC üzvləri EACN ilə birlikdə 2008-ci ildən etibarən peşəkar bir konfrans təşkil edir və il ərzində fəaliyyət göstərən bir sıra işçi qruplarına malikdirlər.

Şəbəkə 2001-ci ildə Avropa İttifaqının Belçika Başkanlığı himayəsi altında fəaliyyətə başlamışdır. 15 Avropa Birliyi Üzv Dövlətini təmsil edən 25 nəzarət orqanının başçıları, polislə əlaqəli əməkdaşlığın artırılması zəruriliyini birgə çağırışların daha yaxşı həll edilməsi və vahid cavabların tapılması yolu hesab etmişdilər. Birinci addım olaraq, görüşlər üçün illik səviyyədə görüşməyə qərar vermişdilər.

Sonradan üzvlərinin sayını genişləndirərək Şəbəkə 2004-cü ilin noyabr ayında Avstriyanın Vyana şəhərində keçirilən Avropada korrupsiyaya qarşı mübarizə üzrə Əməkdaşlıq Konfransı zamanı rəsmən açılmışdır.

Qeyd edilən təşkilatlarla ölkəmizin əməkdaşlığının yaranması və inkişafı

Həmin təşkilatların anti-korrupsiya və dələduzluğa qarşı mübarizə fəaliyyətinə böyük dəstək verməsini nəzərə alaraq, Azərbaycan Respublikası da Baş idarə vasitəsilə qurumlarla münasibətlərini yaratmış və əməkdaşlığını davam etdirməkdədir.

Belə ki, 26 mart 2015-ci il tarixdə Brüssel şəhərində OLAF və EPAC şəbəkəsinin rəhbəri Covanni Kesslerlə Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin görüşü baş tutmuşdur. Görüş zamanı cənab Kessler Baş İdarə nümayəndələrinin ilin sonunda keçiriləcək şəbəkənin illik iclasına dəvət olunmasını qeyd etmiş və Baş İdarənin şəbəkəyə tamhüquqlu üzv seçilməsinə ümidvar olduğunu bildirmişdir. Görüş zamanı, həmçinin Baş İdarənin OLAF təşkilatı ilə əməkdaşlıq perspektivləri və digər zəruri məsələlər də müzakirə edilmişdir.

Noyabrın 18-dən 20-dək Parisdə korrupsiyaya qarşı mübarizə məqsədi ətrafında peşəkarları birləşdirən müstəqil forum olan EPAC və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin (EACN) 15-ci illik Peşəkar Konfransı və Baş Assambleyası keçirilmişdir. "Korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı və inzibati tədbirlərin balanslaşdırılmış tətbiqi" mövzusunda keçirilən tədbir Fransa Milli Polisi Baş İnspektorluğunun təsis edilməsinin 130 illiyi münasibəti ilə həmin qurumun inzibati binasında baş tutmuşdur.

Qeyd edilən qurumların prezidenti, eləcə də OLAF baş direktoru Covanni Kesslerin 2014-cü ilin noyabrında Azərbaycan Respublikasına rəsmi səfəri zamanı Baş prokuror Zakir Qaralovla əldə edilmiş razılığa əsasən Azərbaycan Respublikası Prokurorluğu, o cümlədən Baş İdarənin EPAC və EACN-ə üzvlük məsələsinin baxılması məqsədi ilə Fransa Milli Polisi Baş İnspektorluğunun rəhbəri xanım Mariya Frans Moneger-Quyomarş və OLAF-ın baş direktorunun dəvəti ilə sözügedən tədbirlərdə Baş prokurorun müavini –Baş İdarə rəisi Kamran Əliyev iştirak etmişdir. Baş Assambleyada Azərbaycanın quruma üzvlük məsələsinə baxılmışdır. Səsvermədən əvvəl K.Əliyev çıxış edərək Prezident cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində bütün beynəlxalq təşəbbüslərin fəal iştirakçısı olmaqla beynəlxalq əməkdaşlığa böyük önəm verdiyini, mütərəqqi beynəlxalq təcrübələrin öyrənilməklə tətbiq edilməsinin beynəlxalq əməkdaşlığın prioritet istiqaməti olduğunu vurğulamışdır. Daha sonra səsvermə keçirilmiş və Azərbaycan Respublikası Prokurorluğu qeyd olunan təşkilata üzv qəbul edilmişdir.

Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat (GUAM) ilə əməkdaşlıq

Təşkilatın qısa tarixi

GUAM Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanı birləşdirən regional təşkil kimi 1997-ci ilin oktyabr ayının 10-da yaradılmış, 22-23 may 2006-cı il tarixində Kiyevdəki Zirvə Toplantısında təsis edilmişdir. Baş İdarə ilə GUAM-ın alt işçi qrupları arasında qarşılıqlı və səmərəli əməkdaşlıq həyata keçirilir. Bu əməkdaşlıq çərçivəsində ABŞ-ın maliyyə dəstəyi ilə GUAM və Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-Korrupsiya şəbəkəsinin korrupsiya və çirkli

pulların yuyulması ilə əlaqədar cinayətlərin qarşısının alınması, aşkar edilməsi və cinayət təqibinin həyata keçirilməsi sahəsində birgə layihələr həyata keçirilməkdədir.

Təşkilatla ölkəmizin əməkdaşlığının yaranması və inkişafı

Həmin təşkilatla əməkdaşlıq çərçivəsində 05-07 mart 2013-cü il tarixlərdə Bakı şəhərində "Çirkli pulların yuyulması hallarının aşkarlanması və istintaqı məqsədilə milli hüquq-mühafizə orqanlarının birbaşa qurumlararası beynəlxalq əməkdaşlıq təcrübələrinin təkmilləşdirilməsi" mövzusunda keçirilmiş seminar təşkilata verilən xüsusi dəyərin göstərici kimi qiymətləndirilə bilər. Həmin tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Təşkilati və informasiya təminatı şöbəsinin prokuroru Sahib İsmayılov, Preventiv tədbirlər və təhqiqat şöbəsinin prokurorları Rəşid Mahmudov və Heydər Məmmədov iştirak etmişlər. GUAM Katibliyinin, UNODC nümayəndələrinin, habelə ABŞ, Niderland Krallığı, Almanya, Belçika, Estoniya, Ukrayna, Moldova və Gürcüstan Respublikalarının hüquq mühafizə və maliyyə monitorinqi xidmətlərinin, eyni zamanda Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin əməkdaşlarının iştirak etdiyi tədbir zamanı cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin leqallaşdırılmasına qarşı mübarizədə vergi, gömrük, maliyyə monitorinqi və ixtisaslaşmış qurumların beynəlxalq əməkdaşlığının mexanizmləri, həmçinin bu sahədə mövcud təcrübə barədə çıxışlar edilmişdir.





Bundan başqa, qeyd edilməlidir ki, hər il Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərində GUAM-ın "Korrupsiya və çirkli pulların yuyulması ilə mübarizə üzrə işçi alt-qrupu"nun iclası keçirilir və sonuncu keçirilmiş tədbir kimi 27-28 aprel 2017-ci il tarixlərdə baş tutmuş iclas misal olaraq göstərilə bilər. Həmin iclasda Azərbaycan Respublikasının Prokurorluğunu Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Məhəmməd Hacıyev və Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Ayxan Kazımov təmsil etmişlər.

Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan Dövlətlər Qrupu (GRECO) ilə əməkdaşlıq

Təşkilatın qısa tarixi



GRECO 01 may 1999-cu il tarixdə Avropa Şurasına üzv dövlətlərin korrupsiya əleyhinə mübarizə standartlarına riayət etmələrinə nəzarətin aparılması, üzv dövlətlərin nümayəndələrindən ibarət olan ekspert qrupları tərəfindən dövlətlərin dinamik dəyərləndirilməsi, müəyyən edilmiş sahələr üzrə ölkələrin potensialının artırılması və ölkələrə milli anti-korrupsiya strategiyalarının hazırlanmasında kömək göstərmək məqsədi ilə təsis olunmuşdur. Hazırda 49 üzvü olan GRECO-ya Avropa Şurası ölkələri ilə yanaşı, ABŞ da daxildir.

GRECO hər bir ölkə barəsində dəyərləndirmə həyata keçirməklə müvafiq hesabatlar qəbul edir. Hesabatlarda göstərilən tövsiyələrin yerinə yetirilməsi üçün adətən 18 ay vaxt müəyyən edir.

Təşkilatla ölkəmizin əməkdaşlığının yaranması və inkişafı

Azərbaycan Avropa Şurasının “Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında“ və “Korrupsiya ilə əlaqədar mülki məsuliyyəti haqqında“ konvensiyalarını 11 fevral 2004-cü il tarixdə ratifikasiya etmiş və onlar qüvvəyə mindiyi 01 iyun 2004-cü il tarixdən GRECO-ya üzv olmuşdur.

GRECO Azərbaycana dair dəyərləndirmə raundlarını həyata keçirərək hesabatları Plenar İclaslarında qəbul etmiş, həmçinin Hesabatların dinlənilmələrini həyata keçirmişdir.

Həmin təşkilatın dəyərləndirmələrindən irəli gələrək keçirilmiş mötəbər iclaslara misal olaraq 20-23 mart 2012-ci il tarixlərdə Fransa Respublikasının Strasburq şəhərində keçirilmiş 54-cü Plenar iclası göstərmək olar ki, bu tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev iştirak etmişdir.

İclas zamanı Rusiya Federasiyası, İtaliya Respublikası və Monakonun 3-cü raund dəyərləndirmə hesabatları dinlənilmiş, Makedoniya və Türkiyə Respublikalarının 3-cü raund uyğunluq hesabatları qəbul edilmiş, eyni zamanda Azərbaycan, Bolqarıstan və Serbiya Respublikalarının 3-cü raund uyğunluq prosedurunun dinlənilməsi keçirilmişdir.

8 oktyabr 2012-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin 30 avqust 2012-ci il tarixli Sərəncamı ilə Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında Konvensiya"sına Əlavə Protokolu Azərbaycan Respublikası adından müvafiq bəyanatla imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Baş prokuroruna həvalə edilməsi ilə əlaqədar Baş prokuror cənab Zakir Qaralov tərəfindən sözügedən sənədin Əlavə Protokolu Avropa Şurasının mənzil qərargahında imzalanmışdır.

Səfər zamanı Baş prokuror Avropa Şurasının baş katibinin müavini xanım Gabriella Battaini-Draqoni ilə ikitərəfli görüş keçirmiş və dövlət başçısının siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş qanunverici və institusional tədbirlər barədə ətraflı məlumat verilmiş, habelə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlər barədə məlumatları özündə əks etdirən kitabçalar təqdim olunmuşdur.

Görüş zamanı ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində aparılmış mütərəqqi dəyişikliklər müsbət qiymətləndirilmiş, Azərbaycan Respublikasının GRECO ilə uğurlu əməkdaşlığı xüsusi vurğulanaraq onun davam etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

GRECO ilə əməkdaşlıq çərçivəsində 17-21 oktyabr 2012-ci il tarixlərdə Fransanın Strasburq şəhərində keçirilmiş GRECO-nun 57-ci Plenar İclasında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov, İdarə rəisi Kamran Əliyev və Mərkəzi Seçki Komissiyasının Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rövzət Qasımov iştirak etmişlər. Həmçinin, 16-17 iyun 2014-cü il tarixlərində Fransanın Strasburq şəhərində GRECO-nun 64-cü plenar iclasında Baş İdarə rəisi Kamran Əliyev iştirak etmişdir.

GRECO-ya üzv ölkələrin nümayəndə heyətlərinin və beynəlxalq təşkilatların əməkdaşlarının iştirak etdiyi tədbirdə çıxış edən K.Əliyev Azərbaycan Respublikasının 2014-cü ilin 14 may tarixindən 6 ay müddətinə Avropa Şurasının Nazirlər Komitəsində sədrliyi ilə əlaqədar 30 iyun – 1 iyul tarixlərdə Bakı şəhərində Avropa Şurası ilə birlikdə və GRECO-nun və IACA-nın iştirakçılığı ilə keçiriləcək Avropa Şurasına üzv ölkələrin Baş prokurorlarının, Ədliyyə nazirlərinin və müstəqil anti-korrupsiya qurumlarının iştirakı ilə "Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr" mövzusunda yüksək səviyyəli beynəlxalq konfransa dair, habelə həmin tədbirdə müzakirə olunacaq mövzular, iştirak edəcək qonaqlar və digər təşkilati məsələlər barədə ətraflı məlumat vermiş, iştirakçıların suallarını cavablandırmışdır.

Bundan başqa, 6-10 oktyabr 2014-cü il tarixlərdə Fransanın Strasburq şəhərində GRECO-nun 65-ci plenar iclasında isə Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmiş və nümayəndə heyətinin tərkibində Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov, Milli Məclisin deputatı Fuad Muradov, Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri Cavid Hüseynov, Baş İdarənin böyük prokuroru Elnur Musayev təmsil olunmuşlar. Tədbirdə Azərbaycanın 4-cü raund dəyərləndirməsi üzrə hesabat layihəsi dinlənilmiş, ölkəmizdə anti-korrupsiya qanunvericiliyinin təkmilləşdirliməsi, habelə Deputat, hakim və prokurorların fəaliyyətində korrupsiyanın qarşısının alınması ilə bağlı məsələlərə dair tövsiyələr verilmişdir.

24-28 noyabr 2014-cü il tarixlərində keçirilmiş GRECO-nun 63-cü Plenar İclasında qəbul edilmiş qərara əsasən "Deputat, hakim və prokurorların fəaliyyətlərində korrupsiyanın qarşısının alınması" mövzusu üzrə Serbiya Respublikasının 4-cü raund dəyərləndirməsi çərçivəsində ölkəmizdən ekspert qismində Baş İdarənin böyük prokuroru Elnur Musayev monitorinq səfərində olmuşdur.

08-10 dekabr 2014-cü il tarixlərdə Amerika Birləşmiş Ştatların paytaxtı Vaşinqton şəhərində Dünya Bankının dəstəyi ilə Korrupsiyaya qarşı Mübarizə Aparan Təşkilatların Beynəlxalq Birliyinin (ICHA) 3-cü iclası keçirilmişdir.

İclasda 130-dan çox ölkəni təmsil edən korrupsiyaya qarşı mübarizə aparan ixtisaslaşdırılmış qurumların və istintaq orqanlarının 300-ə yaxın yüksək vəzifəli şəxsləri, habelə beynəlxalq təşkilatların nümayəndələri və ekspertləri təmsil olunduğu tədbirin korrupsiyaya qarşı mübarizədə hüquq mühafizə orqanlarının fəaliyyəti adlı sessiyasında Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyev çıxış edərək ölkə başçısının siyasi iradəsinə uyğun olaraq Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində aparılan qanunverici və institusional islahatlar, habelə Baş İdarənin fəaliyyəti, beynəlxalq əməkdaşlıq, Azərbaycan Respublikasının Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etdiyi dövrdə GRECO və IACA-nın birgə səyləri ilə müvafiq olaraq iyul və noyabr aylarında Bakı şəhərində keçirilmiş "Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr"

mövzusunda konfransın və IACA-ya üzv və iştirakçı dövlətlərin Assambleyasının 3-cü sessiyası, "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti barədə məlumat vermişdir.

Tədbir çərçivəsində Dünya Bankının və Dələduzluqla mübarizə üzrə Avropa bürosunun (OLAF) yüksək rəsmiləri ilə ikitərəfli görüşlər keçirilmiş, qarşılıqlı əməkdaşlıq barədə müzakirələr aparılmışdır.

İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində əməkdaşlıq

Təşkilatın qısa tarixi

ECO onun təsis edilməsi haqqında 1987-ci il tarixli İzmir müqaviləsinə və müqavilənin 1990-cı il 18 iyun və 1992-ci il 28 noyabr tarixli protokollarına əsasən beynəlxalq təşkilat olaraq təsis olunmuşdur. Azərbaycan Respublikası həmin təşkilata Milli Məclisinin 3 sentyabr 1993-cü il tarixli 699 nömrəli qərarı ilə qoşulmuşdur. ECO-nun əsas məqsədi üzv ölkələr arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi və inteqrasiya proseslərinə kömək etməkdir. Təşkilat çərçivəsində Azərbaycan digər üzv ölkələrlə bir sıra prioritet sahələr, o cümlədən nəqliyyat, enerji, ticarət və investisiya sahələri üzrə əməkdaşlıq etməkdədir. ECO-nun Zirvə Toplantısı və ECO Xarici İşlər Nazirləri Şurasının 20-ci iclası 16 oktyabr 2012-ci il və 15 oktyabr 2012-ci il tarixlərində Bakı şəhərində keçirilmişdir. Bu iclaslar təşkilatın 1992-ci ildə genişlənməsinin, yeni üzvlərin qoşulmasının 20-ci ildönümünə təsadüf etmişdir. Eyni zamanda, 15 oktyabr tarixindən ECO-da Sədrlik Azərbaycan tərəfinə keçmişdir. Zirvə toplantısında Bakı bəyannaməsi qəbul edilmişdir.

Economic Cooperation Organization

Təşkilatla ölkəmizin əməkdaşlığının yaranması və inkişafı

Azərbaycan ECO çərçivəsində əməkdaşlığa önəm verir və təşkilatın səmərəli fəaliyyət göstərməsində maraqlıdır. Azərbaycan ECO-nun iqtisadyönlü təşkilat kimi inkişaf etməsini və bu istiqamətdə layihələr həyata keçirilməsini dəstəkləyir. Sədrlik dövrü ərzində təşkilatın fəaliyyətinin səmərəliliyinin artırılması, regional əməkdaşlığın genişləndirilməsi, regionda konkret layihə və proqramların həyata keçirilməsində davamlılığın təmin edilməsi üçün zəmin yaratmaq Azərbaycan Respublikasının qarşısında duran əsas hədəflərdir.

ECO çərçivəsində ikitərəfli əməkdaşlığın qurulması və inkişafı

2017-ci ilin 6-7 iyun tarixlərində Bakıda ECO-ya üzv dövlətlərin prokurorluq, ixtisaslaşdırılmış korrupsiyaya qarşı mübarizə qurumlarının rəhbərlərinin və ombudsmanlarının üçüncü iclası keçirilmişdir.

Yüksək səviyyəli tədbirə Türkiyə, İran, Qazaxıstan, Pakistan, Əfqanıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistanın prokurorluq orqanlarının, ixtisaslaşdırılmış anti-korrupsiya qurumlarının, ombudsmanlarının və digər dövlət qurumlarının rəhbər vəzifəli şəxsləri, ECO baş katibinin müavini, IACA-nın icraçı katibi və digər beynəlxalq təşkilatların

nümayəndələri qatılmışlar. Tədbirdə, həmçinin dövlət və hökumət rəsmiləri, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın, mərkəzi icra hakimiyyəti orqanlarının, Baş Prokurorluğun, habelə ölkəmizin digər hüquq mühafizə qurumlarının və QHT-lərin nümayəndələri, Milli Məclisin deputatları iştirak etmişlər.



Baş prokuror Zakir Qaralov iclasda çıxış edərək Prezident cənab İlham Əliyevin yürütdüyü siyasət nəticəsində ölkəmizin dünyada, o cümlədən islam aləmində qarşılıqlı əməkdaşlığa mühüm töhfə verdiyini diqqətə çatdırmışdır.

Prezidentin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov dövlətimizin başçısı cənab İlham Əliyevin iclas iştirakçılarına salamlarını çatdırmış, ECO çərçivəsində təşkil edilən bu tədbirin əməkdaşlığın daha da möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edərək dövlətimizin başçısının iclasın işinə uğurlar arzuladığını bildirmişdir.

ECO-nun baş katibinin müavini Ələvi Səbzivari tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirərək təşkilatın üzv ölkələr arasında iqtisadi əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün qarşılıqlı işbirliyinə çalışdığını, anti-korrupsiya tədbirlərinin məhz bu prosesdə mühüm rol oynadığını qeyd etmiş, Azərbaycanda korrupsiyaya qarşı mübarizə istiqamətində vahid və qətiyyətli məram nümayiş etdirildiyini xüsusi vurğulamışdır.

Konfrans çərçivəsində Baş prokuror cənab Zakir Qaralov Türkiyə, Pakistan, İran və digər dövlətlərin nümayəndə heyətlərinin rəhbərləri ilə ikitərəfli görüşlər keçirmişdir.

Tədbirin sonunda ECO-ya üzv dövlətlərdə korrupsiyaya qarşı mübarizəyə dair Bakı Bəyannaməsi qəbul edilmişdir.

K.Əliyev 10-11 aprel 2018-ci tarixlərində Bakıda keçirilməsi nəzərdə tutulan İcraiyyə Komitəsinin 45-ci iclası ilə əlaqədar ölkəmizlə bağlı xüsusi hazırlanmış geniş videonun təqdimatını həyata keçirmişdir.

"İctimai maraqların qorunması naminə cinayət təqibi - dəyişən cəmiyyətlərdə yeni çağırışlar və imkanlar" mövzusunda keçirilmiş konfransda dünyanın 90 ölkəsindən 450 nəfər, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri iştirak etmişlər.

Tədbirdə Azərbaycanın nümayəndə heyəti fəal və səmərəli iştirak etmiş, o cümlədən korrupsiyaya qarşı mübarizə problemlərinə həsr olunmuş xüsusi iclasın aparılması K.Əliyevə həvalə edilmişdir.



ECO qərargahında keçirilmiş görüş

Bundan başqa, ECO çərçivəsində Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyevin başçılıq etdiyi nümayəndə heyəti əvvəlcədən razılaşdırılmış Anlaşma Memorandumunun imzalanması məqsədilə 2018-ci ilin 17-18 iyun tarixlərində İran İslam Respublikasının Tehran şəhərində səfərdə olmuşdur. Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə ECO qərargahında qurumun baş katibi cənab Halil İbrahim Akca arasında görüş keçirilmişdir. Görüşdə ECO baş katibi ölkəmizin təşkilata verdiyi töhvələri xüsusi vurğulayaraq Bakıda ECO-ya üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə qurumlarının rəhbərlərinin və ombudsmanlarının üçüncü iclasının yüksək səviyyəli təşkilinə görə bir daha Azərbaycanın siyasi rəhbərliyinə təşəkkürünü bildirmiş, o cümlədən ölkəmizin ECO-nun Korrupsiya Agentlikləri və Ombudsmanlarının Regional Əməkdaşlıq Mərkəzinə (RCCACO) qoşulmaq qərarından məmnunluğunu ifadə etmişdir. Həmin gün nümayəndə heyəti ilə İran İslam Resublikasının Məhkəmə və Ədliyyə Qüvvələrinin sədrinin ictimai və cinayətin qarşısının alınması məsələləri üzrə müavini Hakim Ülfət, Maliyyə Monitorinq Xidmətinin rəisi Nasiri Əliabad və İqtisadi işlər və maliyyə nazirinin investisiya, iqtisadi və texniki məsələlər üzrə müavini Məhəmməd Xəzai arasında keçirilmiş görüşlərdə müvafiq olaraq iki ölkənin ədliyyə,

məhkəmə və maliyyə qurumlarının fəaliyyəti müzakirə olunmuş, hüquqi əməkdaşlıq imkanları nəzərdən keçirilmiş, görüşlər zamanı bu sahələrdə Azərbaycanın müsbət təcrübəsinə xüsusi maraq göstərilmişdir.

Azərbaycan Respublikasının nümayəndə heyəti, həmçinin İranın regionlarına səfər edərək Baş Təftiş Təşkilatının bölgələrdəki nümayəndəliklərinin fəaliyyəti ilə yaxından tanış olmuşlar. Səfər çərçivəsində keçirilmiş görüşlərdə həmçinin, ölkəmizin İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynov da iştirak etmişdi**r.**

Beynəlxalq Anti-Korrupsiya Orqanları Assosiasiyası (IAACA) ilə əməkdaşlıq

Təşkilatın qısa tarixi

Beynəlxalq Antikorrupsiya Qurumları Assosiasiyası 2006-cı ildə UN-un Narkotiklər və Cinayətkarlığa qarşı mübarizə aparan Ofisinin (UNODC) dəstəyi ilə təsis olunmuşdur. IAACA dünyada ilk və yeganə korrupsiyaya qarşı mübarizə aparan qurumların beynəlxalq qeyri-hökumət təşkilatıdır. Hazırda IAACA-nın tərkibində 300-dən çox əksər korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən milli hüquq-mühafizə orqanlarını əhatə edən təşkilati üzvü var. Bundan başqa təşkilatın 2000 artıq prokuror, müstəntiq və antikorrupsiya sahəsində təcrübəsi olan ekspert fərdi üzvü var. Təşkilat ümumdünya səviyyəsində rifah və təhlükəsizliyin təmin edilməsi üçün korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən bütün milli hüquq mühafizə orqanları ilə daha sıx əməkdaşlıq qurmağa səy göstərir.

Təşkilatla ölkəmizin əməkdaşlığının yaranması və inkişafı

Korrupsiyaya qarşı Mübarizə İdarəsi Azərbaycan Respublikasının IAACA ilə mövcud olan işgüzar əlaqələrin inkişafına da öz töhfəsini verməkdədir. İdarə əməkdaşları IAACA Konfrans və İcraiyyə Komitəsinin iclaslarında müntəzəm olaraq iştirak edirlər. Həmin tədbirlər sırasında 31 mart-2 aprel 2008-ci il tarixlərdə Bakı şəhərində keçirilmiş IAACA İcraiyyə Komitəsinin iclasının və Beynəlxalq Konfransı xüsusi qeyd etmək lazımdır. Belə ki, həmin tədbirlər 31 mart 2008-ci il tarixdə Prezident Sarayında Dövlət başçısı cənab İlham Əliyevin IAACA-nın İcraiyyə Komitəsinin iclası iştirakçılarını qəbul etməsi ilə əlamətdar olmuşdur. İclas iştirakçılarına korrupsiya ilə mübarizə sahəsində Azərbaycanda həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilmiş, eləcə də Korrupsiyaya qarşı Mübarizə İdarəsinin işi ilə yaxından tanış olmaq imkanı yaradılmışdır. IAACA İcraiyyə Komitəsi iclasının və Beynəlxalq Konfransın Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunması, iclas iştirakçılarının Ölkə rəhbəri tərəfindən qəbul olunması, Azərbaycan Respublikasının ədliyyə naziri, IAACA-nın vitse-prezidenti cənab Fikrət Məmmədovun IAACA-nın təşəkkül tapmasında və fəaliyyətində əhəmiyyətli rol oynaması bu mötəbər tədbirə dair müvafiq sənədlərdə öz əksini tapmışdır. İdarənin əməkdaşları həmin tədbirlərin keçirilməsində öz fəallıqları ilə seçilmişlər.

İAACA-nın illik konfranslarında iştirak

Bundan başqa, 02-05 noyabr 2010-cu il tarixlərdə Çin Xalq Respublikasının Makao Xüsusi İnzibati Regionunda keçirilmiş IAACA-nın 4-cü illik konfransı və Ümumi yığıncağında Azərbaycan nümayəndə heyətinin tərkibində idarə rəisi və Analitik-informasiya şöbəsinin rəisi iştirak etmişdir. Tədbir zamanı bir sıra mühüm təşkilati məsələlərə baxılmış, Çin Xalq Respublikasının Baş prokuroru Assosiasiyanın prezidenti, ədliyyə naziri cənab Fikrət Məmmədov isə Assosiasiyanın üç vitse-prezidentlərindən biri kimi yenidən həmin vəzifəyə seçilmişdir.



Qeyd edilən tədbirlərlə yanaşı, 22-23 oktyabr 2011-ci il tarixlərdə Mərakeş Krallığının Mərrakeş şəhərində IAACA-nın 5-ci İllik Konfransı və Ümumi İclası keçirilmişdir. Konfransda ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev iştirak etmişdir.

Ölkəmizin IAACA-nın işinə verdiyi töhfələr nəzərə alınaraq, 80 ölkədən olan 300-dən çox nümayəndənin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq-mühafizə orqanlarının rəhbər şəxslərinin iştirakı ilə keçirilmiş forumun açılışı və birinci sessiyasının aparılmasına sədrlik edilməsi təşkilatın vitse-prezidenti kimi Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab Fikrət Məmmədova həvalə olunmuşdur.

UN-un bütün aidiyyəti struktur qurumların, OLAF-ın, IAP-ın və digər mötəbər beynəlxalq təşkilatların yüksək nümayəndələrinin iştirak və çıxış etdikləri konfransda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev konfransın əsas məruzəçilərindən biri kimi respublikamızda korrupsiyaya qarşı mübarizə sahəsində görülən hərtərəfli və səmərəli tədbirlər barədə ətraflı məlumat vermişdir. Sözügedən tədbir zamanı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi tərəfindən hazırlanmış və Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə təcrübəsini, həyata keçirilmiş qanunvericilik və institusional tədbirləri, əldə edilmiş nailiyyətləri əks etdirən bukletlər iştirakçılara paylanmışdır.

Bununla yanaşı, 25-28 iyun 2012-ci il tarixlərdə IAACA tərəfindən Çinin Dalian şəhərində keçirilmiş geniş beynəlxalq seminarda ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev və Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Ruslan Hacıyev iştirak etmişlər. Azərbaycan nümayəndə heyətinin üzvləri müxtəlif mövzulara həsr olunmuş müzakirələrdə çıxışlar edərək ölkəmizin anti-korrupsiya təcrübəsindən danışmış, faydalı fikir və təcrübə mübadiləsi aparmışlar.

IAACA ilə əməkdaşlıq çərçivəsində Malayziyanın Kuala-Lumpur şəhərində keçirilmiş IAACA 6-cı illik Konfransı və Ümumi İclası dövlətimizin hüquq mühafizə sahəsində beynəlxalq münasibətlərinin inkişafı baxımından xüsusi əhəmiyyətli olmuşdur. Belə ki, 4-7 oktyabr 2012-



ci il tarixlərdə Malayziya Anti-Korrupsiya Komissiyasının (MACC) təşkilatçılığı ilə Malayziyanın Kuala-Lumpur şəhərində keçirilmiş IAACA 6-cı illik Konfransı və Ümumi İclasında ölkəmizi Assosiasiyanın vitse-prezidenti, ədliyyə naziri cənab Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir. Nümayəndə heyəti tərkibində İdarə rəisi Kamran Əliyev və Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Ruslan Hacıyev iştirak etmişlər.

Dünyanın 110 ölkəsindən 500-dən çox nümayəndənin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq-mühafizə orqanlarının, habelə mötəbər beynəlxalq təşkilatların rəhbər şəxslərinin iştirak etdiyi tədbirin açılış mərasiminə cənab Fikrət Məmmədov sədrlik etmişdir. Konfrans zamanı Malayziya Krallığının Baş naziri Mohd Nacib Bin Tun Abd Razak, Assosiasiyanın prezidenti, Çinin Baş prokuroru Çao Cianminq, habelə UN-un və digər nüfuzlu beynəlxalq təşkilatların yüksək səviyyəli nümayəndələri çıxış etmişlər. İclasda korrupsiya cinayətlərinin araşdırılmasının əsas istiqamətləri, hakimlərin və prokurorların korrupsiyaya qarşı mübarizədə rolu, dövlət qulluqçularının etik davranış kodeksləri, qarşılıqlı texniki yardım, məlumat mübadiləsi və digər məsələlər müzakirə edilmişdir.

Konfransın yekununda korrupsiyaya qarşı əhatəli tədbirlərə dair Kuala-Lumpur Bəyannaməsi qəbul olunmuşdur.





Qeyd edilənlərlə yanaşı, 22-24 noyabr 2013-cü il tarixlərdə Panama Respublikasında keçirilmiş IAACA-nın “Qanunun aliliyi və korrupsiyaya qarşı mübarizə: çağırış və imkanlar” mövzusunda 7-ci illik Konfransı və Ümumi İclasında ölkəmizi Assosiasiyanın vitse-prezidenti, ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmiş, heyətin tərkibində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev iştirak etmişdir.

110 ölkədən 500-dən çox nümayəndənin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq-mühafizə orqanlarının, habelə mötəbər beynəlxalq təşkilatların rəhbər şəxslərinin iştirak etdiyi tədbirdə korrupsiyaya qarşı qabaqlayıcı tədbirlər, hüquq-mühafizə orqanlarının fəaliyyəti, anti-korrupsiya qurumlarının səmərəliliyinin artırılması və bu kimi aktual məsələlər müzakirə olunmuşdur.





Tədbir zamanı Kamran Əliyev çıxış edərək Prezident cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq son dövrlərdə korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilmiş qanunverici və praktiki tədbirlər, o cümlədən Açıq Hökumətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planları, "ASAN xidmət" mərkəzlərinin yaradılması, eləcə də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsi, strukturu və səlahiyyətləri, OECD-nin ACN tərəfindən İstanbul Fəaliyyət Planına əsasən dəyərləndirmə hesabatlarında korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan Respublikasında həyata keçirilən tədbirlərin müsbət qiymətləndirilməsi barədə iştirakçılara ətraflı məlumat vermişdir.

Konfrans çərçivəsində, həmçinin bir sıra ölkələrin hüquq-mühafizə orqanlarının rəhbərləri ilə görüşlər keçirilmiş, əməkdaşlığın perspektivlərinə dair danışıqlar aparılmışdır. Konfrans zamanı Assosiasiyanın prezidentinin, vitse-prezidentlərinin və İcraiyyə komitəsi üzvlərinin seçkisi keçirilmiş, Çin Xalq Respublikasının Baş prokuroru yenidən qurumun prezidenti, Fikrət Məmmədov isə vitse-prezidenti seçilmişdir. Tədbirin yekununda korrupsiyaya qarşı əhatəli tədbirlərə dair Bəyannamə qəbul olunmuşdur.

30 oktyabr-01 noyabr 2015-ci il tarixlərdə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilmiş IAACA-nın 8-ci İllik Konfransı və Ümumi Yığıncağında ölkəmiz Assosiasiyanın vitse-prezidenti, ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi və Baş İdarə rəisi Kamran Əliyevin, habelə Ədliyyə Nazirliyinin və Baş Prokurorluğun məsul əməkdaşlarının olduğu nümayəndə heyəti ilə təmsil edilmişdir.

Ölkəmizin Assosiasiyanın işinə verdiyi dəyərli töhfələr nəzərə alınaraq 70-ə yaxın dövlətdən 250-dən artıq nümayəndənin, o cümlədən ədliyyə, prokurorluq, məhkəmə və digər hüquq-mühafizə orqanlarının, habelə nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxslərinin iştirak etdiyi mötəbər forumun açılışı və ilk əsas sessiyasına sədrlik edilməsi Azərbaycanın ədliyyə nazirinə həvalə olunmuşdur.

Ədliyyə naziri Fikrət Məmmədov açılış nitqi ilə çıxış edərək korrupsiyanın qarşısının alınması üzrə tədbirlərin əhəmiyyətini, bu sahədə beynəlxalq təşkilatların, xüsusilə IAACA-nın rolunu, habelə maarifləndirmə işinin vacibliyini vurğulamış, Azərbaycanın bu sahədə nailiyyətlərini, o cümlədən ölkə Prezidentinin təşəbbüsü ilə yaradılaraq milli brendinə çevrilmiş "ASAN xidmət"in müsbət təcrübəsini, eləcə də ölkəmizin IACA-da uğurlu sədrliyini və tədris ocağına dəstəyini qeyd etmiş, beynəlxalq anti-korrupsiya fəaliyyətinin daha da gücləndirilməsinə dair təkliflər irəli sürmuşdür.

Tədbir çərçivəsində ədliyyə naziri Fikrət Məmmədov xarici dövlətlərin bir sıra dövlət orqanlarının rəhbərləri, hüquq-mühafizə orqanının rəhbər vəzifəli şəxsləri, o cümlədən İranın Baş Təftiş Təşkilatı Naser Seracı ilə əlaqədar səmərəli və işgüzar görüşlər keçirmişdir. Həmin görüşlər zamanı ölkəmizin son illərdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər, ölkəmizdəki korrupsiyaya qarşı mübarizə səviyyəsinin mövcud durumu və qarşıda duran institusional islahatlar və perspektivlər müzakirə edilmiş, nümayəndə heyəti ilə geniş fikir mübadiləsi aparılmışdır.



Açılışda IAACA-nın prezidenti vəzifəsini icra edən, Qətərin baş prokuroru Ali Al Mari, UN-un Baş katibinin nümayəndəsi Dmitri Vlassis, IAP-ın prezidenti Qerhard Yaroş və digər yüksək səviyyəli şəxslər çıxış etmişlər.

Plenar sessiya zamanı Baş İdarənin rəisi Kamran Əliyev çıxış edərək ölkə başçısının rəhbərliyi ilə son dövrlərdə korrupsiyaya qarşı həyata keçirilən təsirli qabaqlayıcı tədbirlər barədə ətraflı məlumat vermişdir. "ASAN xidmət"in səmərəli fəaliyyəti barədə nümayiş etdirilmiş video-çarx tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanmışdır.



Tədbirdə Azərbaycan nümayəndə heyətinin təklifləri nəzərə alınmaqla korrupsiyaya qarşı əhatəli tədbirlərə dair Sankt-Peterburq Bəyannaməsi qəbul olunub.

Anti-korrupsiya qurumlarının fəaliyyətinə həsr olunmuş 10-13 may 2016-cı il tarixlərdə Çin Xalq Respublikasının Tiançin şəhərində keçirilən IAACA-nın 9-cu İllik Konfransı və Ümumi Yığıncağında da həmin nümayəndə heyəti ölkəmizi təmsil etmiş və konfransın əsas plenar sessiyasına sədrlik edən ədliyyə naziri Fikrət Məmmədov giriş nitqi ilə çıxış edərək anti-korrupsiya orqanlarının inkişafı, rolu və əsas fəaliyyət istiqamətlərindən bəhs etmiş, Azərbaycanda bu sahədə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan əhatəli institusional və praktiki tədbirlər, o cümlədən Baş İdarənin yaradılması, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla onun səlahiyyətlərinin genişləndirilməsi, kadr və maliyyə potensialının gücləndirilməsi barədə məlumat vermişdir.

Baş prokurorun müavini –Baş İdarə rəisi Kamran Əliyev IAACA-nın 9-cu İllik Konfransı və Ümumi Yığıncağının plenar sessiyasında İdarənin fəaliyyəti, onun səmərəliliyinin artırılması, beynəlxalq əməkdaşlığa verilən töhfələr barədə təqdimatla çıxış etmiş, həmçinin IAP-ın anti-korrupsiya internet şəbəkəsinin fəaliyyətinin təmin edilməsinin ölkəmiz tərəfindən həyata keçirilməsini qeyd etmişdir. Konfransda çıxış edən iştirakçılar ölkəmizin korrupsiyaya qarşı qlobal mübarizədə fəal iştirakını, bu sahədə qeyd olunan şəbəkənin mühüm rolunu vurğulamışlar.

IAACA-nın ölkəmizin ikitərəfli münasibətlərinə verdiyi fayda

Azərbaycan-IAACA münasibətlərində Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru, IAACA-nın Prezidenti Çao Cianminqin rəhbərlik etdiyi nümayəndə heyətinin 12-14 aprel 2013-cü il tarixlərdə Azərbaycan Respublikasında rəsmi səfəri xüsusilə əlamətdar olmuşdur. Belə ki, Səfər zamanı Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru, IAACA-nın Prezidenti Çao Cianminq Prezident İlham Əliyev tərəfindən qəbul etmişdir. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı bu münasibətlərin gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə etmişdir. Siyasi əlaqələrimizin uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də yaxşı əməkdaşlıq etdiyini demişdir.

Azərbaycan Respublikasının Baş Prokurorluğunda Baş prokuror Zakir Qaralov tərəfindən qəbul olunmuş, nümayəndə heyəti ilə ikitərəfli görüş keçirilmiş və müzakirələrin nəticəsi olaraq ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlıq əlaqələrinin perspektivlərini müəyyənləşdirən “Anlaşma Memorandumu” imzalanmışdır. Eyni zamanda, Azərbaycan Prokurorluğu və Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğu arasında IAP və IAACA çərçivəsində həyata keçirilən əməkdaşlığın əhəmiyyəti vurğulanmış, 2008-ci ilin mart ayında IAACA-nın İcraiyyə Komitəsinin iclasının və beynəlxalq konfransın Bakıda keçirilməsi və həmin təşkilatın vitse-prezidenti ölkəmizin ədliyyə naziri Fikrət Məmmədov olması müsbət hal kimi dəyərləndirilmişdir.

Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP) ilə əməkdaşlıq

Təşkilatın qısa tarixi

IAP dünya prokurorlarını bir qurumda birləşdirən ilk və yeganə beynəlxalq təşkilatı olmaqla UN-un Vyana ofisində 1995-ci ildə yaradılmışdır. IAP-ın formalaşmasına əsaslı təkan verən amillər sırasında transmilli cinayətkarlığın ciddi şəkildə güclənməsi, xüsusən də narkotiklərin qanunsuz dövriyyəsinin intensivləşməsi, çirkli pulların yuyulması və saxtakarlıq kimi cinayət növlərinin ildən ilə artması olmuşdur. Assosiasiyanın meydana gəlməsi, həmçinin prokurorlar arasında daha sürətli və səmərəli əlaqələrin qurulması tələbi, o cümlədən qarşılıqlı hüquqi yardım, aktivlərin izlənməsi və digər sahələrdə işgüzar əlaqələrin qurulmasında vasitəçilik edəcək quruma olan böyük ehtiyacla səciyyələnmişdir.

IAP ilə Azərbaycan arasında əməkdaşlıq tarixi

Nüfuzlu beynəlxalq qeyri-hökumət təşkilat kimi IAP ilə sıx işgüzar münasibətləri çərçivəsində ölkəmiz təşkil edilmiş bır sıra əlamətdar konfrans və iclaslarda təmsil olunmuşdur. Buna misal olaraq 5-9 sentyabr 2010-cu il tarixlərdə Haaqa şəhərində dünyanın əksər ölkələrindən olan 400-dən çox nümayəndənin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq-mühafizə orqanlarının rəhbər şəxslərinin iştirakı ilə keçirilmiş IAP-ın 15-ci İllik Konfransı, Ümumi Yığıncağı və İcraiyyə Komitəsinin iclası göstərilə bilər. Həmin tədbirlərdə Azərbaycan Respublikasının ədliyyə naziri, IAP-ın İcraiyyə Komitəsinin üzvü cənab Fikrət Məmmədovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin tərkibində idarənin rəisi Kamran Əliyev iştirak etmişdir. IAP-ın İcraiyyə Komitəsinin üzvü vəzifəsində Assosiasiyanın fəaliyyətinə verdiyi töhfələrə görə cənab Fikrət Məmmədov Assosiasiyanın Xüsusi Xidmətlər Sertifikatı ilə təltif edilməklə Assosiasiyanın Senatının üzvü olmuşdur. IAP-ın rəhbər orqanlarında Azərbaycanın təmsil olunmasının əhəmiyyəti nəzərə alınaraq, Assosiasiyanın İcraiyyə Komitəsində Avropa qitəsi üçün nəzərdə tutulmuş yerə ölkəmizdən idarə rəisinin namizədliyi irəli sürülmüş və gərgin rəqabət şəraitində keçən seçkilər nəticəsində idarənin rəisi IAP-ın İcraiyyə Komitəsinin üzvü seçilmişdir.

Bundan başqa, IAP ilə sıx əməkdaşlıq çərçivəsində 20-24 may 2011-ci il tarixdə IAP-ın Prezidenti, İrlandiya Respublikasının Baş prokuroru cənab Ceyms Hamiltonun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur. Səfər zamanı cənab Ceyms Hamilton Baş prokuror Zakir Qaralov tərəfindən qəbul edilmiş, görüş zamanı Respublika Baş Prokurorluğunun IAP ilə qarşılıqlı faydalı əməkdaşlıq məsələləri müzakirə olunmuş, Assosiasiyanın internet səhifəsinin rus variantının, habelə fərdi üzvlərə Assosiasiyanın üzvlük vəsiqələrinin təqdimetmə mərasimi keçirilmişdir. Qeyd olunan səfər çərçivəsində nümayəndə heyəti həmçinin IAP-ın İcraiyyə Komitəsinin fəxri üzvü, qurumun senatoru, ədliyyə naziri Fikrət Məmmədov və Ali Məhkəmənin sədri Ramiz Rzayev tərəfindən qəbul edilmiş, görüş zamanı ikitərəfli əməkdaşlıq məsələləri barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

Əlamətdar hadisə kimi o, da qeyd edilməlidir ki, 26-29 iyun 2011-ci il tarixdə Azərbaycan Respublikası Baş prokurorunun müavini Namiq Əsgərovun başçılıq etdiyi nümayəndə heyəti Koreya Respublikasının Seul şəhərində IAP-ın 16-cı İllik Konfrans və Ümumi İclasında iştirak

etmişdir. Nümayəndə heyətinin tərkibinə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev, Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Ruslan Hacıyev və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin böyük prokuroru Elnur Musayev daxil olmuşdur. Ümumi İclas IAP-ın senatoru, ədliyyə naziri cənab Fikrət Məmmədovun Assosiasiyanın İcraiyyə Komitəsinin fəxri üzvü seçilməsi, Baş prokuror cənab Zakir Qaralova xüsusi təşəkkür sertifikatının təqdim edilməsi, Ədliyyə Nazirliyi və Baş Prokurorluğa, eyni zamanda ayrıca olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinə Assosiasiyanın işinə verdiyi xüsusi töhfələrə görə təşəkkür elan edilməsi ilə əlamətdar olmuşdur.

30 iyun – 01 iyul 2011-ci il tarixdə qeyd olunan nümayəndə heyəti Koreya Respublikasının Seul şəhərində IAP-ın təşkilatçılığı ilə Baş Attorneylərin, Baş Prokurorların və digər Rəhbər Prokurorların yüksək səviyyədə görüşü - 4-cü Dünya Sammitində də fəal iştirak etmiş, müxtəlif ölkələrdən olan nümayəndə heyətləri ilə faydalı görüşlər keçirməklə fikir mübadiləsi aparmışlar.

IAP-ın illik konfrans və iclaslarında iştirak

8-12 sentyabr 2013-cü il tarixlərdə Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilmiş IAP-ın 18-ci İllik Konfransı, Ümumi Yığıncağı, habelə qurumun rəhbər orqanları olan İcraiyyə Komitəsinin və Senatın iclaslarında Assosiasiyanın senatoru və fəxri üzvü, ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində İdarə rəisi Kamran Əliyev iştirak etmişdir. Senatın iclasında Fikrət Məmmədov IAP-ın fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı, mühüm və mürəkkəb məsələlərin həllində Senatın rolu, yeni perspektivlər və digər məsələlər üzrə çıxış edərək verdiyi konkret təkliflər yekdilliklə qəbul edilmişdir. Eyni zamanda, Azərbaycanın ədliyyə nazirinin İcraiyyə Komitəsinin iclasında təşkilati məsələlərə dair müraciəti dinlənilməklə bəyənilmiş, ölkəmizin IAP-ın inkişafına verdiyi töhfələr yüksək qiymətləndirilmişdir. İllik Konfransın təntənəli açılış mərasimində Rusiyanın Baş prokuroru Yuri Çayka və Assosiasiyanın prezidenti Ceyms Hamilton giriş nitqləri ilə çıxış etmişlər, həmçinin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin müraciəti səsləndirilmiş, UN-un Baş katibinin müavini, Vyana ofisinin rəhbəri Yuri Fedotovun məruzəsi dinlənilmişdir.

Tədbirdə İdarə rəisi Kamran Əliyev "Cinayət təqibi və korrupsiya ilə mübarizə" mövzusunda çıxış edərək ölkəmizdə qəti siyasi iradə ilə korrupsiyaya qarşı aparılan sərt mübarizə tədbirləri, əldə olunmuş nailiyyətlər, o cümlədən Azərbaycanın brendi sayılan "ASAN" xidmət mərkəzlərinin korrupsiyanın qarşısının alınmasında önəmli rolu barədə ətraflı məlumat vermişdir.

İclasın təşkilati məsələlərə həsr olunan Ümumi Yığıncağında Assosiasiyanın səlahiyyət müddəti bitən Prezidentinin və İcraiyyə Komitəsi üzvlərinin yerinə seçkilər keçirilmiş, Avstriyanın Prokurorlar Assosiasiyasının sədri Gerhard Yaroş IAP-ın yeni prezidenti seçilmişdir. İdarə rəisi Kamran Əliyev növbəti dəfə İcraiyyə Komitəsinin üzvü seçilməklə ölkəmiz bu rəhbər qurumda yenidən təmsil olunmuşdur.

Konfrans zamanı Rusiyanın Baş prokuroru ilə səmimi görüş keçirilmiş, qarşılıqlı fəaliyyət məsələləri müzakirə olunmuş, ölkəmizin Assosiasiyanın inkişafına verdiyi dəstək yüksək qiymətləndirilmişdir.

Adıçəkilən nüfuzlu beynəlxalq təşkilatla əməkdaşlıq çərçivəsində 7-10 aprel 2014-cü il tarixlərdə IAP-ın Prezidenti və Avstriya Prokurorlar Assosiasiyasının Prezidenti cənab Ger-

hard Yaroş nümayəndə heyəti ilə birlikdə ölkəmizdə işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində Baş prokuror Zakir Qaralov ilə görüş zamanı Gerhard Yaroşa Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən islahatlar, qanunverici və praktiki tədbirlər, əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verilmişdir. Gerhard Yaroş "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə də tanış olmuşdur.



Gerhard Yaroşun səfəri

Olkəmiz IAP-ın Icraiyyə Komitələrinin və Senatının iclaslarında da fəal olmuşdur. Belə ki, 8-10 may 2014-cü il tarixlərdə Kanadanın Kvebek şəhərində IAP-ın İcraiyyə Komitəsinin növbəti yaz iclasında Baş İdarə rəisi Kamran Əliyev iştirak etmişdir. İclasda rəhbər orqanların, o cümlədən təşkilatın Prezidentinin, Baş Katibinin və Baş Müşavirinin hesabatları dinlənilmişdir. Assosiasiyanın Prezidenti Gerhard Yaroş və Baş Müşaviri Elizabet Hou çıxışlarında 2014-cü ilin yanvar və aprel aylarında ölkəmizdə səfərdə olduqlarını və Assosiasiya ilə Azərbaycan arasında münasibətlərin kifayət qədər işgüzar səviyyədə qurulmasını bildirməklə Azərbaycanda prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi istiqamətində görülən işləri, o cümlədən müasir standartlar səviyyəsində inşa edilmiş Baş İdarənin yeni inzibati binasında yaradılmış iş şəraitini və Baş İdarənin "Qaynar xətt" əlaqə mərkəzinin müsbət fəaliyyətini, məhkəmə infrastrukturunun təkmilləşdirilməsi çərçivəsində yeni məhkəmə komplekslərinin istifadəyə verilməsini, həmçinin korrupsiyaya qarşı mübarizə vasitəsi kimi "ASAN xidmət" mərkəzlərinin uğurlu model olaraq digər ölkələrə nümunə ola biləcəyini xüsusi qeyd etmiş və aparılan islahatlardan məmnunluqlarını ifadə etmişlər.

Bundan başqa, 23-27 noyabr 2014-cü il tarixdə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində 120-yə yaxın dövləti birləşdirən IAP-ın İllik yığıncaqları, o cümlədən İcraiyyə Komitəsinin və Senatın iclasları keçirilmişdir.

Tədbirlərdə ölkəmizi Assosiasiyanın fəxri üzvü və senatoru, ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti tərkibinə Baş prokurorun müavini - Baş İdarə rəisi, IAP-ın İcraiyyə Komitəsinin üzvü Kamran Əliyev, həmçinin Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Ruslan Hacıyev, Baş prokurorun köməkçisi Orxan İsayev, ədliyyə nazirinin köməkçisi Adil Əbilov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Azad Cəfərli təmsil etmişlər.

Konfransın açılışında Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, baş nazir, Dubay Əmirliyinin rəhbəri şeyx Məhəmməd bin Rəşid Al Maktum iştirak etmişdir.



Dünyanın 100-ə qədər dövlətindən 500-ə yaxın nümayəndənin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq-mühafizə orqanlarının rəhbər şəxslərinin qatıldığı bu mötəbər tədbirdə nümayəndə heyətimizin üzvləri tərəfindən fəal iştirak etmiş, dövlət başçısı cənab İlham Əliyevin qəti siyasi iradəsi ilə korrupsiyaya qarşı aparılan sərt mübarizə tədbirləri, əldə olunmuş nailiyyətlər xüsusi vurğulanmışdır.

Ümumi Yığıncaqda Azərbaycan nümayəndə heyətinin üzvü R.Hacıyev Assosiasiyanın işində fəal iştirakına görə IAP-ın Xüsusi Xidmətlər Sertifikatına layiq görülmüşdür.

8-9 aprel 2015-ci il tarixlərdə Bəhreyn Krallığının Manama şəhərində IAP-ın növbəti İllik Yaz İclasının sessiyası keçirilmişdir. Tədbirdə ölkəmizi IAP-ın İcraiyyə Komitəsinin üzvü, Baş prokurorun müavini –Baş İdarə rəisi Kamran Əliyev təmsil etmişdir. Tədbirdə Assosiasiyanın məqsədləri və fəaliyyəti ilə əlaqədar bir sira məsələlərin, o cümlədən prokurorlar üçün ixtisaslaşmış peşəkar təlimlərin keçirilməsi və bu məqsədlə xüsusi təlim mərkəzlərinin yaradılması, Assosiasiyanın nəzdində Korrupsiyaya qarşı Mübarizə Aparan Prokurorları Şəbəkəsinin təsis edilməsi məsələlərinin müzakirəsi, habelə xidməti fəaliyyətində fərqlənmiş prokurorların Assosiasiya tərəfindən təltif edilməsi və "İlin ən yaxşı prokuroru" mükafatının təqdimetmə mərasimi keçirilmişdir.

IAP ilə əməkdaşlıq çərçivəsində 26-30 aprel 2015-ci il tarixlərdə Azərbaycan Respublikasının Baş prokuroru ilə IAP-ın İcraçı direktoru xanım Yanne Holst Hübner və Böyük Britaniya Kral Prokurorluq Xidmətinin idarə rəisi cənab Hari Len Balç ölkəmizdə işgüzar səfərdə olmuşlar. Səfər çərçivəsində qonaqlar, IAP-ın üzvləri, o cümlədən Assosiasiyanın üzvlüyünə qəbul edilmək üçün müraciət etmiş Azərbaycan Respublikası Prokurorluğu orqanlarında tam aşkarlıq şəraitində, şəffaf və obyektiv prosedurlar əsasında müsabiqə yolu ilə qəbul edilmiş gənc əməkdaşlarla görüşmüş, Assosiasiyanın fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilmiş, gənc prokurorlar onları maraqlandıran aktual məsələlərə, o cümlədən korrupsiya və mütəşəkkil cinayətkarlıqla mübarizə məsələlərinə dair suallar verməklə qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Bundan başqa, qonaqlar ədliyyə naziri, IAP-ın senatoru və fəxri üzvü cənab Fikrət Məmmədovla, Baş prokuror cənab Zakir Qaralovla görüşmüşlər.

Qeyd edilənlərdən başqa, 05 iyun 2015-ci il tarixdə Niderlandın Haaqa şəhərində IAP-ın yaradılmasının 20-ci ildönümünə həsr edilmiş tədbir keçirilmişdir. Bu tədbirdə IAP-ın İcraiyyə Komitəsinin üzvü, Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyev iştirak etmişdir.

12-17 sentyabr 2015-ci il tarixlərdə isə IAP-ın 20-ci yubiley İllik Konfransı və Ümumi Yığıncağı İsveçrənin Sürix şəhərində keçirilmişdir. Tədbirlərdə ölkəmizi ədliyyə naziri Fikrət Məmmədovun və Baş prokuror Zakir Qaralovun rəhbərlik etdiyi Prokurorluğun və Ədliyyə Nazirliyinin məsul əməkdaşlarından ibarət nümayəndə heyəti təmsil etmişdir. Senatın iclasında ədliyyə naziri, IAP-ın senatoru və fəxri üzvü Fikrət Məmmədov iştirak etmişdir. İclasda qurumun gələcək inkişaf perspektivləri müzakirə edilmiş, Azərbaycanın IAP-ın yaradılmasında və sonrakı inkişafında rolu və töhfələri xüsusi vurğulanmışdır. İcraiyyə Komitəsinin iclasında Baş prokurorun müavini - Baş İdarə rəisi, Komitə üzvü Kamran Əliyev iştirak etmişdir. İclas zamanı il ərzində IAP-nin tədbirlərində Azərbaycandan olan fərdi üzvlərin fəal iştirakı barədə məlumat verilmiş, gündəlikdə duran təşkilatı məsələlərlə əlaqədar fikir mübadiləsi aparılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Tədbirin təntənəli açılış mərasimində İsveçrə Konfederasiyasının Prezidenti xanım Simonetta Sommaruqa və IAP-ın prezidenti Gerhard Yaroş çıxış edərək korrupsiya ilə mübarizədə prokurorların vacib rolunu qeyd etmişlər, Assosiasiyanın 20 illik tarixinə nəzər salınmışdır.

Konfransın plenar iclasında çıxış edən Baş prokuror Zakir Qaralov korrupsiyaya qarşı mübarizənin dövlət başçısı cənab İlham Əliyevin siyasi fəaliyyətinin prioritet istiqaməti olduğunu qeyd edərək, ölkəmizin bu sahədə bütün beynəlxalq təşəbbüslərə qoşulduğunu, beynəlxalq konvensiyaların ölkə qanunvericiliyinə implementasiyasını, hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində önəmli addımlar atılaraq Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırıldığını diqqətə çatdırmışdır.

Bundan başqa, Baş prokuror çıxışında Avropa Parlamenti tərəfindən Azərbaycanla bağlı qəbul edilmiş 10 sentyabr tarixli qətnaməyə münasibət bildirərək ikili standartlar siyasətinin bariz nümunəsi olan bu sənədin qərəzli, destruktiv və bəzi siyasi dairələrin sifarişlərinə və maraqlarına uyğun ölkəmizə qarşı aparılan və sistemli xarakter almış təzyiq kampaniyasının davamı olduğunu qeyd etmişdir.

Konfransın anti-korrupsiya məsələlərinə həsr olunmuş xüsusi sessiyasına rəhbərlik edən K.Əliyev çıxış edərək IAP tərəfindən yeni yaradılmış anti-korrupsiya veb-saytı, saytın fəaliyyətinə qoşulmuş və qoşulacaq nümayəndələrdən ibarət Anti-korrupsiya forumu barədə ətraflı məlumat vermişdir. Sessiya iştirakçıları dünya prokurorları üçün ilk dəfə olaraq yaradılmış anti-korrupsiya saytının məhz Azərbaycan Prokurorluğu tərəfindən hazırlanmasını xüsusi qiymətləndirmişlər.

Eyni zamanda, Azərbaycanın təcrübəsi tədbir iştirakçılarının böyük marağına səbəb olmuş, IAP-ın prezidenti Gerhard Yaroş çıxış edərək diqqəti şəxsən şahidi olduğu “ASAN xidmət”in fəaliyyətinə cəlb etmiş, xarici dövlətləri onun təcrübəsi ilə yerində tanış olub ölkələrində tətbiqinə çağırmışdır.

IAP tərəfindən təşkil edilən və ölkəmizin təmsil olunduğu tədbirlərdən biri də 9-12 noyabr 2015-ci il tarixlərdə Rusiya Federasiyasının Soçi şəhərində “Terrorizm və zorakı ekstremizmə qarşı mübarizə” mövzusunda Rusiya Baş Prokurorluğunun təşkilatçılığı ilə keçirilmiş Mərkəzi və Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün 7-ci regional konfrans olmuşdur. Otuzdan artıq ölkənin prokurorluq orqanlarının və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri tədbirdə iştirak etmiş və ölkəmizi Baş prokurorun müavini –Baş İdarə rəisi, IAP-ın İcraiyyə

Komitəsinin üzvü Kamran Əliyev və Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanovdan ibarət nümayəndə heyəti təmsil etmişdir.

Konfransın yaddaqalanlığı onunla xarakterizə olunmuşdur ki, plenar iclasda Baş İdarə rəisi Kamran Əliyev çıxış edərək ölkəmizin qlobal və regional səviyyədə terrorçuluğa qarşı mübarizə sahəsində qəbul edilən bütün beynəlxalq və regional konvensiyalara qoşulduğunu və bu fəaliyyət strategiyasının banisi xalqımızın Ümummilli lideri Heydər Əliyevin olduğunu qeyd etmişdir. Həmçinin, vurğulanmışdır ki, bu gün dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası beynəlxalq antiterror koalisiyasının, o cümlədən enerji təhlükəsizliyi və sülhməramlı əməliyyatların həyata keçirilməsində fəal iştirakçılardan birinə çevrilmişdir. Bildirilmişdir ki, ölkəmiz ötən əsrin 90-cı illərin əvvəllərində terrora məruz qalaraq 20% ərazisi Ermənistan tərəfindən işğal olunmuşdur. Qeyd edilmişdir ki, nəzarətdən çıxan bu cür ərazilər terrorçular üçün düşərgələrin yerləşdirilməsi, axtarışda olan terrorçulara sığınacaq verilməsi, yeni üzvlərə təlimlərin keçirilməsi, terror aktlarının planlaşdırılması və törədilməsi üçün əlverişli zəmin və şərait yaradır.

Konfransın növbəti günü plenar iclasa sədrlik edən Azərbaycan nümayəndə heyətinin rəhbəri terrorçuluğa qarşı mübarizədə prokurorluğun rolu barədə, həmçinin Azərbaycanda bu sahədə qəbul edilmiş normativ hüquqi aktlar, milli konsepsiya və praktiki mexanizmlər barədə ətraflı məlumat vermişdir.



Kibercinayətkarlıqla mübarizəyə dair Konfrans

9-11 oktyabr 2017-ci il tarixlərdə Baş İdarənin inzibati binasında Azərbaycan Respublikası Prokurorluğu və IAP-ın, həmçinin Avropa İttifaqı və Avropa Şurasının birgə təşkilatçılığı ilə "Kibercinayətkarlıqla mübarizəyə dair Konfrans" keçirilmişdir. Tədbirə Şərqi Avropa, Balkan regionu və Mərkəzi Asiya ölkələrinin hüquq mühafizə orqanlarının 50-dək əməkdaşı, beynəlxalq ekspertlər, IAP-ın rəsmi şəxsləri, həmçinin ölkəmizin hüquq mühafizə orqanlarının nümayəndələri qatılmışlar.

Tədbiri giriş sözü ilə açan Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyev kibercinayətkarlıq probleminin xüsusi aktuallığı və ona qarşı dövlət orqanları tərəfindən aparılan mübarizənin vacibliyini vurğulayaraq, ölkəmizdə bu sahədə görülmüş tədbirlər barədə iştirakçılara ətraflı məlumat vermişdir.

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov, IAP-ın Baş katibi Han Moraal və Avropa Şurasının Bakı Ofisinin rəhbəri Zoltan Hernyes tədbirdə çıxış edərək kibercinayətkarlığa qarşı mübarizə işində dövlət orqanları və beynəlxalq təşkilatların fəaliyyətlərinin effektiv əlaqələndirilməsini təmin edən koordinasiya mexanizminin yaradılmasının, onlar arasında əməkdaşlığın və məlumat mübadiləsi sisteminin səmərəliliyinin artırılmasının, qanunvericiliyin beynəlxalq standartlara tam uyğunlaşdırılmasının, habelə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulamışlar.

Tədbir çərçivəsində kibercinayətlərin formaları, bu növ cinayətlərin ibtidai istintaqı və cinayət təqibi, ortaya çıxan problemlər və onların həlli yolları, informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə törədilən çirkli pulların yuyulması və digər cinayətlər, elektron sübutların əldə edilməsi, ekspertizası və onların məhkəmə təcrübəsində istifadəsi, o cümlədən kibercinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlıq mövzuları geniş müzakirə edilmiş, praktiki məsələlərlə bağlı iştirakçıların sualları ətraflı cavablandırılmışdır.



IAP-ın İcraiyyə Komitəsinin 45-ci iclası

Tədbirin sonunda konfransın yekunlarını özündə əks etdirən və kibercinayətkarlığa, çirkli pulların yuyulmasına və korrupsiyaya qarşı mübarizə sahəsində hüquq mühafizə və maliyyə nəzarəti orqanları arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi və əməkdaşlığa dair qərarlar qəbul edilmiş, iştirakçılara sertifikatlar təqdim edilmişdir.

IAP ilə Azərbaycan arasındakı münasibətlərin inkişafında xüsusi xidməti olan tədbir Bakı şəhərində keçirilən Assosiasiyanın İcraiyyə Komitəsinin 45-ci iclası olmuşdur. Belə ki, 2016-cı ildə İrlandiyanın paytaxtı Dublində keçirilmiş illik tədbirlərində Assosiasiyanın İcraiyyə Komitəsinin 45-ci iclasının 2018-ci ilin 9-10 aprel tarixlərində Bakı şəhərində keçirilməsi qərara alınmışdır. Bununla əlaqədar Baş prokuror Zakir Qaralovun dəvəti ilə IAP-ın Prezidenti cənab Qerhard Yaroşun rəhbərlik etdiyi nümayəndə heyəti, eləcə də Kanada, İsveçrə, İrlandiya, Cənubi Afrika Respublikası, Tayland, Bəhreyn və Mavriki dövlətlərinin Baş prokurorları, habelə təşkilata üzv olan digər ölkələrin prokurorluq orqanlarının yüksək səviyyəli şəxsləri ölkəmizdə səfərdə olmuşlar.

Səfər çərçivəsində Assosiasiya rəsmiləri IAP-ın senatoru və fəxri üzvü, ədliyyə naziri Fikrət Məmmədovla görüşmüş, habelə Baş prokuror Zakir Qaralovla ilə Tayland Krallığının Baş prokuroru cənab Khemçai Çutivonqsi, Bəhreyn Krallığının Baş prokuroru cənab Əli Albuainaini, Mavriki Respublikasının Baş prokuroru cənab Saatyajit Boolell və digərlərinin rəhbərlik etdikləri nümayəndə heyətləri arasında ikitərəfli görüşlər keçirilmişdir.



7-14 sentyabr 2018-ci il tarixlərində Cənubi Afrika Respublikasının (CAR) Yohannesburq şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin 46-cı iclası, Senatın iclası, Assosiasiyanın 23-cü İllik Konfransı və Ümumi Yığıncağı keçirilmişdir. Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini – Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti tərkibində Baş prokurorun Böyük köməkçisi Sahib İsmayılov, Baş Prokurorluğunun Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanov, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Heydər Məmmədov və həmin idarənin böyük prokuroru İsfəndiyar Hacıyev təmsil etmişdir.



Belə ki, 8 sentyabr 2018-ci il tarixdə BPA-nın İcraiyyə Komitəsinin 46-cı iclası keçirilmişdir. İclasda Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü Kamran Əliyev iştirak etmiş, bir sıra təşkilati xarakterli məsələlər müzakirə edilmişdir. İclas zamanı Assosiasiyanın İcraiyyə Komitəsinin cari ilin 9-10 aprel tarixlərində Bakı şəhərində keçirilmiş 45-ci iclasının yüksək səviyyədə təşkil edildiyi bildirilmişdir. 9 sentyabr 2018-ci il tarixdə Assosiasiyanın Senatının iclası keçirilmiş, iclasda Assosiasiyanın Senatoru və fəxri üzvü, Azərbaycan Respublikasının Ədliyyə naziri və Məhkəmə-Hüquq Şurasının sədri cənab Fikrət Məmmədovun

adından iştirak edən nümayəndə heyətinin rəhbəri Kamran Əliyev tədbir iştiakçılarına onun salamlarını çatdırmış, müzakirələrdə iştirak etmişdir. 10 sentyabr 2018-ci il tarixdə Assosiasiyanın 23-cü İllik Konfransı və Ümumi Yığıncağının rəsmi açılış mərasimi olmuş, mərasimdə çıxış edən Cənubi Afrika Respublikasının Ədliyyə naziri ölkə Prezidentinin adından tədbir iştirakçılarını salamlayaraq konfransın işinə





uğurlar diləmişdir. "Prokurorların müstəqilliyi - ədalət mühakiməsinin təməl prinsipi kimi" mövzusunda keçirilmiş konfransda 90 ölkədən 450-dən artıq yüksək vəzifəli şəxs, o cümlədən çox sayda ölkənin Baş prokurorları və Baş prokurorlarının müavinləri, eləcə də məhkəmə, ədliyyə və digər hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, həmçinin beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri iştirak etmişlər.

11 sentyabr 2018-ci il tarixdə Kamran Əliyevin sədrliyi ilə BPA-nın Anti-Korrupsiya Prokurorları Şəbəkəsinin (NACP) xüsusi maraq qrupunun sessiyası keçirilmişdir. ABŞ, Yeni Zelandiya, Uqanda, Mavrikinin və digər ölkələrin nümayəndələrinin iştirak etdiyi iclasda Şəbəkənin fəaliyyətinin yüksələn xətt üzrə inkişaf etdiyi bildirilmiş, bu işdə nümayiş etdirdiyi fəallığa və dəstəyə görə Azərbaycan tərəfinə təşəkkür ifadə edilmiş, Şəbəkənin inkişaf perspektivləri ilə bağlı irəli sürülmüş təkliflər müzakirə edilərək bu sahədə beynəlxalq əməkdaşlığın dərinləşməsinin vacibliyi qeyd edilmişdir.



12 sentyabr tarixində BPA-nın Ümumi Yığıncağı keçirilmişdir. Tədbirdə qurumun maliyyə



durumuna dair hesabatlar, üzvlük, qurumun üzvləri arasında, həmçinin Assosiasiyanın digər beynəlxalq qurumlarla əlaqələrinin daha da inkişaf etdirilməsi və digər məsələlər müzakirə edilmişdir. Bununla yanaşı, 2010-ci ildən etibarən BPA-nın İcrayyə Komitəsinin üzvü olan Kamran Əliyev 3 il müddətinə İcraiyyə Komitəsinin Vitse-prezidenti vəzifəsinə seçilmişdir. Bundan əlavə, ölkəmizdə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı həyata keçirilmiş mütərəqqi islahatlar, eləcə də cari ilin 9-10 aprel tarixlərində Bakı şəhərində keçirilmiş İcraiyyə Komitəsinin 45-ci iclasının uğurla təşkil olunduğu nəzərə alınaraq Azərbaycan Respublikasının Prokurorluğu xüsusi təşəkkür sertifikatı ilə təltif edilmişdir.

Mükafatın rəsmi təqdimetmə mərasimdə çıxış edən nümayəndə heyətinin rəhbəri Azərbaycan Respublikasının Baş prokuroru cənab Zakir Qaralovun adından təşəkkür edərək ölkəmizin prokurorluq orqanları ilə



Assosiasiya arasında əməkdaşlığın daha da inkişaf edəcəyinə ümidini ifadə etmişdir.



Tədbir müddətində Assosiasiyanın İcraiyyə Komitəsinə seçkilər keçirilmişdir. Rusiya Federasiyası Baş prokurorunun müavini, Gürcüstan Baş prokurorunun müavini Giorgi Qoqadze, Ukrayna Prokurorlar Assosiasiyasının vitse-prezidenti Vitali Kasko qurumun İcraiyyə Komitəsinin üzvləri seçilmişlər. Bununla yanaşı, İcraiyyə Komitəsinin 49 iclasının 2019-cu ilin aprel ayında Norveç Krallığının Oslo şəhərində, BPA-nın 24-cü İllik Konfransının isə 2019-cü ilin sentyabr ayında Argentinanın Buenos-Ayres şəhərində keçirilməsi qərara alınmışdır.

Tədbir çərçivəsində nümayəndə heyəti ilə bir sıra ölkələrin təmsilçiləri arasında ikitərəfli görüşlər keçirilmişdir. Belə ki, Argentinanın Buenos-Ayres regionunun, Fələstin dövlətinin, Maltanın Baş prokurorları, eləcə də Moldova, Ukrayna, Rusiya Federasiyası və Türkiyənin nümayəndə heyətləri ilə görüşlər keçirilmiş, qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Qeyd edilməlidir ki, Argentinanın Buenos-Ayres regionunun Baş prokuroru ilə ikitərəfli görüş zamanı sonuncu Azərbaycanın korrupsiyaya qarşı mübarizə təcrübəsinin öyrənilməsi məqsədilə iki qurum arasında əməkdaşlığa dair sazişin bağlanması təklif etmişdir.



13 sentyabr 2018-ci il tarixdə BPA-nın Prokurorların Qlobal Elektron Cinayət Şəbəkəsinin (GPEN) 10 ilik yubileyi ilə bağlı iclas keçirilmişdir. İclasda təqdimatla çıxış edən Böyük Britaniyanın nümayəndəsi xanım Ester Jeorj Şəbəkə tərəfindən son 10 il ərzində aparılmış işlər barədə məlumat vermiş, eyni zamanda 10-11 oktyabr 2017-ci il tarixlərində Azərbaycanın hökumətinin dəstəyi ilə Bakı şəhərində Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında Azərbaycan Respublikası Prokurorluğu və Beynəlxalq Prokurorlar Assosiasiyasının, həmçinin Avropa İttifaqı və Avropa Şurasının birgə təşkilatçılığı ilə keçirilmiş "Kibercinayətkarlıqla mübarizəyə dair Konfrans"a dair fotoşəkilləri nümayiş etdirmiş, Azərbaycan tərəfinin yüksək təşkilatçılığı ilə fərqləndiyini bildirmişdir.

14 sentyabr 2018-ci il tarixdə tədbir rəsmi olaraq başa çatmışdır. Səfər müddətində nümayəndə heyətimiz, həmçinin Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasının Pretoriya şəhərində yerləşən səfirliyində olmuş, ölkəmizin CAR-da Müvəqqəti işlər vəkili cənab Azad Nağıyevlə də görüşlər keçirmişdir.

Avropa Şurası çirkli Pulların Yuyulması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi - MONEYVAL çərçivəsində əməkdaşlıq

Təşkilatın qısa tarixi

1997-ci ildə yaradılmış MONEYVAL-ın əsas məqsədi üzv dövlətlərin çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (PL/TMM) üzrə effektiv sistemlər hazırlamasını və bu sahədə müvafiq beynəlxalq standartlara cavab verməsini təmin etməkdən ibarətdir. MONEYVAL-ın 28 daimi və 2 müvəqqəti üzvü var.

MONEYVAL FATF-ın üzvü olmayan Avropa Şurasına üzv-dövlətlərin (və Avropa Şurasının səlahiyyət çərçivəsinə daxil olmaq üçün müraciət etmiş namizəd dövlətlərin) PL/TMM üzrə fəaliyyətlərini nəzərdən keçirir. MONEYVAL qarşılıqlı qiymətləndirmələr vasitəsilə öz üzvlərinin hüquq, maliyyə və hüquq-mühafizə sektorlarında müvafiq beynəlxalq standartlara nə dərəcədə əməl etməsini qiymətləndirir. Bu qiymətləndirmə hesabatları dövlətlərin PL/TMM rejimlərinin səmərəliliyini və beynəlxalq əməkdaşlıq imkanlarını yüksəltmək istiqamətlərində təfərrüatlı tövsiyələr təqdim edir.

MONEYVAL çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinin metod və üsullarının, tendensiyalarının tipoloji araşdırmasını da həyata keçirir.

Azərbaycan Respublikası 2001-ci ilin yanvar ayında Avropa Şurasına tamhüquqlu üzv kimi qəbul edildikdən sonra, ölkəmiz 2002-ci ildən etibarən MONEYVAL-da təmsil olunmağa başlamışdır. Ölkəmizin MONEYVAL-la qarşılıqlı əlaqələri bu təşkilatın prosedurlarına uyğun olaraq qurulmuş və hazırda davam edir.

Ölkəmizin korrupsiyaya qarşı mübarizə islahatlarının MONEYVAL tərəfindən qiymətləndirilməsi

Azərbaycanda PL/TMM sahəsində mövcud vəziyyətlə bağlı MONEYVAL-ın ilk qiymətləndirmə hesabatı 2004-cü ildə qəbul edilmişdir. Bundan sonra, 2008-ci ildə də MONEYVAL tərəfindən Azərbaycan üzrə qiymətləndirmə aparılaraq müvafiq hesabat hazırlanmışdır. Bu qiymətləndirmə hesabatlarında Azərbaycanda PL/TMM sisteminin formalaşdırılması baxımından təklif və tövsiyələr irəli sürülmüşdür. Bu təklif və tövsiyələr ölkədə PL/TMM sisteminin formalaşdırılması və inkişafı istiqamətində aparılan islahatlar zamanı mühüm əhəmiyyət kəsb etmişdir.

Həmin layihə çərçivəsində əməkdaşlığın davamı olaraq 2010-cu ilin 15-18 mart tarixlərində Strasburq şəhərində keçirilmiş 32-ci plenar iclasında idarənin əməkdaşı iştirak etmişdir. Həmin tədbirdə çirkli pulların yuyulmasının kriminallaşdırılması və digər tövsiyyələrdən irəli gələn məsələlər üzrə Azərbaycan Respublikasının dövrü hesabatı təqdim olunmuşdur.

Bundan başqa, 15 fevral 2013-cü il tarixdə Mərkəzi Bank yanında Maliyyə Monitorinq Xidmətinin inzibati binasında Avropa Şurasının MONEYVAL komitəsi tərəfindən 2014-cü ilin I yarısında ölkəmizin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin IV raund dəyərləndirilməsinin aparılması çərçivəsində hüquq mühafizə orqanlarının nümayəndələrinin iştirakı ilə keçirilmiş

görüşdə İdarənin Preventiv tədbirlər və təhqiqat şöbəsinin prokuroru Rəşid Mahmudov iştirak etmişdir. Ali Məhkəmənin, Daxili İşlər və Milli Təhlükəsizlik Nazirliklərinin, Dövlət Gömrük Komitəsinin və Mərkəzi Bank yanında Maliyyə Monitorinq Xidmətinin nümayəndələrinin iştirak etdiyi tədbirdə Avropa Şurasının MONEYVAL komitəsinin IV raund dəyərləndirilməsinə hazırlıqla bağlı qarşıda duran vəzifələr, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi sahəsində vahid statistik məlumat bazasının yaradılması və bu sahədə görülmüş işlər barədə ətraflı müzakirələr aparılmışdır.

2017-ci ilin 26-28 sentyabr tarixlərində isə Fransanın Strasburq şəhərində növbəti 54-cü plenar iclas keçirilmiş və iclasda Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının sədri Rüfət Aslanlının rəhbərlik etdiyi nümayəndə heyəti tərkibində Baş İdarənin rəis müavini Orxan İsayev və Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Əmir Ocaqverdiyev iştirak etmişlər. İclas çərçivəsində Azərbaycan tərəfindən çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (PY/TMM) sahəsində həyata keçirilmiş tədbirlərə dair növbəti tərəqqi hesabatının müzakirəsi keçirilmişdir. MONEYVAL Katibliyi hesabat dövrünü əhatə edən son üç il ərzində Azərbaycanda əhəmiyyətli tərəqqinin əldə edildiyini qeyd edib və PY/TMM rejiminin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə Azərbaycan hökumətinin üzərinə götürdüyü öhdəlikləri böyük ölçüdə yerinə yetirdiyini təqdir etmişdir.

Dünya Bankı ilə əməkdaşlıq

Təşkilatın qısa tarixi

Dünya Bankı, Beynəlxalq Valyuta Fondu (IMF) ilə birlikdə 1944 Bretton Vuds Konfransında yaradılmışdır. [7] Dünya Bankı və İMF Vaşinqtonda yerləşir və bir-biri ilə sıx əməkdaşlıq edirlər. Kapital layihələri üzrə dünya ölkələrinə kreditlər verən beynəlxalq bir maliyyə təşkilatıdır. Bu, iki qurumdan ibarətdir: Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (IBRD) və Beynəlxalq İnkişaf Assosiasiyası (IDA). Dünya Bankı Dünya Bankı qrupunun bir hissəsidir. Dünya Bankının ən son hədəfi yoxsulluğun azaldılmasıdır.

Təşkilatla Azərbaycan arasında münasibətlərin qurulması

Ölkəmiz 1992-ci ildən Dünya Bankı Qrupunun üzvü olsa da, əməli şəkildə əməkdaşlığımız 1995-ci ildən başlamışdır. Bankın Bakıda yeni nümayəndəliyi açılmış, Azərbaycan hökuməti Dünya Bankı ilə ilk birgə makroiqtisadi sabitləşdirmə və struktur islahatları proqramının həyata keçirilməsinə başlamışdır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən davam etdirilən iqtisadi siyasətin nəticəsi olaraq ölkəmizin əldə etdiyi nailiyyətlərdə Dünya Bankı ilə əməkdaşlıq vacib rol oynamışdır.

Həmin təşkilatla ölkəmiz korrupsiyaya qarşı mübarizə çərçivəsində də əməkdaşlığını quraraq inkişaf etdirmişdir. Belə ki, 08-10 dekabr 2014-cü il tarixlərində Amerika Birləşmiş Ştatların paytaxtı Vaşinqton şəhərində Dünya Bankının dəstəyi ilə Korrupsiyaya qarşı Mübarizə Aparan Təşkilatların Beynəlxalq Birliyinin (ICHA) 3-cü iclası keçirilmişdir. Korrupsiyaya qarşı mübarizə aparan ixtisaslaşdırılmış qurumların və istintaq orqanlarının 300-ə yaxın yüksək vəzifəli şəxsləri, habelə beynəlxalq təşkilatların nümayəndələri və ekspertləri təmsil olunduğu tədbirin “Korrupsiyaya qarşı mübarizədə hüquq mühafizə orqanlarının

fəaliyyəti” adlı sessiyasında Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyev çıxış edərək ölkə başçısının siyasi iradəsinə uyğun olaraq Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində aparılan qanunverici və institusional islahatlar, habelə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti, beynəlxalq əməkdaşlıq, Azərbaycan Respublikasının Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etdiyi dövrdə GRECO və IACA-nın birgə səyləri ilə müvafiq olaraq cari ilin iyul və noyabr aylarında Bakı şəhərində keçirilmiş “Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr” mövzusunda konfransın və IACA-ya üzv və iştirakçı dövlətlərin Assambleyasının 3-cü sessiyası, "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti barədə məlumat vermişdir. Tədbir çərçivəsində Dünya Bankının və Dələduzluqla mübarizə üzrə Avropa bürosunun (OLAF) yüksək rəsmiləri ilə iki tərəfli görüşlər keçirilmiş, qarşılıqlı əməkdaşlıq barədə müzakirələr aparılmışdır.

Beynəlxalq Cinayət Polis İdarəsi (INTERPOL)

Təşkilatın qısa tarixi

17-19 dekabr 2014-cü il tarixlərdə Beynəlxalq Cinayət Polis İdarəsinin (İNTERPOL) təşkilatçılığı ilə Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində Qanunsuz vəsaitlərin aşkar olunması, müəyyənləşdirilməsi və müsadirəsinə dair Ekspert İşçi Qrupunun ikinci iclasında Baş İdarənin Preventiv tədbirlər və təhqiqat şöbəsinin böyük prokuroru Heydər Məmmədov iştirak etmişdir.

Tədbirin işçi sessiyaları cinayət təqibi zamanı əmlakın izlənilməsi, bununla əlaqədar iş üçün əhəmiyyət kəsb edən sübutların toplanılması, habelə cinayət mühakiməsi xaricində əmlakın üzərinə həbsin qoyulması və müsadirə olunması, ölkə xaricində olan cinayət yolu ilə əldə olunan əmlakın üzərinə həbsin qoyulması kimi aktual məsələləri əhatə etmiş, problemli məsələlər öyrənilmiş və inkişaf tendensiyalarının müəyyən edilməsi istiqamətində müzakirələr aparılmışdır.



II BÖLMƏ

Xarici dövlətlərlə ikitərəfli əməkdaşlıq

Xarici ölkələrin məhkəmə və hüquq mühafizə orqanlarının, habelə nüfuzlu beynəlxalq təşkilatlarının Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsini beynəlxalq əməkdaşlığın fəal iştirakçısı kimi tanıması və onun bu işə verdiyi töhfəni yüksək qiymətləndirməsi, yuxarıda qeyd olunanlarla yanaşı, yüksək vəzifəli xarici qonaqların ölkəmizə səfərləri və ikitərəfli əməkdaşlıq zamanı da özünü biruzə vermişdir. Belə ki, Baş İdarə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə sahəsində fəaliyyətinin təkmilləşdirilməsi, məlumat və əməkdaşlıq şəbəkəsinin genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədilə dünyanın nüfuzlu beynəlxalq və regional təşkilatları ilə münasibətlərin qurulması və inkişafına önəm verməklə yanaşı, xarici dövlətlərin cinayətkarlığa, xüsusilə korrupsiyaya qarşı mübarizə aparan qurumları ilə ikitərəfli əməkdaşlığı da fəaliyyətinin prioritet istiqaməti kimi qəbul etmiş və bir sıra dövlətlərlə qarşılıqlı münasibətlərin yaradılması istiqamətində müntəzəm fəaliyyət göstərmişdir.

Litva ilə münasibətlər



Litva Respublikasının Baş prokuroru Darius Valis və Litva Xüsusi İstintaq Xidmətinin baş direktoru Zimantas Paseviçiusun ölkəmizə rəsmi səfəri

Həmin dövlətlərə misal kimi Litva Respublikası göstərilə bilər. Belə ki, bu dövlətlə ikitərəfli münasibətlər Azərbaycan Respublikasının müstəqilliyinin tanınması tarixinə təsadüf edir. Litva Respublikası Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk ölkələrdən biridir (20 dekabr 1991-ci il). İki ölkə arasında diplomatik münasibətlər 1995-ci ilin noyabr ayının 27-də qurulmuş və 2007-ci ilin 3 aprel tarixində Litvanın Azərbaycanda, 6 sentyabr 2007-ci ildə isə Azərbaycanın Litvada səfirliyi açılmışdır.

Ölkələrimiz arasında münasibətlər siyasi, iqtisadi, mədəni sahələri əhatə etməklə yanaşı, korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığı da özündə ehtiva edir. Belə ki, həmin əməkdaşlıq çərçivəsində 2011-ci ilin aprel ayının 26-da Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun dəvəti ilə Litva Respublikasının baş prokuroru Darius Valis və Litva Xüsusi İstintaq Xidmətinin baş direktoru Zimantas Paseviçius ölkəmizə rəsmi səfərə gəlmişlər. Respublika Prokurorluğunda görüş zamanı Baş prokuror Zakir Qaralov demokratik və hüquqi dövlət quruculuğu yolunu tutan ölkəmizdə son dövrlərdə həyata keçirilən məhkəmə-hüquq islahatları, o cümlədən prokurorluğun fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, mütərəqqi normativ-hüquqi bazanın yaradılması, yeni informasiya texnologiyaları üzrə qabaqcıl təcrübənin tətbiq olunması, şəffaf prosedurlara və ədalətli meyarlara əsaslanan yeni kadr siyasətinin reallaşdırılması ilə əlaqədar görülən işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat vermişdir. Görüşdə xüsusi vurğulanmışdır ki, Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətə başladığı dövrdən rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə məsələləri dövlət siyasətinin prioritet istiqaməti səviyyəsinə qaldırılmış, Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" və "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" konvensiyalarına, UNCAC-a qoşulan ölkəmizdə milli dövlətçilik ənənələrinə və müvafiq dünya standartlarının tələblərinə cavab verən qanunvericilik bazası formalaşdırılmış, o cümlədən "Korrupsiyaya qarşı mübarizə haqqında", "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunların və digər normativ-hüquqi aktların qəbul edilməsi təmin olunmuşdur.

Dövlət başçısının siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində görülən son tədbirlərdən söz açan Baş prokuror korrupsiya ilə üzləşmiş vətəndaşların Korrupsiyaya qarşı Mübarizə İdarəsinə Avropa İttifaqının Azərbaycan hökumətinin korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdiyi tədbirləri alqışladığını, təcrübə mübadiləsi, həmçinin səmərəliliyin artırılmasına dəstək verməyə hazır olduğunu diqqətə çatdıraraq, Avropa İttifaqı tərəfindən dəstəklənən və 2009-cu ilin sentyabrından həyata keçirilməsinə başlanılmış "Azərbaycan Respublikası Baş Prokurorluğu nəzdində Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə dəstək" layihəsinin Litvanın Xüsusi Araşdırmalar Xidməti tərəfindən icra olunduğunu və bu layihənin idarənin imkanlarının artırılmasına, eləcə də, Korrupsiya ilə Mübarizə və Şəffaflığın Artırılması üzrə Milli Strategiyanın dəstəklənməsinə yönəldildiyini nəzərə çatdırmışdır.

İkitərəfli münasibətlər çərçivəsində Memorandumun imzalanması

Görüşdə ikitərəfli əməkdaşlığın qarşılıqlı maraq doğuran perspektivlərinə dair ətraflı fikir mübadiləsi aparılmışdır. Görüş çərçivəsində "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi ilə Litva Respublikasının Xüsusi İstintaq Xidməti arasında Davamlı Əməkdaşlıq haqqında" Memorandum imzalanmışdır.

Ölkəmizin korrupsiyaya qarşı mübarizə fəaliyyəti ilə tanışlıq

Səfər çərçivəsində litvalı qonaqlar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsində olarkən İdarə rəisi Kamran Əliyev qonaqlara idarənin fəaliyyəti barədə məlumat verərək bildirmişdir ki, fəaliyyətə başladığı vaxtdan idarənin bütün səyləri ölkəmizdə həyata

keçirilən sosial-iqtisadi islahatların əsas təminatı olan ictimai-siyasi sabitliyin qorunmasına, mütəşəkkil cinayətkarlığın təzahürü kimi korrupsiyaya qarşı kəsərli mübarizənin təmin olunmasına istiqamətləndirilmişdir. Tvinninq layihəsi çərçivəsində əməkdaşlığın Avropa strukturlarına inteqrasiya istiqamətində mühüm nəticələrin əldə olunmasında əhəmiyyətli rol oynadığını bildirən Kamran Əliyev Avropa İttifaqının qabaqcıl təcrübələrinə çıxış əldə etməyin, həyatımızın müxtəlif sahələrini Avropa İttifaqının standartlarına yaxınlaşdırmağın ölkəmiz üçün çox önəmli olduğunu vurğulamış, bu tədbiri birgə məhsuldar fəaliyyət kimi qiymətləndirmişdir.

Malayziya ilə münasibətlər

İkitərəfli münasibətlərin qurulması və inkişafı

Malayziya 31 dekabr 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyini tanımışdır. Azərbaycan ilə Malayziya arasında diplomatik münasibətlər 5 aprel 1993-cü ildə qurulmuşdur. Ölkəmizin Malayziyada Səfirliyi 20 sentyabr 2005-ci ildə təsis edilmişdir.

Malayziya ilə korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq

Malayziya ilə əməkdaşlığın qurulmasında Malayziya Anti-Korrupsiya Komissiyasının da (MACC) rolu böyükdür. Belə ki, bu Malayziyada dövlət və özəl sektorlarda korrupsiyanı araşdıran və təqib edən bir hökumət təşkilatıdır. MACC Korrupsiyaya qarşı Müstəqil Komissiya (Hong Kong) və Avstraliyanın Korrupsiyaya qarşı Müstəqil Komissiya (Yeni Cənubi Uels) kimi ən yaxşı korrupsiya təşkilatlarından sonra formalaşdırılmışdır.

Müstəqilliyini təmin etmək və vətəndaşların hüquqlarını qorumaq üçün MACC-a nəzarət edən beş müstəqil orqan vardır. Bu orqanlar müstəqil bir perspektiv təmin etmək üçün digər dövlət idarələrindən ayrı idarə olunur. Qurumları: Korrupsiyaya Qarşı Mübarizə Məsləhət Qurumu, Korrupsiyaya qarşı Xüsusi Komitə, Şikayətlər Komitəsi, Əməliyyatlar üzrə Qiymətləndirmə Paneli və Korrupsiya Məsləhətləşmələri və qarşısının alınması Panelidir.

Həmin təşkilatla əməkdaşlığı Baş İdarə 2016-cı ildə qurmuş və bu Baş İdarənin fəaliyyətinin təkmilləşdirməsinə müsbət təsir göstərmişdir. Belə ki, Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyevin başçılıq etdiyi nümayəndə heyəti 2016-cı ilin fevral ayının 3-dən 5-dək Malayziyada səfərdə olumuşdur. K.Əliyev səfər çərçivəsində Malayziya Baş nazirinin ofisində şəffaflıq məsələləri üzrə nazir və parlamentin üzvü Paul Lou Seng Kuan, MACC rəisi Datuk Abu Kassim bin Mohamed, MACC-nın rəis müavini Dato Sri Mohd Şukri Bin Abdullah ilə görüşmüşdür. Görüşdə hər iki ölkənin korrupsiyaya qarşı mübarizə qurumları arasında əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparılmışdır.

Fevralın 4-də Azərbaycanın Malayziyadakı səfiri Qaley Allahverdiyev və Anti-korrupsiya Komissiyasının rəhbərliyinin iştirakı ilə MACC-nın Putracaya şəhərində yerləşən baş qərargahında "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Malayziyanın Anti-Korrupsiya Komissiyası arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır.

Bununla yanaşı, MACC nəzdində fəaliyyət göstərən "MACC FM" radiosuna baş çəkən K.Əliyev radioya canlı müsahibə də vermişdir. Müsahibə zamanı K.Əliyev malayziyalı dinləyicilərə rəhbərlik etdiyi qurumun fəaliyyəti və ölkəmizin uğurları haqqında danışmışdır.



Malayziya səfəri

Səfər çərçivəsində K.Əliyev Kuala Lumpur şəhərində yerləşən MACC rəhbərliyi ilə görüşmüşdür. Qeyd edilən görüşdə Azərbaycan nümayəndə heyətinə Akademiya barədə geniş məlumat verilmiş və MACC-nın fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilmişdir. Nümayəndə heyəti, həmçinin Akademiyanın kitabxanası və burada təşkil olunan qısamüddətli təlim kurslarında iştirak edən xarici ölkə nümayəndələri üçün yaradılmış şəraitlə tanış olmuşdur.

Bolqarıstanla münasibətlər

İkitərəfli münasibətlərin qurulması və inkişafı

Bolqarıstan Respublikası ölkəmizin müstəqilliyini 14 yanvar 1992-ci il tarixində tanımış və iki ölkə arasında diplomatik münasibətlər 05 iyun 1992-ci ildə qurulmuşdur.Bolqarıstan Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi 1999- cu il dekabr ayında fəaliyyətə başlamışdır. 16 aprel 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyev Bolqarıstanda Azərbaycan Səfirliyinin təsis edilməsi haqqında sərəncam imzalamışdır.

Korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq

Korrupsiyaya qarşı mübarizə sahəsində Baş İdarə tərəfindən ikitərəfli əməkdaşlıq qurulan dövlətlər içərisində Bolqarıstan Respublikasının qeyd edilməsi xüsusilə əhəmiyyətlidir. Belə ki, 2017-ci ilin may ayının 23-də Bolqarıstan Respublikası Baş prokurorunun müavinləri Penka Boqdanova və Marya Şişkovanın rəhbərlik etdikləri nümayəndə heyətinin Azərbaycana işgüzar səfəri baş tutmuşdur.

Bundan sonra 2017-ci ilin iyunun 12-də Bolqarıstan Respublikasının Baş prokuroru Sotir Tsatsarovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlmişdir. Səfər zamanı Azərbaycan Respublikasının Baş Prokurorluğunda nümayəndə heyəti ilə görüş keçirilmişdir. Ölkələrimiz arasında səmərəli dostluq və əməkdaşlıq münasibətlərini vurğulayan



Bolqarıstan Respublikasının Baş prokuroru Sotir Tsatsarovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfəri

Baş prokuror Zakir Qaralov bu əlaqələrin inkişafında dövlət başçılarımızın xüsusi rolunu qeyd etmiş, hüquqi əlaqələrin dərinləşdirilməsi üçün böyük perspektivlərin olduğunu bildirmişdir. Baş prokurorun müavini- Baş İdarə rəisi Kamran Əliyev Baş İdarəyə gələn qonaqlara ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində Prezident cənab İlham Əliyev tərəfindən imzalanan mütərəqqi qanunvericilik aktları, prokurorluğun fəaliyyəti üçün zəruri hüquqi bazanın yaradılması və aparılan əsaslı islahatlar, Baş İdarənin fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

İşgüzar səfər çərçivəsində Prezident İlham Əliyev tərəfindən Bolqarıstan Respublikasının baş prokuroru Sotir Tsatsarovun rəhbərlik etdiyi nümayəndə heyətinin qəbul edilməsi xüsusilə qeyd edilməlidir. Belə ki, görüş çərçivəsində Sotir Tsatsarov Bolqarıstan Prezidenti Rumen Radevin salamlarını dövlətimizin başçısına çatdırmış, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı tərəfindən həyata keçirilən işlərə öz rəğbətini ifadə edən Bolqarıstanın baş prokuroru respublikamızda gedən inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını bildirmişdir. Qonaq hər iki ölkənin prokurorluq orqanları arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini, bu əməkdaşlığın yüksək peşəkar səviyyədə və dostluq şəraitində aparıldığını vurğulamış və Bakıya səfərini mövcud əlaqələrin davamı kimi dəyərləndirmişdir.

Azərbaycan ilə Bolqarıstan arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev əlaqələrimizin siyasi, iqtisadi, enerji, mədəniyyət və digər sahələrdə uğurla inkişaf etdiyini bildirmişdir. Özünün Bolqarıstana, Bolqarıstan Baş nazirinin Azərbaycana səfərini xatırlayan dövlətimizin başçısı bu səfərlərin ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi baxımından önəmini qeyd etmişdir. Azərbaycan ilə Bolqarıstanın bütün sahələrdə əlaqələrinin hər iki ölkənin rəhbərlikləri arasında mövcud olan əməkdaşlıq və qarşılıqlı dəstək səviyyəsinə qaldırılmasının əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev prokurorluq orqanlarının yaxşı əməkdaşlığının ikitərəfli əlaqələrimizin genişləndirilməsi işinə xidmət etdiyini demiş və bu səfərin münasibətlərimizin perspektivləri ilə bağlı məsələlərin müzakirə edilməsi üçün yaxşı fürsət yaratdığını bildirmişdir.



Bolqarıstanın Baş prokuroru Sotir Tsatsarovun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilməsi

Azərbaycan Respublikası və Bolqarıstan Baş Prokurorluqları arasında imzalanmış əməkdaşlıq proqramına müvafiq olaraq iki ölkənin prokurorluq orqanları arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi, təcrübə və işçi mübadiləsinin aparılması məqsədilə Baş İdarənin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 10-dan 12-dək Bolqarıstan Respublikasında işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində nümayəndə heyəti Bolqarıstanın Baş prokuroru Sotir Tsatsarov ilə görüşmüşlər. Nümayəndə heyətini salamlayan Baş prokuror ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hüquq mühafizə qurumları arasında uğurla inkişaf etdiyini vurğulayaraq Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Bolqarıstanın Veliko Tırnovo mədəni layihəsində fəal iştirakının ölkələrimizin bir-birinə daha da yaxınlaşması işinə töhfə verdiyini bildirmişdir.

Çin Xalq Respublikası ilə münasibətlər

ÇXR 27 dekabr 1991-ci il tarixdə Azərbaycanın müstəqilliyini tanımışdır. Azərbaycan ilə ÇXR arasında diplomatik münasibətlər 02 aprel 1992-ci ildə qurulmuşdur. Həmin dövlətlə həm siyasi, həm iqtisadi, həm də mədəni əlaqələr günü-gündən inkişaf edir. ÇXR ilə Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində ikitərəfli münasibətləri də ölkələrimiz arasındakı əlaqələrin inkişafı tarixində xüsusi yer tutur. Belə ki, 2013-cü ilin aprel ayının 12-

də Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (İAACA) Prezidenti Çao Cianminqin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur. Azərbaycan Respublikasının Baş Prokurorluğunda Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun nümayəndə heyəti ilə ikitərəfli görüş zamanı ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlıq əlaqələrinin perspektivlərini müəyyənləşdirən «Anlaşma Memorandumu» imzalanmışdır.

Qonaqları səmimi salamlayan Baş prokuror Zakir Qaralov xalqlarımız arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənməklə dərinləşən ikitərəfli münasibətlərin inkişafında Azərbaycan və Cin xalqının ümummilli liderləri Heydər Əliyev və



Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru, IAACA-nın Prezidenti Çao Cianminq Prezident İlham Əliyev tərəfindən qəbul edilməsi

Dzyan Dzemin, sonrakı illər ərzində isə dövlət başçıları cənab İlham Əliyev və cənab Hu Cintaonun misilsiz xidmətlərini xüsusi qeyd etmişdir.

Səfər onunla əlamətdar olmuşdur ki, Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru, IAACA-nın Prezidenti Çao Cianminq Prezident İlham Əliyev tərəfindən qəbul edilmişdir. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı bu münasibətlərin gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə etmişdir. Siyasi əlaqələrimizin uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də yaxşı əməkdaşlıq etdiyini demişdir.

İran İslam Respublikası ilə münasibətlər

İkitərəfli münasibətlərin qısa tarixi

İran İslam Respublikası Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 12 mart 1992-ci ildə qurulmuşdur.1992-ci ilin mart ayından İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi, 1992-ci ilin dekabr ayından isə Azərbaycan Respublikasının İran İslam Respublikasında səfirliyi fəaliyyətə başlamışdır.

Korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq

Korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın həyata keçirildiyi dövlətlər sırasında İran İslam Respublikasının yeri xüsusilə qeyd edilməlidir. Belə ki, 2018-ci ilin 17-18 iyun tarixlərində Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyevin başçılıq etdiyi nümayəndə heyəti əvvəlcədən razılaşdırılmış Anlaşma Memorandumunun imzalanması məqsədilə İran İslam Respublikasının Tehran şəhərində səfərdə olmuşdur. Səfər çərçivəsində Kamran Əliyevlə qonşu ölkənin Baş Təftiş Təşkilatının sədri Nasir Serac arasında keçirilmiş görüş zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, anti-korrupsiya sahəsində görülən işlər, eləcə də, bu sahədə ixtisaslaşmış qurumlar olan Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarə Baş İdarəsinin



Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin İran İslam Respublikasına səfəri

fəaliyyət istiqamətləri və strukturu barədə qarşı tərəfə ətraflı məlumatlar verilmiş, habelə "ASAN" xidmət mərkəzlərinin uğurlu fəaliyyətindən danışılmışdır.

Naser Serac öz növbəsində 2017-ci ildə Azərbaycan Respublikasında səfərdə olarkən ölkəmizdə həyata keçirilən geniş quruculuq işləri, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirmiş, bu sahədə təmsil etdiyi qurumun Azərbaycanın müvafiq dövlət qurumları ilə birgə səmərəli təcrübə mübadiləsi aparmasına maraqlı olduğunu diqqətə çatdırmışdır.

Tədbir Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və İran İslam Respublikasının Baş Təftiş Təşkilatı arasında korrupsiyaya qarşı mübarizə və onun qarşısının alınması sahəsində Anlaşma Memorandumunun imzalanması ilə başa çatmış, daha sonra hər iki tərəf mətbuat nümayəndələrinin suallarını cavablandırmışdır.

Rusiya Federasiyası ilə münasibətlər

İkitərəfli münasibətlərin qısa tarixi

İki ölkə arasında diplomatik əlaqələr 1992-ci ilin aprel ayının 4-də qurulmuşdur. Rusiyanın Bakıdakı Səfirliyi isə rəsmən 1992-ci ilin sentyabrın 25-də fəaliyyətə başlamışdır.

Ölkələrimizin hüquq mühafizə orqanlarının münasibətləri

15 oktyabr 2015-ci il tarixdə Azərbaycan Respublikasının Baş Prokurorluğu və Rusiya Federasiyası İstintaq Komitəsi arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədi ilə Rusiya İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlmişdir. Oktyabrın 15-də Rusiya Federasiyası İstintaq Komitəsinin nümayəndə heyəti Fəxri Xiyabana gələrək Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoymuşdur. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də gül dəstələri düzülmüşdür. Şəhidlər Xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarı üzərinə tər çiçək dəstələri düzmüş, "Əbədi Məşəl" abidəsinin önünə əklil qoymuşlar.

Daha sonra nümayəndə heyəti ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunda görüş keçirilmişdir. Görüşdə iki ölkə arasında hüquqi sahədə əlaqələrin getdikcə inkişaf etdiyini qeyd edən Baş prokuror ölkəmizin son illər ərzində sosial-iqtisadi və ictimai-siyasi sahələrdə ardıcıl və sürətli inkişafa zəmin yaradan məhkəmə-hüquq islahatlarının həyata keçirildiyini vurğulamışdır. Dövlətlərimizin başçılarının siyasi iradələri və qarşılıqlı səfərləri nəticəsində ölkələrimiz arasındakı münasibətlərin daha da genişləndiyini qeyd edən Z.Qaralov bu müsbət inkişafın hüquqi sahədə əməkdaşlıqda da müşahidə olunduğunu bildirmişdir.

Rusiyanın Azərbaycan ilə hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi önəm verdiyini deyən A.Bastrıkin iki ölkənin istintaq orqanları arasında əlaqələrin inkişafına təkan verildiyini, münasibətlərin dərinləşməsi üçün böyük perspektivlərin olduğunu bildirərək, qarşılıqlı səmərəli əlaqələrin daha da genişlənməsində maraqlı olduğunu vurğulamışdır.

Müzakirələrin nəticəsi olaraq iki dövlət orqanı arasında əməkdaşlıq əlaqələrinin perspektivlərini müəyyənləşdirən "Əməkdaşlıq haqqında saziş" imzalanmışdır. Saziş cinayətkarlıq və terrorçuluğa qarşı mübarizə, xüsusən də onun mütəşəkkil formaları, korrup-

siya, iqtisadiyyat və yüksək texnologiyalar sahəsində cinayətlər və cəmiyyət üçün ciddi təhlükə təşkil edən digər cinayətlərin qarşısının alınmasında birgə əməkdaşlığı, informasiya və təcrübə mübadiləsini, hüquqi yardim və digər sahələri əhatə edir.

Ölkəmizin korrupsiyaya qarşı mübarizə fəaliyyəti ilə tanışlıq

Səfər çərçivəsində Rusiya İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkin rəhbərlik etdiyi nümayəndə heyəti Baş İdarədə olmuşdur. Qonaqlar milli memarlıq üslubunda və müasir stan-



Rusiya İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri

dartlar səviyyəsində inşa edilmiş Baş İdarənin inzibati binasında normativ-hüquqi aktlarla zəngin və digər dövlət orqanlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi, vətəndaşların qəbulu otağı ilə yaxından tanış olmuşlar.

Salamlayan Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyev Prezident cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən qanunvericilik və institusional tədbirlər, habelə Baş İdarənin fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

Görüş zamanı Aleksandr Bastrıkin tərəfindən Kamran Əliyevə "Xidmətə görə" və "1941-1945-ci illər Böyük Vətən Müharibəsində Qələbənin 70 illiyi" medallarının fəxri döş nişanı təqdim edilmişdir.

Həmin təltifetməni ölkəmizdə həyata keçirilən korrupsiyaya qarşı mübarizə işinə, bu sahədə həyata keçirilmiş islahatlara beynəlxalq aləmdə verilən qiymətin göstəricisi kimi dəyərləndirmək olar.

Qeyd edilməlidir ki, Rusiya tərəfindən ölkəmizin korrupsiyaya qarşı mübarizə fəaliyyətinə verilən qiymət təkcə qeyd edilən xarici dövlətin təltifləri ilə kifayətlənmir. Belə ki, hələ 2011-ci ildə Rusiya Federasiyasının Baş prokuroru Yuriy Çayka tərəfindən Baş İdarə rəisi Kamran Əliyev "Rusiya Prokurorluğunun 290 illiyi" medalı ilə təltif edilməklə ona döş nişanı təqdim edilmişdir.

Xorvatiya ilə münasibətlər

İkitərəfli münasibətlərin qısa tarixi

Xorvatiya Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 28 dekabr 1991- ci ildə tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər 26 yanvar 1995-ci il tarixində qurulmuşdur. AR-in Xorvatiyadakı Səfirliyi 2011-ci ilin fevral ayından fəaliyyətə başlamışdır.

Korrupsiyaya qarşı mübarizə sahəsində ikitərəfli münasibətlər

Həmin dövlətlə də korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın tarixinə nəzər salınması xüsusi önəmlidir. Belə ki, 2014-cü ilin iyunun 30-da GRECO və IACA-nın iştirakı ilə Bakıda keçirilən "Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr" mövzusunda yüksək səviyyəli beynəlxalq konfransda Xorvatiyanın Baş prokuroru Dinko Svitan iştirak etmiş və iyulun 1-də həmkarı - Baş prokuror cənab Zakir Qaralovla görüşmüşdür.

Görüşdə qonağa son illər Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, kadr potensialının formalaşdırılması istiqamətində aparılan əsaslı islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin müasir dövrdə qarşıda duran digər vəzifələr barədə ətraflı məlumat verilmişdir.



Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Əli Nağıyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Xorvatiya Respublikasına səfəri

Söhbət zamanı hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən danışılmış, iki ölkənin prokurorluq orqanları arasında münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

Bundan sonra, 2015-ci ilin aprelin 8-dən 10-dək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Əli Nağıyevin rəhbərlik etdiyi nümayəndə heyəti Xorvatiya Respublikası Baş Prokurorluğunun Mütəşəkkil Cinayətkarlıq və Korrupsiyaya qarşı Mübarizə Departamentinin (USKOK) dəvəti ilə Xorvatiyada səfərdə olmuşdur.

Tədbirlərdə Əli Nağıyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində kompleks, sistemli və ardıcıl islahatların həyata keçirildiyini, bu sahədə respublikamızın bir çox beynəlxalq təşkilatlar, ixtisaslaşmış qurumlarla ikitərəfli və çoxtərəfli müqavilələr əsasında qarşılıqlı və səmərəli əməkdaşlıq etdiyini, həmçinin korrupsiyaya qarşı qətiyyətli və səmərəli mübarizədə ölkəmizin öz müsbət təcrübəsini bölüşməyə hazır olduğunu bildirmişdir.Səfər çərçivəsində Xorvatiya Respublikasının Baş prokuroru Dinco Svitan, USKOK-un rəisi Tamara Laptos, eləcə də Ədliyyə Nazirliyinin, Korrupsiya və Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə Milli Polis Mərkəzinin məsul əməkdaşları ilə görüşlər keçirilmişdir.

Moldova ilə münasibətlər

İkitərəfli münasibətlərin qısa tarixi

8 may 1992-ci il tarixində Azərbaycan Respublikası və Moldova Respublikası arasında diplomatik münasibətlər qurulmuşdur. 5 oktyabr 2005-ci ildə Azərbaycanın Moldovada Səfirliyi açılmışdır.

Milli anti-korrupsiya qurumlarının ikitərəfli münasibətləri

2016-cı ilin dekabr ayının 19-da Azərbaycan və Moldova Respublikası prokurorluqları arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi, Baş İdarənin müsbət iş təcrübəsinin öyrənilməsi, səmərəli və müasir xidmət modeli olan “ASAN xidmət” mərkəzlərinin fəaliyyəti ilə yaxından tanış olmaq məqsədi ilə Moldova Respublikasının Milli Anti-Korrupsiya Mərkəzinin rəis müavini Vadim Kojokarunun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlmişdir. Səfər çərçivəsində qonaqlar Baş İdarənin strukturu və fəaliyyət istiqamətləri, o cümlədən Baş İdarənin idarə və şöbələrinin fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Həmin səfərin davamı olaraq 2017-ci ilin 3-4 iyul tarixlərində Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Moldova rəsmilərinin dəvəti ilə bu ölkədə səfərdə olmuşdur. Səfər çərçivəsində ölkəmizin nümayəndə heyəti Moldovann Milli Anti-korrupsiya Mərkəzinin rəisi Viorel Ketraru ilə görüşmüş, nümayəndə heyətinin rəhbəri qarşı tərəfə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiyaya qarşı aparılan məqsədyönlü institusional və qanunvericilik islahatları barədə məlumat vermişdir. Görüşdə ölkələrimiz arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivləri barədə geniş fikir mübadiləsi aparılmışdır. Bununla yanaşı, Azərbaycan nümayəndə heyətinin Moldovanın Baş Prokurorluğuna səfəri çərçivəsində bu



Moldova Respublikasının Milli Anti-Korrupsiya Mərkəzinin rəis müavini Vadim Kojokarunun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri

ölkənin Baş prokuroru Eduard Xarunjena ilə ikitərəfli görüş keçirilmişdir. Görüşdə Moldova Respublikasının Baş Prokurorluğu ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu arasında münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə müzakirələr aparılmış, prioritet əməkdaşlıq sahələri müəyyənləşdirilmişdir. Səfər zamanı Anti-Korrupsiya Prokurorluğunun Baş prokuroru Viorel Morar ilə baş tutan ikitərəfli görüşdə ölkələrimizdə korrupsiya və digər mənfi hallara qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər barədə müzakirələr aparılmış, eləcə də qarşı tərəfə "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti barədə geniş məlumat verilmişdir. Azərbaycanın bu sahədə qazandığı nailiyyətlər Moldova rəsmiləri tərəfindən yüksək qiymətləndirilmişdir. Bu istiqamətdə ölkəmizin təcrübəsinin öyrənilməsinə maraq ifadə edilmişdir.

Türkiyə ilə münasibətlər

İkitərəfli münasibətlərin qısa tarixi

09 noyabr, 1991-ci ildə Türkiyə Respublikası Azərbaycan Respublikasının müstəqilliyini tanımış və 1992-ci ilin yanvarın 14-də iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətdir. Həmin dövlətlə ölkəmizin həm siyasi, həm iqtisadi, həm də mədəni sahədə əlaqələri yüksək səviyyədə qurulmaqla inkişaf etməkdədir.

Korrupsiyaya qarşı mübarizə sahəsində ikitərəfli münasibətlər

Türkiyə Respublikası Baş Prokurorluğu rəhbərliyinin Bakıya səfəri Türkiyə ilə korrupsiyaya qarşı mübarizə sahəsində də münasibətlərin qurulmasından xəbər verir. Belə ki, 18-21 sentyabr 2014-cü il tarixlərdə Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokurorunun müavini Mehmet Ekmekçinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olmuşlar. Səfər zamanı nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olaraq qonaqlara Baş İdarənin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilməklə qarşılıqlı fikir mübadiləsi aparılmış, habelə gələcəkdə nəzərdə tutulan əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Bundan başqa, 2016-cı ilin aprelin 19-da Türkiyə Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Ciritin rəhbərlik etdiyi, tərkibinə Ali Məhkəmənin Baş prokuroru Mehmet Akarca və digər məsul əməkdaşların daxil olduğu nümayəndə heyəti Baş İdarədə olmuşlar.

Baş prokuror Zakir Qaralov qonaqları salamlayaraq Prezident cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən qanunvericilik və institusional, cinayət təqibi və qabaqlayıcı tədbirlər barədə, habelə Baş İdarədə struktur və fəaliyyət istiqamətlərinə dair ətraflı məlumat vermişdir.

Eyni zamanda, korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın önəmini və qarşılıqlı təcrübənin vacibliyini nəzərə almaqla, bu sahədə ixtisaslaşdırılmış beynəlxalq təşkilatlarla əlaqələrin qurulmasına və daha da inkişaf etdirilməsinə daim böyük önəm verildiyini diqqətə çatdıran Baş prokuror korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi məqsədi ilə iki ölkə prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumunun əhəmiyyətini xüsusi qeyd etmişdir.

Nümayəndə heyəti Baş İdarənin inzibati binasında olaraq müxtəlif səviyyəli konfransların və tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş iclas zalları, normativ-hüquqi aktlarla zəngin və digər dövlət orqanlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, kriminalistika otağı, müasir proqram təminatı ilə təchiz edilmiş 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi, vətəndaşların qəbulu otağı ilə yaxından tanış olmuşlar.

Misir ilə münasibətlər

İkitərəfli münasibətlərin qısa tarixi

26 dekabr 1991-ci ildə Misir Ərəb Respublikası Azərbaycan Respublikasının müstəqilliyini tanımış, 27 mart 1992-ci ildə isə diplomatik münasibətlərin yaradılması haqqında Protokol imzalanmışdır. İki ölkə arasında diplomatik əlaqələr 11 aprel 1992-ci il tarixində qurulmuşdur. 1993-cü ilin aprel ayından MƏR-in Bakıdakı Səfirliyi, 1994-cü ilin yanvar ayından AR-ın Qahirədəki Səfirliyi fəaliyyət göstərir.

Həmin dövlətlə də ölkəmizin siyasi-iqtisadi, habelə hüquqi əməkdaşlıq çərçivəsində əlaqələri yüksək səviyyədə qurulmaqla inkişaf etməkdədir.

Korrupsiyaya qarşı mübarizə sahəsində ikitərəfli münasibətlər

2016-cı ilin mayın 26-da Misir Ərəb Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış İnzibati Nəzarət Qurumunun İstintaq İdarəsinin rəisi Hany Mohamed Loay Hassaneinin rəhbərlik etdiyi nümayəndə heyətinin Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olması və Baş İdarənin strukturu və fəaliyyət istiqamətləri ilə yaxından tanış olması iki ölkə arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın inkişafından xəbər verir. Belə ki, nümayəndə heyəti Baş İdarədə olmuş və Baş İdarənin strukturu və fəaliyyət istiqamətləri ilə yaxından tanış olmuş, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən qanunvericilik və institusional tədbirlər, əldə edilmiş nailiyyətləri müsbət dəyərləndirilmişdir.

Həmin səfərlə yanaşı, 2017-ci ilin oktyabr ayının 2-dən 4-dək Misir Ərəb Respublikasının Şarm El Şeyx şəhərində Beynəlxalq Anti-Korrupsiya Akademiyasına (İACA) Üzv Dövlətlərin Assambleyasının 6-cı sessiyası çərçivəsində Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyevin rəhbərlik etdiyi Baş İdarənin, Xarici İşlər və Vergilər nazirliklərinin əməkdaşlarından ibarət nümayəndə heyətinin Misir Ərəb Respublikası və digər dövlətlərin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirməsi, korrupsiyaya qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılması iki ölkə arasında bu sahədə beynəlxalq əməkdaşlığını məhkəmləndirilməsinə xidmət etmişdir.

Monqolustanla münasibətlər

İki ölkə arasında diplomatik əlaqələr Azərbaycanın müstəqillik əldə etməsindən az sonra 1992-ci ilin aprel ayının 16-da qurulmuşdur. Ötən dövr ərzində ölkəmiz Monqolustan Respublikası ilə siyasi-iqtisadi və mədəni sahələrlə yanaşı, korrupsiyaya qarşı mübarizə sahəsində də beynəlxalq əməkdaşlığa xüsusi önəm vermişdir. Belə ki, 2018-ci ilin may ayında Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində UNCAC-ın qəbulunun 15-ci ildönümünə həsr edilmiş Yüksək Səviyyəli Müzakirə zamanı Baş prokurorun müavini – Baş İdarə rəisi Kamran Əliyev Monqolustanın Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil İdarəsinin baş direktoru cənab Enkhjargal Khurelsukha ilə ikitərəfli görüş keçirərək səmərəli fikir mübadiləsi aparmışdır.

Ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində təcrübəsinin öyrənilməsinə maraq göstərməsinə görə bu sahədə qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məqsədilə cənab Enkhjargal Khurelsukha Azərbaycan Respublikasına səfərə dəvət edilmişdir.

Digər ölkələrlə ikitərəfli əməkdaşlıq

2011-ci ilin 23 iyul tarixində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsində İdarə rəisi Kamran Əliyev və İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin rəisi Rövşən Əliyevin iştirakı ilə Azərbaycan Respublikasında işgüzar səfərdə olan Əmlakın bərpa olunması üzrə Beynəlxalq Mərkəzin Təlim Departamentinin rəhbəri xanım Filis Atkinson və Beynəlxalq Maliyyə Fondu Hüquq Departamentinin baş müşaviri cənab Cüzeppe Lombardidən ibarət nümayəndə heyəti ilə görüş keçirilməsi digər ölkələrlə ikitərəfli münasibətlərin qurulmasında xüsusilə yaddaqalan olmuşdur.



Vyetnamın Kommunist Partiyası Siyasi Bürosunda Ədliyyə İslahatları üzrə Komissiyasının daimi sədr müavini, nazir xanım Le Thi Thu Banın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri

Belə ki, görüş zamanı “çirkli pulların yuyulması”na qarşı mübarizə və əmlakın bərpa olunması istiqamətində Azərbaycan Respublikasında həyata keçirilən qanunvericilik və institusional tədbirlər, əldə olunmuş nailiyyətlər, qarşıya qoyulmuş vəzifələr və çirkli pulların yuyulmasına qarşı mübarizə və əmlakın bərpa olunması sahəsində ixtisaslaşmış nüfuzlu beynəlxalq qurumların tövsiyələrinin icrası istiqamətində görülmüş işlər, habelə bu kimi beynəlxalq təşkilatlarla faydalı qarşılıqlı əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Bundan başqa, 10 avqust 2011-ci il tarixdə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev





Azərbaycan Respublikasında rəsmi səfərdə olan ABŞ Ədliyyə Departamentinin Xaricdə Prokurorluğun İnkişafına Yardım və Təlim Proqramının Avrasiya üzrə regional direktoru xanım Katerin Nyukamla görüşmüşdür. Görüş zamanı qarşılıqlı səmərəli əməkdaşlıq barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

Həmçinin, 2015-ci ilin iyul ayının 4-də Vyetnamın Kommunist Partiyası Siyasi Bürosunda Ədliyyə İslahatları üzrə Komissiyasının daimi sədr müavini, nazir xanım Le Thi Thu Banın başçılıq etdiyi nümayəndə heyəti Baş İdarədə olmuşdur. Qonaqlar milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş Baş İdarənin inzibati binasında normativ-hüquqi aktlarla zəngin və digər dövlət orqanlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi, vətəndaşların qəbulu otağı ilə yaxından tanış olmuşlar. Qonaqları salamlayan Baş prokurorun müavini - Baş İdarə rəisi Kamran Əliyev Prezident cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən qanunvericilik və institusional tədbirlər, habelə Baş İdarənin fəaliyyəti barədə ətraflı məlumat vermiş, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığı xüsusi vurğulamışdır.

Baş İdarədə yaradılmış yüksək iş şəraitindən məmnunluğunu ifadə edən qonaq xanım Le Thi Thu Ba ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş naliyyətləri yüksək qiymətləndirmişdir. Qonaqlara korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilmiş tədbirləri, Baş İdarənin fəaliyyətini əks etdirən buklet, bülleten və kitabçalar təqdim edilmişdir.

Bundan başqa, IAP-la əməkdaşlıqdan irəli gələrək 26-30 aprel 2015-ci il tarixlərdə IAP İcraçı direktoru xanım Yanne Holst Hübner və Böyük Britaniya Kral Prokurorluq Xidmətinin idarə rəisi cənab Hari Len Balç ölkəmizdə işgüzar səfərləri də yaddaqalan olmuşdur. Belə ki, səfər çərçivəsində qonaqlar, IAP-ın üzvləri, o cümlədən Assosiasiyaya üzvlüyə qəbul edilmək üçün müraciət etmiş Azərbaycan Respublikası Prokurorluğu orqanlarında tam aşkarlıq şəraitində, şəffaf və obyektiv prosedurlar əsasında müsabiqə yolu ilə qəbul edilmiş



gənc əməkdaşlarla görüşmüş, Assosiasiyanın fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilmiş, gənc prokurorlar onları maraqlandıran aktual məsələlərə, o cümlədən korrupsiya və mütəşəkkil cinayətkarlıqla mübarizə məsələlərinə dair suallar verməklə qarşılıqlı fikir mübadiləsi aparılmışdır. Qonaqlar Azərbaycan Respublikasının ədliyyə naziri, IAP senatoru və fəxri üzvü cənab Fikrət Məmmədovla, Baş prokuror cənab Zakir Qaralovla da görüşmüşlər.

Qeyd edilənlərlə yanaşı, 2016-cı il ərzində Səudiyyə Ərəbistanı, Türkiyə, Misir və Moldovadan olan nümayəndə heyətlərinin ölkəmizə səfərləri dövlətimizin beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsi prosesinə olduqda müsbət təsir göstərmişdir. Belə ki, 2016-cı ilin aprel ayında Səudiyyə Ərəbistanı Krallığının Təhlükəsizlik Elmləri üzrə Naif Ərəb Universitetinin Təlim fakültəsinin dekanı Məhəmməd Həsən Əlsarra və Əd-Diriyə dairəsinin prokuroru Müsəid bin Əbdülrəhman bin Ayəfin başçılıq etdikləri nümayəndə heyətinin tərkibinə müxtəlif dairələrin prokurorlarının və digər məsul əməkdaşlarının daxil olduğu geniş nümayəndə heyəti, aprelin 19-da Türkiyə Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Ciritin rəhbərlik etdiyi, tərkibinə Ali Məhkəmənin Baş prokuroru Mehmet Akarca və digər məsul əməkdaşların daxil olduğu nümayəndə heyəti, habelə mayın 26-da Misir Ərəb Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış İnzibati Nəzarət Qurumunun İstintaq İdarəsinin rəisi Hany Mohamed Loay Hassaneinin rəhbərlik etdiyi nümayəndə heyəti Baş İdarədə olmuş və Baş İdarənin strukturu və fəaliyyət istiqamətləri ilə yaxından tanış olmuşlar.

Qeyd edilən beynəlxalq əməkdaşlıq əlaqələri fonunda Baş İdarə əməkdaşlarının yuxarıdakı məlumatdan da göründüyü kimi 40 müxtəlif ölkəyə xidməti ezamiyyətləri təşkil edilmiş, habelə aşağıdakı məlumatdan göründüyü kimi qurum tərəfindən 56 ölkədən nümayəndə heyəti qəbusl edilmişdir. Göründüyü kimi, Baş İdarənin dünya coğrafiyasının əksər hissəsini əhatə edən əməkdaşlıq bağları həm korrupsiya ilə mübarizə və onun qarşısının alınmasında zəngin təcrübə mübadiləsi aparılması, eləcə də əməkdaşların bu sahədə bilik və bacarıqlarının artırılması baxımından mühüm əhəmiyyətə malikdir.

III BÖLMƏ

Azərbaycan Respublikasında həyata keçirilən korrupsiyaya qarşı mübarizə tədbirlərinin dəyərləndirilməsi

UN çərçivəsində dəyərləndirmə

12-17 mart 2012-ci il tarixlərdə Bakı şəhərində UNODC, habelə Qvatemala və Bosniya və Hersoqovinanı təmsil edən Tanya Santuççi, Doroti Qotvald, Rikardo Putzeys, Leila Karolina Villatoro Rodrigez, Tomislav Curiç və Sandra Srdanoviçdən ibarət nümayəndə heyəti Azərbaycan Respublikasında UNCAC-ın həyata keçirilməsi ilə əlaqədar dəyərləndirmə səfərində olmuşdur. Səfər çərçivəsində nümayəndə heyəti Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Bakı Apellyasiya və Bakı Ağır Cinayətlər Məhkəməsi, Məhkəmə-Hüquq Şurası, Milli Məclisin İnzibati və hərbi qanunvericilik şöbəsi, Vergilər Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyinin Qanunvericilik və Beynəlxalq Əlaqələr İdarəsi, Dövlət Qulluğu Məsələləri üzrə Komissiya, Maliyyə Monitorinq Xidmətində, həmçinin Qeyri Hökümət Təşkilatlarının nümayəndələri və vəkillər ilə Konvensiyanın müddəalarının həyata keçirilməsi ilə əlaqədar səmərəli və işgüzar görüşlər keçirmişlər. Həmin görüşlər zamanı ölkəmizin UNCAC-ın yerinə yetirilməsi ilə əlaqədar son illərdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər, ölkəmizdəki korrupsiyaya qarşı mübarizə səviyyəsinin mövcud durumu və qarşıda duran institusional islahatlar və perspektivlər müzakirə edilmiş, nümayəndə heyəti ilə geniş fikir mübadiləsi aparılmışdır.

18-22 iyun 2012-ci il tarixlərində Avstriya Respublikasının paytaxtı Vyana şəhərində UNCAC-a üzv Dövlətlərin Konfransının İmplementasiyası üzrə Nəzarət Qrupunun 3-cü sessiyasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəis müavini İlqar Abbasovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. Tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi və UN-un Narkotiklər və Cinayətkarlıq Əleyhinə İdarəsi Katibliyinin əməkdaşlarının, həmçinin Bosniya və Herseqovina və Qvatemala Respublikasının ekspertlərinin birgə səyləri nəticəsində tərtib edilmiş, Azərbaycan tərəfindən UNCAC-ın bir sıra maddələrinin implementasiyasına dair hesabat layihəsinin müzakirəsi aparılmışdır. Bundan başqa, UNCAC-ın bəzi müddəalarının implementasiyası çərçivəsində dəyərləndiriləcək dövlətlərin püşkatma yolu ilə seçimi həyata keçirilmişdir. Püşkatma prosesində Azərbaycan Respublikası Meksika Birləşmiş Ştatları üzrə dəyərləndirici dövlət qismində seçilmişdir.

Bununla əlaqədar olaraq, 2013-cü ilin aprel-may ayları ərzində UN-un Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Katibliyi ilə danışıqlar aparılmaqla sözügedən dövlətin özünü dəyərləndirmə hesabatının qiymətləndirilməsi üzrə iş bölgüsü aparılmışdır. İşin böyük hissəsini təşkil edən Meksikanın cinayət qanunvericiliyində korrupsiyanın kriminallaşdırılması vəziyyəti və hüquq mühafizə sisteminin dəyərləndirilməsi Azərbaycan tərəfindən öz üzərinə götürülmüşdür. Qeyd olunan həcmli hesabat İdarənin böyük prokuroru Elnur Musayev tərəfindən öyrənilərək müxtəlif sual və qeydləri özündə əks etdirən ekspert rəyi hazırlanmış və UN-un Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Katibliyinə göndərilməklə telekon-franslar yolu ilə müzakirə edilmişdir.

Görülən işlərin davamı olaraq, 18-22 avqust 2013-cü il tarixlərdə İdarənin böyük prokuroru Elnur Musayev Beynəlxalq Ekspertlər Qrupu tərkibində Mexiko şəhərində Dəyərləndirmə iclasında iştirak etmişdir.

Beynəlxalq Ekspert Heyəti Meksikanın bir sıra ali qurumları, o cümlədən Parlament, Ali Məhkəmə, Baş Prokurorluq, Ədliyyə nazirliyi, Dövlət İşləri üzrə nazirlik, Maliyyə Kəşfiyyatı Qurumu və Maliyyə Nazirliyinin nümayəndələri ilə görüşlər keçirmişlər.

Tədbirdə Meksika hökumətinin özünüdəyərləndirmə toplusuna hazırladığı cavablar Azərbaycan mütəxəssisi - Elnur Musayev tərəfindən öyrənilərək qiymətləndirilmiş, cavabdeh ölkəyə eskpert rəylərinin layihələri təqdim olunmuşdur. Elnur Musayev iş bölgüsünə əsasən korrupsiyanın kriminallaşdırılması, hüquq mühafizə qurumları, əmlak üzərinə həbs qoyulması və müsadirə, cinayət təqibindən immunitet, hüquqi şəxslərin korrupsiya cinayətlərinə görə məsuliyyəti, sübutetmə və sair məsələlər üzrə Meksika qanunvericiliyinin və təcrübəsinin beynəlxalq tələblərə cavab verməsinin qiymətləndirilməsini həyata keçirmişdir. Səfər çərçivəsində beynəlxalq ekspertlər korrupsiyaya qarşı mübarizə və UNCAC-ın implementasiyası ilə əlaqədar səmərəli fikir mübadiləsi aparmışlar.

OECD-nin dəyərləndirilməsi

Azərbaycan Respublikası OECD və ACN ilə əməkdaşlığını 2003-cü ildə İstanbul Fəaliyyət Planının qəbul edilməsindən sonra Təşkilat çərçivəsində iqtisadiyyatları keçid mərhələsində olan ölkələrin anti-korrupsiya şəbəkəsinə bölgənin digər ölkələri ilə birgə qoşulması ilə başlamışdır. İstanbul Fəaliyyət Planı Şəbəkəyə üzv ölkələrdə mərhələli şəkildə anti-korrupsiya islahatlarının həyata keçirilməsini və nəticələrinin qiymətləndirilməsini nəzərdə tutur. Fəaliyyət Planı üzrə qəbul edilmiş tövsiyələrin icra edilməsinə, həmçinin ölkənin qurumları arasında monitorinq prosesi ilə bağlı koordinasiyanın təmin edilməsinə Milli Koordinator cavabdehlik daşıyır. İlk dəfə 2004-cü ilin iyun ayında qeyd olunan Fəaliyyət Planına əsasən Azərbaycan Hökuməti tərəfindən korrupsiyaya qarşı mübarizəyə dair qanunvericilik, institusional baza və dövlət qulluğunun şəffaflığı üzrə geniş məruzə təqdim olunmuş, həmin məruzə əsasında OECD-nin və üzv dövlətlərin ekspertləri tərəfindən dəyərləndirmə aparılmış və 24 tövsiyə verilmişdir. Bunların sırasında Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşdırılmış qurumunun Baş Prokurorluğun tərkibində təsis olunmasına dair tövsiyə də olmuşdur. İndiyədək respublikamız üç monitorinq mərhələsini uğurla tamamlayaraq uyğunluq hesabatı əldə etmişdir. Belə ki, ölkəmiz 2006-2010-cu illərdə I, 2010-2013-cü illərdə II, 2013-2016-cı illərdə III Monitorinq Mərhələlərindən uğurla keçmişdir.

Belə ki, həmin tövsiyələr sırasında yer alan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsi, idarəyə əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi səlahiyyətinin verilməsi, habelə dövlət orqanlarının qoşulmuş olduğu bütün informasiya sistemləri, məlumat bazaları və reyestrlərə çıxış imkanının yaradılması kimi tövsiyələr artıq tam icra olunmuş, digər tövsiyələrin icrası istiqamətində isə əhəmiyyətli addımlar atılmışdır. İdarə əməkdaşları tərəfindən mütəmadi olaraq həmin tövsiyələrin icrası diqqətdə saxlanılmaqla bu sahədə qüvvədə olan qanunvericilik aktlarına dair müvafiq əlavə və dəyişikliklər edilməsi barədə təkliflər hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilir.

2013-cü ilin 3-7 iyun tarixlərində OECD-nin tövsiyələrinin icra vəziyyətinə dair hesabatın qəbul edilməsi xüsusilə əlamətdar olmuşdur. Belə ki, ekspertlər qrupunun səfəri ilə əlaqədar hazırlanmış ikinci raund dəyərləndirmənin nəticəsində verilmiş tövsiyələrin icra vəziyyətini müəyyən edən qiymətləri və yeni tövsiyələri əks etdirən hesabat layihəsi iki oxunuşda üzv ölkələrin nümayəndələrinin müzakirəsinə çıxarılaraq qəbul edilmiş, bununla da Azərbaycan

Respublikası Şəbəkənin 3-cü raund dəyərləndirilməsindən müvəffəqiyyətlə keçən ilk ölkə olmuşdur. Hesabata əsasən Azərbaycanda korrupsiyaya qarşı mübarizənin strateji təşkili, bu prosesdə vətəndaş cəmiyyətinin iştirakı, tədqiqatların və sorğuların aparılması, treninqlərin təşkili, ixtisaslaşmış qurumların səmərəliliyinin artırılması, korrupsiya əməllərinə görə cinayət məsuliyyətinin və hüquqi şəxslərin korrupsiya cinayətlərinə görə məsuliyyətinin nəzərdə tutulması, müsadirənin tətbiqinin gücləndirilməsi, satınalmalarda və məhkəmə sistemində korrupsiyanın qarşısının alınması, dövlət qulluğunda və siyasi partiyaların maliyyələşdirilməsində şəffaflığın artırılması, özəl sektorda dürüstlüyün təşviqi sahələrində verilmiş tövsiyələrin icrası qənaətbəxş hesab edilmişdir. Antikorrupsiya Şəbəkəsi tərəfindən ölkəmizin antikorrupsiya qanunvericiliyinin və onun icra səviyyəsinin icrası, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin modeli uğurlu nümunə kimi tanınmış, "ASAN" xidmət mərkəzlərinin fəaliyyəti təqdirəlayiq təcrübə olaraq göstərilmişdir.

GRECO çərçivəsində dəyərləndirmə

Azərbaycan Respublikası GRECO-ya onun birinci dəyərləndirmə raundu bitdikdən sonra 1 iyun 2004-cü il tarixdə üzv olmuşdur. Bunun nəticəsi olaraq, Azərbaycanda Birinci və İkinci Dəyərləndirmə raundlarının mövzularını əhatə edən birgə dəyərləndirmənin həyata keçirilməsi nəzərdə tutulmuşdur. GRECO dəyərləndirmə qrupunun tərkibinə cənab Alastair Braun - Səlahiyyətli Vəkillər Palatası (Edinburq-Böyük Britaniya), cənab Levan Ketsuriani - Korrupsiyaya qarşı mübarizənin əlaqələndirilməsi idarəsi, Milli Təhlükəsizlik Şurası (Gürcüstan), cənab Yorn Gravesen - Ağır İqtisadi Cinayətlər üzrə Prokuror (Danimarka), xanım Eline Vida - Ədliyyə Nazirliyi, Təhqiqatlar İdarəsi (Hollandiya) daxil edilmişlər. Bu tərkibdə ekspert qrupu 2 nəfər Avropa Şurasının katibliyinin əməkdaşları ilə birlikdə 2005-ci il 12-16 dekabr tarixdə Azərbaycana dəyərləndirmə səfəri etmişlər. Səfərdən öncə Qrup ekspertləri cavablandırılmış dəyərləndirmə sorğuları, müvafiq qanunvericilik aktlarının nüsxələri və digər sənədlərlə təmin edilmişlər. Azərbaycan Respublikası üzrə I-II Dəyərləndirmə Məruzəsi 23 İyun 2006-cı il tarixdə Fransanın Strasburq şəhərində 29-cu plenar iclasda GRECO tərəfindən qəbul edilmişdir.

3-cü Raund Dəyərləndirmə Hesabatı isə 2010-ci ilin 1 oktyabr tarixində GRECO-nun 48-ci Plenar İclasında qəbul edilmiş və 2010-ci ilin 18 noyabr tarixində isə Azərbaycanın razılığı ilə ictimaiyyətə açıqlanmışdır. Növbəti Uyğunluq Hesabatı isə 2012-ci ilin 19 oktyabr tarixində GRECO-nun 57-ci Plenar İclasında qəbul edilmişdir.

10 oktyabr 2014-cü il tarixdə 3-cü Raund Dəyərləndirmədə Azərbaycan üzrə İkinci Uyğunluq Hesabatı "Kriminllaşdırma", "Siyasi partiyaların maliyyələşməsində şəffaflıq" adlandırılmaqla GRECO-nun 65-ci Plenar İclasında qəbul edilmişdir.

"Parlament üzvlərinin, hakimlərin və prokurorların fəaliyyətində korrupsiyanın qarşısının alınması" mövzularını əhatə edən 4-cü Raund Dəyərləndirmə Hesabatı finlandiyalı ekspert Jouko Huhtamaki və Gürcüstandan xanım Mariam Maisuradze tərəfindən hazırlanmaqla 2014-cü il 10 oktyabr tarixində keçirilmiş 65-ci Plenar İclasda qəbul olunmuşdur, onun uyğunluq hesabatı isə GRECO-nun 74-cü Plenar İclasında 02 dekabr 2016-cı il tarixdə qəbul edilmişdir.

Ötən dövr ərzində GRECO-nun həyata keçirtdiyi Dəyərləndirmə Raundları çərçivəsində qəbul edilən Hesabatlarda yer alan tövsiyələr demək olar ki, əsasən tam icra olunmuş, digər tövsiyələrin icrası istiqamətində isə əhəmiyyətli addımlar atılmışdır. İdarə əməkdaşları tərəfindən mütəmadi olaraq həmin tövsiyələrin icrası diqqətdə saxlanılmaqla bu sahədə

qüvvədə olan qanunvericilik aktlarına dair müvafiq əlavə və dəyişikliklər edilməsi barədə təkliflər hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilir.

Sözügedən təkliflər əsasında 24 iyun 2011-ci il tarixdə "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul olunması xüsusilə qeyd edilməlidir. Belə ki, həmin Qanunla Azərbaycan Respublikasının hüdudlarından kənarda törədilmiş korrupsiya cinayətlərinə və qulluq mənafeyi əleyhinə digər cinayətlərə görə ikili kriminallaşdırma tələbi ləğv olunmuş, xarici ölkələrin dövlət orqanlarının vəzifəli şəxsləri, xarici ölkələrin seçkili dövlət orqanlarının üzvləri, beynəlxalq təşkilatların vəzifəli şəxsləri və digər qulluqçuları, beynəlxalq parlament assambleyalarının üzvləri, beynəlxalq məhkəmələrin hakimləri və digər vəzifəli şəxsləri, arbitrajların xarici və ya yerli arbitrləri, xarici və ya yerli andlı iclasçılar, habelə zabit, gizir və ya miçman olan hərbi qulluqçular, dövlət qulluqçuları (dövlət qulluğunun xüsusi növündə çalışan şəxslər daxil olmaqla), bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərin subyekti kimi tanınmış, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin rüşvət alma, rüşvət vermə və nüfuz alverinə görə cinayət məsuliyyəti nəzərdə tutan maddələrin dispozisiyasında edilmiş müvafiq dəyişikliklərdən sonra əvvəlkindən fərqli olaraq rüşvətlə əlaqədar "təklif və ya vəd edilməsi, təklif və ya vədin qəbul edilməsi" əməlləri də kriminallaşdırılmışdır.

Milli anti-korrupsiya islahatlarının həyata keçirilməsi və nəticələrinin qiymətləndirilməsini nəzərdə tutan adıçəkilən nüfuzlu beynəlxalq təşkilatların ölkəmizi dəyərləndirilmələri ilə yanaşı, ölkəmizin nümayəndələri də xarici dövlətlərin bu sahədə islahatları və onun nəticələrinin dəyərləndirilməsində beynəlxalq ekspert qismində iştirak etmişlər. Belə ki, 2-5 dekabr 2013-cü il tarixlərdə Strasburqda keçirilmiş GRECO-nun növbəti 62-ci Plenar İclasında İdarənin böyük prokuroru Elnur Musayev ölkəmizi təmsil edərək hazırlanmasında əməyi olduğu "Ukrayna Respublikasında korrupsiyanın kriminallaşdırılması və siyasi partiyaların maliyyələşdirilməsinə dair uyğunluq hesabatı" layihəsinin müzakirə olunaraq qəbul edilməsində yaxından iştirak etmiş və həmin dövlətin tövsiyələrə riayət etməsi səviyyəsi qənaətbəxş hesab edilmişdir.

Sadalananlarla yanaşı, 24-28 noyabr 2014-cü il tarixlərdə GRECO 63-cü Plenar İclasında qəbul edilmiş qərara əsasən "Deputat, hakim və prokurorların fəaliyyətlərində korrupsiyanın qarşısının alınması" mövzusu üzrə Serbiya Respublikasının 4-cü raund dəyərləndirməsi çərçivəsində ölkəmizdən ekspert qismində Baş İdarənin böyük prokuroru Elnur Musayev monitorinq səfərində olmuşdur.

GRECO çərçivəsində digər dəyərləndirmə Ukrayna ilə əlaqədar olmuşdur ki, 30 noyabr – 04 dekabr 2015-ci il tarixlərində GRECO-nun 70-ci Plenar İclasında Baş idarənin böyük prokuroru Elnur Musayev iştirak edərək Ukraynanın 3-cü Raund Uyğunluq Proseduru üzrə dəyərləndirici-məruzəçisi qismində çıxış etmişdir.

Eyni zamanda, 04-08 dekabr 2017-ci il tarixlərdə GRECO-nun 77-ci plenar iclasında iştirak edərək Elnur Musayev bir sıra dövlətlərin dəyərləndirilməsində iştirak etmişdir.

Qeyd edilənlərlə yanaşı, Baş İdarənin böyük prokuroru Elnur Musayev 19 sentyabr -27 sentyabr 2015-ci il tarixlərində UNCAC-ın icrası ilə əlaqədar Kot d'İvuar (Fildişi Sahili) Respublikasının dəyərləndirilməsini həyata keçirmişdir.

OECD çərçivəsində dəyərləndirmənin həyata keçirilməsində ölkəmizin ekspert səviyyəsində təmsilçiliyi Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin rəisi Rövşən Əliyevin monitorinq səfəri ilə əlaqədar olmuşdur. Belə ki, 17-19 fevral 2014-cü il tarixlərdə ACN-nın İstanbul Fəaliyyət Planı tərəfindən Tacikistan Respublikasının 3-cü raund

dəyərləndirilməsi çərçivəsində ölkəmizdən ekspert qismində Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin rəisi Rövşən Əliyevin monitorinq səfərində olmuşdur. Monitorinq qrupunun dəyərləndirdiyi əsas istiqamətlər Tacikistan Respublikasının korrupsiyaya qarşı mübarizə siyasəti, korrupsiyanın kriminallaşdırılması, qarşısının alınması və bu sahədə görülmüş digər işləri əhatə etmişdir.

OECD çərçivəsində digər dəyərləndirmədə iştirak Qazaxıstan Respublikası ilə əlaqədar olmuşdur. Belə ki, 20-24 fevral 2017-ci il tarixlərdə İstanbul Fəaliyyət Planı çərçivəsində Qazaxıstanın IV raund dəyərləndirilməsinin həyata keçirilməsi üçün qeyd olunan təşkilat tərəfindən Baş İdarənin Əməliyyat idarəsinin rəis müavini Emin Mürsəliyev ekspert qismində seçilmiş və göstərilən tarixlərdə Qazaxıstanın Astana şəhərində görüşdə iştirak etmişdir. 27-31 mart 2017-ci il tarixlərdə isə Tacikistan Respublikasının 4-cü raund dəyərləndirilməsi çərçivəsində ölkəmizdən ekspert qismində monitorinq qrupunun tərkibində Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Əmir Ocaqverdiyev iştirak etmişdir.

Xarici dövlətlərin anti-korrupsiya sahəsində islahatları və onun nəticələrinin dəyərləndirilməsində beynəlxalq ekspert qismində ölkəmizin nümayəndələrinin iştirak etdiyi tədbirə misal kimi İstanbul Fəaliyyət Planı çərçivəsində Monqolustanın I və II raund dəyərləndirilməsinin keçirilməsinin qeyd edilməsi xüsusilə əhəmiyyətlidir. Belə ki, 01-05 iyun 2015-ci il tarixlərində ACN-nın İstanbul Fəaliyyət Planı çərçivəsində Monqolustanın I və II raund dəyərləndirilməsi keçirilmişdir. Həmin tədbirdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Samir Mahmudov iştirak etmişdir. Dəyərləndirmə zamanı Baş İdarənin əməkdaşının ekspert qrupunun üzvləri daxil olmaqla Monqolustanın paytaxtı Ulan-Bator şəhərində Monqolustanın I və II raund dəyərləndirilməsi keçirilmiş, o cümlədən Monqolustanın aidiyyəti vəzifəli şəxsləri ilə müvafiq müzakirələr aparılmışdır.

IV BÖLMƏ

Beynəlxalq əməkdaşlıq çərçivəsində korrupsiya ilə mübarizə üzrə təhsil və ixtisasartırma

Baş İdarənin ölkə daxilində və xaricində işgüzar əlaqələrin yaradılmasına və inkişaf etdirilməsinə xüsusi önəm verməsi prokurorluq işçilərinin korrupsiya ilə mübarizə üzrə təhsil və ixtisasartırma məsələlərində də özünü biruzə verir. Belə ki, milli qanunvericiliklə prokurorluq orqanlarının qarşısına qoyulmuş prokurorluq orqanlarını ixtisaslı kadrlarla təmin etmək, işçilərin nəzəri və peşə hazırlığını artırmaq kimi məqsədlərdən irəli gələrək beynəlxalq və yerli ixtisasartırma kurslarından, məşğələlərdən, seminarlardan, konfranslardan, xarici dövlətlərin və beynəlxalq təşkilatların müvafiq təhsil sistemindən və digər tədbirlərdən istifadə olunmuşdur. Bu işin təkmilləşdirilməsinə, təcrübənin zənginləşdirilməsinə, nəticə etibarilə Baş İdarənin qarşısında duran vəzifələrin həllinə yardım edir.

Bu baxımdan IACA-nın Yay Akademiyasında (İACSA) və Magistratura Proqramı (MACS) çərçivəsində, Fransanın Milli İdarəçilik Məktəbi (ENA) tərəfindən, eləcə də Nürnberq prinsipləri Akademiyası Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Parlament Araşdırmaları Beynəlxalq Mərkəzi tərəfindən təşkil olunmuş təlim kurslarında, habelə digər seminar və təlimlərdə təhsil alma və ixtisasartırma xüsusilə qeyd edilməlidir.

IACA-da təhsil

İndiyədək İACSA-da Azərbaycandan olan 15 nümayəndə iştirak edərək onlara müvəffəqiyyət sertifikatları təqdim olunmuş, elmi təhsil alınması ilə əlaqədar olaraq MACS-ı 6 şəxs bitirmiş, 3 şəxs isə həmin Proqrama qəbul olunaraq hazırda təhsillərini davam etdirirlər.

Belə ki, Avstriya Respublikasının Laksenburq şəhərində yerləşən Beynəlxalq Anti-korrupsiya Akademiyasında “Təcrübə elmə cavab verir” mövzusunda 10 günlük Yay Akademiyasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Təşkilati və informasiya təminatı şöbəsinin rəisi Rövşən Əliyev 5-14 iyul 2012-ci il tarixlərdə, həmin Akademiya üzrə dünyanın korrupsiyaya qarşı mübarizə sahəsində aparıcı mütəxəssislərindən hesab olunan Robert Klitqaard tərəfindən təşkil edilmiş seminarda Təşkilati və informasiya təminatı şöbəsinin prokuroru Sahib İsmayılov və Əməliyyat şöbəsinin mühüm işlər üzrə böyük əməliyyatçısı Fuad Rəsulov 10-11 iyul 2013-cü il tarixlərdə iştirak etmişlər. Tədbirlər zamanı iştirakçılara müvəffəqiyyət sertifikatları təqdim olunmuşdur.

Qeyd edilənlərlə yanaşı, IACSA-nın 2014-cü ildə təşkil etdiyi kursda Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin prokuroru Sahib İsmayılov və Samir Mahmudov, 2015-ci ildə Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Əmir Ocaqverdiyev, 2016-cı ildə həmin idarənin prokuroru Vüqar Əhmədli, 2017-ci ildə prokuror Ziya Hacıyev və Natiq Eyvazov, 2018-ci ildə isə prokuror Arif Əyyubov və Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Kərəm Mansurov iştirak etmişlər.

Bununla yanaşı, İACA 14-18 iyul 2014-cü il tarixlərdə “Yerli idarəetmə və bələdiyyə orqanlarında korrupsiyaya qarşı mübarizə” adlı 5 günlük təlimdə Baş İdarənin Əməliyyat təminatı şöbəsinin mühüm işlər üzrə əməliyyatçısı Məftun Abbasovun iştirakı etmişdir.

Elmi təhsil alınması ilə əlaqədar olaraq MACS-a 2014-cü ildə Baş İdarənin böyük prokuroru Elnur Musayev və Əməliyyat təminatı şöbəsinin mühüm işlər üzrə əməliyyatçısı Məftun Abbasov qəbul olunaraq təhsillərini davam etdirmiş, 2016-cı ilin dekabr ayının 9-da Beynəlxalq Korrupsiyaya Qarşı Mübarizə Günündə magistr proqramını başa vurmuş məzunların növbəti buraxılış mərasimi zamanı həmin əməkdaşlar məzun olmuşlar.

Bundan əlavə, MACS-a 2016-cı ildə Baş İdarənin Əməliyyat təminatı şöbəsinin mühüm işlər üzrə əməliyyatçısı Elçin Mahmudov, 2017-ci ildə MACS-a Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru İsfəndiyar Hacıyev və prokuroru Vüqar Əhmədli, 2018-ci ildə isə həmin idarənin prokuroru Arif Əyyubov və Baş İdarənin böyük prokuroru Səbuhi Alıyev qəbul olunmuşlar və hazırda təhsillərini davam etdirirlər.

Digər xarici ali tədris müəssisələrində təhsil

Qeyd edilənlərlə yanaşı, digər ölkələrin qanunvericiliyinin və hüquq tətbiqi təcrübəsinin öyrənilməsi, cinayətkarlıqla mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Azərbaycanın milli və digər ölkələrin qanunvericiliyinin müqayisəli təhlili məqsədilə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokurorları Natiq Eyvazov və Ziya Hacıyev magistr təhsili almaq üçün İtaliya Respublikasının paytaxtı Roma şəhərində yerləşən La Sapienza universitetinə müraciət etmiş və qeyd edilən təhsil müəssisəsinin Avropa hüququ üzrə 2017-2019-cu tədris illərini əhatə edən müddətdə magistratura proqramında təhsil almaq hüququ əldə edərək təhsilini davam etdirirlər.

Fransanın Milli İdarəçilik Məktəbi (ENA) çərçivəsində ixtisasartırma

Korrupsiya ilə mübarizə sahəsində ixtisasartırma kursları içərisində Fransanın paytaxtı Paris şəhərində “Korrupsiyaya qarşı mübarizə” mövzusunda Fransanın Milli İdarəçilik Məktəbi tərəfindən təşkil edilən kurslar da xüsusi önəm kəsb edir. Belə ki, 26 oktyabr - 06 noyabr 2015-ci il tarixlərdə həmin təlim kursunda Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Əmir Ocaqverdiyev və həmin idarənin prokuroru İsfəndiyar Hacıyev, 07-18 noyabr 2016-cı il tarixlərdə Baş İdarənin böyük prokuroru Səbuhi Alıyev və Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Vüqar Əhmədli, 06-17 noyabr 2017-ci il tarixlərdə isə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Ziya Hacıyev iştirak etmişlər. Tədbirdə iştirakçılar təqdimatla çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində keçirilmiş kompleks, sistemli və ardıcıl islahatlar, bu sahədə respublikamızın bir çox beynəlxalq təşkilatlar, ixtisaslaşmış qurumlarla ikitərəfli və çoxtərəfli müqavilələr əsasında qarşılıqlı və səmərəli əməkdaşlığı barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişlər. Təlimin yekununda hər bir iştirakçı Korrupsiyaya qarşı mübarizə Proqramının uğurla başa çatdırılması ilə əlaqədar sertifikat əldə etmişdir.

Sadalananlarla yanaşı, korrupsiyaya qarşı mübarizədə ixtisasartırma kursları sırasında 2017-ci ilin 10-16 iyul tarixlərində Litva Respublikasının Vilnus şəhərində Beynəlxalq Şəffaflıq Təşkilatının Dürüstlük Məktəbinin sayca 8-ci təlim kursu, 07-18 avqust 2017-ci il tarixlərində Almaniyanın Nürnberq şəhərində yerləşən Nürnberq prinsipləri Akademiyası (Nürnberq Akademiyası) tərəfindən prokurorluq işçiləri üçün beynəlxalq cinayət hüququ sahəsində təkmilləşmə kursu da xüsusilə qeyd edilməlidir ki, həmin tədbirlərdə Azərbaycan Prokurorluğunu Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Vüqar Əhmədli təmsil etmiş və yekunda təlim kursunu müvəffəqiyyətlə bitirməsinə görə sertifikat əldə etmişdir.

O, da qeyd edilməlidir ki, xaricdə təşkil edilən korrupsiyaya qarşı mübarizə ixtisasartırma kursları ilə yanaşı, ölkəmizdə də bu xarakterli peşə hazırlığı tədbirləri təşkil edilmişdir. Belə

ki, 11-13 iyul 2017-ci il tarixdə Bakı şəhərində Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Komissiyasının, Avropa Şurası Bakı ofisi və Avropa İttifaqı Bakı Nümayəndəliyinin birgə təşkilatçılığı ilə Yaxşı İdarəçilik Əməkdaşlığı Proqramının "Azərbaycanda korrupsiya ilə mübarizə və onun qarşısının alınması sahəsində bacarıqların gücləndirilməsi" layihəsi çərçivəsində "Korrupsiyaya qarşı mübarizə üzrə Təlimçilərin Təlimi" mövzusunda təlim keçirilmişdir. Tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Əmir Ocaqverdiyev, həmin idarənin prokuroru Natiq Eyvazov və Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Rüstəm Şükürov iştirak etmişlər. Təlimin sonunda iştirakçılara təlim kursunu müvəfəqiyyətlə bitirmələrinə dair sertifikatlar təqdim olunmuşdur.



Eyni zamanda, 01 dekabr 2017-ci il tarixdə Avropa İttifaqı ilə birlikdə həyata keçirilən "Azərbaycanda ədliyyə sisteminin inkişafına və cinayət işləri üzrə məhkəmə qərarlarını icra edən qurumların göstərdiyi xidmətlərin təkmilləşdirilməsinə dəstək" layihəsi çərçivəsində "hüquqi şəxslərin cinayət məsuliyyəti" mövzusunda simpozium keçirilmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun əməkdaşları, birinci və apellyasiya instansiyaları məhkəmələrinin hakimlərinin qatıldığı tədbirdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Heydər Məmmədov çıxış edərək korrupsiyaya qarşı mübarizənin ölkəmizdə dövlət siyasətinin prioritet istiqaməti olmasını vurğulayaraq bu mübarizənin güclü siyasi iradəyə əsaslandığını xüsusi qeyd etmiş, həmin sahədə beynəlxalq əməkdaşlığın və təcrübə mübadiləsinin böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir. Tədbirin sonunda iştirakçılara müvafiq sertifikatlar təqdim edilmişdir.

OECD və ATƏT çərçivəsində seminarlar

Oxşar qəbildən olan tədbirlər OECD və ATƏT çərçivəsində də təşkil edilmişdir. Buna 26-27 iyun 2013-cü il tarixlərdə Latviya Respublikasının Yurmala şəhərində OECD Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-Korrupsiya Şəbəkəsinin və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (OSCE) təşkilatçılığı ilə "Korrupsiyanın qarşısının alınması - institusional və sektor səviyyəsində təcrübi tətbiqin və effektiv tədbirlərin artırılması" mövzusunda keçirilmiş, 28-30 aprel 2015-ci il tarixlərində ATƏT-in İqtisadi və Ətraf Mühit məsələləri üzrə

Əlaqələndiricisinin Ofisi tərəfindən Moldovanın Kişinau şəhərində "Dövlət və özəl sektor arasında korrupsiyanın qarşısının alınmasında əməkdaşlığın təşviq edilməsi" mövzusunda keçirilmiş seminarlar misal olaraq göstərilə bilər. Birinci göstərilən seminarda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Təşkilati və informasiya təminatı şöbəsinin böyük prokuroru Ramin Hüseynov və Preventiv tədbirlər və təhqiqat şöbəsinin prokuroru Heydər Məmmədov, ikinci seminarda isə Baş İdarənin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi vəzifəsini icra edən Anar Nəsibov və həmin idarənin böyük prokuroru Heydər Məmmədov iştirak etmişlər.

Sonuncu seminarda Rusiya Federasiyası, Niderland Krallığı, Sloveniya, Estoniya, Latviya, Litva, Serbiya, Gürcüstan və digər ölkələrin korrupsiya cinayətləri üzrə qabaqlayıcı tədbirlərə dair yanaşma və təcrübələri təqdim edilmiş, təhsil və səhiyyə sahəsində korrupsiyanın qarşısının alınması, həmçinin dövlət vəsaitlərinin idarə olunması və ayrılması zamanı şəffaflığın təmini və digər məsələlər müzakirə edilmişdir.



Seminar gedişində Heydər Məmmədov dinləyicilərə son dövrlər ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş qanunvericilik və institusional tədbirlər, əldə edilmiş uğurlar barədə məlumat vermiş, ölkəmizin korrupsiya cinayətləri üzrə qabaqlayıcı tədbirlərə dair yanaşma və təcrübələri üzrə təqdimat həyata keçirtmişdir.

TAİEX aləti çərçivəsində təlimlər

Qeyd edilən beynəlxalq qurumların təşkil etdiyi seminarlarla yanaşı, Baş İdarə əməkdaşlarının peşə biliklərinin artırılmasına xidmət edən Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti çərçivəsində TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi) aləti çərçivəsində də təlim təşkil edilmişdir. Belə ki, 28-29 yanvar 2014-cü il tarixlərdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti çərçivəsində TAİEX alətinin dəstəyi ilə "Hüquqi şəxslərin cinayət məsuliyyəti" mövzusunda keçirilən təlimdə İdarənin 25 nəfər əməkdaşı iştirak etmişdir. Tədbirdə Belçika Krallığının Birinci instansiya məhkəməsinin hakimi Teo Bil, Böyük Britaniya Kral Prokurorluğunun Şotlandiya üzrə Ağır və Mütəşəkkil cinayətkarlıqla mübarizə ofisinin böyük prokurorları Natali Barkley-Styuart və Salli Klark korrupsiya və rüşvətxorluq cinayətlərinin transmilli aspektləri, korrupsiya cinayətləri ilə mübarizə sahəsində ölkələrinin təcrübəsi və bu sahədə qanunvericiliyin tətbiqi xüsusiyyətləri, hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasının hüquqi



və praktiki tərəfləri barədə ətraflı məlumat verməklə təqdimatlar etmiş, bu sahədə istintaq edilmiş cinayət işlərindən nümunələr göstərmişlər.

Bundan başqa, 2017-ci ilin 23-27 aprel tarixlərində də TAİEX aləti çərçivəsində Fransanın Paris şəhərində korrupsiya hüquqpozmaları ilə bağlı məlumat verən şəxslərin müdafiəsi mövzusunda tanışlıq səfəri keçirilmişdir. Tədbirdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin rəisi vəzifəsini icra edən Heydər Məmmədov, həmin idarənin böyük prokuroru Əmir Ocaqverdiyev və Baş İdarənin böyük prokuroru Mövlud Mirzəliyevdən ibarət nümayəndə heyəti iştirak etmişlər. Təlim səfəri çərçivəsində nümayəndə heyəti Fransa Respublikasının Milli Antikorrupsiya Agentliyi, Ədliyyə Nazirliyi, Baş Prokurorluğu, Maliyyə və İqtisadiyyat Nazirliyi və Dövlət Sektorunda Şəffaflıq üzrə Ali Qurumunun nümayəndələri ilə görüşlər keçirmişdir.



Avropa İttifaqı və Avropa Şurası çərçivəsində təlimlər

2018-ci ilin mart ayının 15-də Bakı şəhərində Avropa İttifaqı ilə birgə həyata keçirilən "Azərbaycanda ədliyyə sisteminin inkişafına və cinayət işləri üzrə məhkəmə qərarlarını icra edən qurumların göstərdiyi xidmətlərin təkmilləşdirilməsinə dəstək" layihəsi çərçivəsində hakimlərin toxunulmazlığının məhdudlaşdırılmasına dair qanun layihəsinin müzakirəsinə həsr olunmuş dəyirmi masa keçirilmişdir. Prokurorluq və ədliyyə işçilərinin, məhkəmə hakimlərinin və qeyri-hökumət təşkilatlarının təmsilçilərinin qatıldığı tədbirdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Heydər Məmmədov korrupsiyaya qarşı mübarizənin ölkəmizdə dövlət siyasətinin prioritet istiqaməti olmasını vurğulayaraq, dövlət başçısının siyasi iradəsinə uyğun olaraq bu sahədə çoxsaylı institusional və qanunvericilik islahatlarının keçirildiyi bildirilmişdir. Layihə çərçivəsində fəaliyyət göstərən işçi qrupu tərəfindən hazırlanmış hakimlərin toxunulmazlığının məhdudlaşdırılmasını nəzərdə tutan "Məhkəmələr və hakimlər haqqında" Qanuna ediləcək dəyişikliklərlə bağlı qanun layihəsi iştirakçıların diqqətinə çatdırılmışdır. Qanun layihəsinə dair rəy və təkliflər ətrafında fikir mübadiləsi aparılmaqla müxtəlif qurumların nümayəndələrini maraqlandıran suallar Avropa İttifaqının ekspertləri tərəfindən cavablandırılmışdır. Tədbirin sonunda iştirakçılara müvafiq sertifikatlar paylanılmışdır.



Qeyd edilən təlim və seminarla yanaşı, korrupsiya ilə mübarizə üzrə təhsil və ixtisasartırmaya misal olaraq 2018-ci ilin mayın 24-25-i tarixlərində "çirkli pulların yuyulmasına qarşı mübarizə" mövzusunda keçirilmiş simpozium qeyd edilə bilər. Belə ki, Baş İdarənin inzibati binasında Avropa İttifaqı və Avropa Şurası ilə birgə keçirilən Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq (YİT) Proqramının "Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin gücləndirilməsi" layihəsi çərçivəsində "Çirkli pulların yuyulması hallarına dair istintaq üsulları" mövzusunda tədbir keçirilmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğu, Daxili İşlər və Vergilər nazirlikləri, Maliyyə Bazarlarına Nəzarət Palatası və Hesablama Palatasının nümayəndələrinin qatıldığı iki günlük tədbirdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Heydər Məmmədov çıxış edərək, korrupsiyaya qarşı mübarizənin ölkəmizdə dövlət siyasətinin prioritet istiqaməti olmasını vurğulamaqla bu mübarizənin möhkəm siyasi

iradəyə əsaslandığını qeyd etmiş, bu sahədə ölkə daxilində, eyni zamanda beynəlxalq səviyyədə əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini bildirmiş, təlim kursunun iştirakçılar üçün faydalı olacağına əminliyini ifadə etmişdir.

Tədbirdə çıxış edən Avropa Şurasının Bakı ofisinin rəhbəri Zoltan Hernyes hazırkı layihənin təmsil etdiyi beynəlxalq qurum tərəfindən Azərbaycanda çirkli pulların yuyulmasına qarşı aparılan mübarizəyə göstərilən dəstəyin ifadəsi olduğunu qeyd edərək, belə maarifləndirmə layihələrinin Azərbaycan və Avropa Şurasının gələcək əməkdaşlığı üçün də prioritet olacağına ümidvar olduğunu bildirmişdir.

Təlim çərçivəsində Avropa Şurasının ekspertləri Yehuda Şaffer və Pol Martin tərəfindən çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsində beynəlxalq standartlar, cinayət fəaliyyətində əldə edilən gəlirlərin leqallaşdırılmasının aşkar olunması, götürülməsi və müsadirə edilməsi və bu növ cinayətlərin təqibinin aparılması metodları mövzularına dair təqdimatlar keçirilmişdir. Tədbirdə mövzu ilə əlaqədar tədris tapşırıqları iştirakçılar tərəfindən müvəffəqiyyətlə icra edilmiş, iştirakçıları maraqlandıran suallar ətraflı müzakirə edilmişdir.



Digər təlim və seminarlar

Digər anti-korrupsiya ixtisasartırma kurslarına misal olaraq 8-9 iyul 2013-cü il tarixlərdə ABŞ-ın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə Bakıda keçirilmiş "Korrupsiya cinayətlərinin istintaqı və təqibi" mövzusunda seminar göstərilə bilər. Həmin tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin, Hərbi Prokurorluğun və Bakı şəhər Prokurorluğunun əməkdaşları iştirak etmişlər. Seminarda ABŞ-nın Ədliyyə Departamentinin və Federal Təhqiqatlar Bürosunun əməkdaşları tərəfindən Pakistan Respublikasının cinayət mühakimə sisteminin xüsusiyyətlərinə dair təqdimat keçirilmiş, anqlo-sakson hüquq sisteminin əsasını təşkil edən presedent hüququnun tətbiqi qaydaları izah edilmiş, prokuror və müstəntiqlərin əməliyyat orqanlarının məxfi agentləri ilə birgə əməkdaşlığının mümkün olan üsulları göstərilmişdir.

19-23 oktyabr 2015-ci il tarixlərdə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının

paytaxtı London şəhərində Parlament Araşdırmaları Beynəlxalq Mərkəzi tərəfindən keçirilən Korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşdırılmış sertifikatın verilməsi ilə bağlı təlimlər qeyd edilə bilər ki, həmin tədbirdə Baş İdarənin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi vəzifəsini icra edən Anar Nəsibov iştirak etmişdir. Təlim kursu özündə korrupsiyaya qarşı mübarizənin nəzəri və praktiki aspektlərini əks etdirməklə müzakirə, debatlar və prezentasiyaların keçirilməsi şəraitində təşkil olunmuş, treyninqdə iştirak etmiş Anar Nəsibov Korrupsiyaya qarşı mübarizə üzrə sertifikatla təltif edilmişdir.

2018-ci ilin aprel ayının 6-da Baş İdarənin inzibati binasında Beynəlxalq Prokurorlar Assosiasiyasının Qlobal Elektron Cinayət Şəbəkəsinin (GPEN) rəhbəri və Niderland Krallığının "Eurojust"da təmsilçisi Han Moraal GPEN-dən istifadə qaydaları haqqında Baş İdarənin əməkdaşlarına məlumat verərək təqdimatla çıxış etmişdir. O, həmçinin sürətlə qloballaşan dünyada kibercinayətkarlıq probleminin xüsusi aktuallığı və ona qarşı dövlət orqanları tərəfindən aparılan mübarizənin vacibliyi barədə ətraflı məlumat verərək cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və digər cinayətlərə qarşı mübarizənin ölkələrin milli təhlükəsizliyinin təmin olunmasına xidmət etdiyini bildirmişdir.





Bundan başqa, o, kibercinayətkarlığa qarşı mübarizə işində dövlət orqanları və beynəlxalq təşkilatların fəaliyyətlərinin effektiv əlaqələndirilməsini təmin edən koordinasiya mexanizminin yaradılmasının, onlar arasında əməkdaşlığın və məlumat mübadiləsi sisteminin səmərəliliyinin artırılmasının, qanunvericiliyin beynəlxalq standartlara tam uyğunlaşdırılmasının, habelə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulamış, kibercinayətkarlıqla mübarizədə hüquq mühafizə orqanları əməkdaşlarının peşəkarlığının artırılması və effektivliyin təmin edilməsində keçiriləcək təlimlərin əhəmiyyətini qeyd etmişdir. Tədbirdə iştirak edən nümayəndələrin sualları cavablandırılmışdır.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin beynəlxalq əməkdaşlığı məsələlərində Təşkilati və informasiya təminatı idarəsinin rolu

Qeyd edildiyi kimi Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeyinin möhkəmləndiyi, beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirildiyi, ikitərəfli və regional əməkdaşlıq sahəsində böyük uğurların əldə edildiyi bir şəraitdə ölkə Prokurorluğunun beynəlxalq münasibətləri, o cümlədən anti-korrupsiya siyasətinin reallaşdırılması istiqamətində xarici əlaqələri daha da genişləndirilmiş, dünya dövlətlərinin prokurorluq orqanları ilə qarşılıqlı əlaqələri inkişaf etdirilmiş, nüfuzlu beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq münasibətlərinin qurulması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Bütün bu işlərin yerinə yetirilməsində Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin xüsusi rolu olmuşdur.



Təşkilati və informasiya təminatı idarəsinin kollektivi

Adıçəkilən idarə Baş prokurorun 12.05.2011-ci il tarixli Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin strukturunun təkmilləşdirilməsi, İdarənin tərkibində olan struktur qurumların Əsasnamələrinin təsdiq edilməsi haqqında əmrinə əsasən yaradılmaqla, strukturu və ştat tərkibi təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2014-cü il tarixli 234 nömrəli Fərmanı ilə adının dəyişdirilərək "Azərbaycan Respublikasinin Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi" adlandırılmasına uyğun olaraq strukturu və ştat vahidi genişləndirilmiş Baş İdarənin tərkibində Baş prokurorun 09.01.2015-ci il tarixli 10/1-11/01s nömrəli əmri ilə Təşkilati və informasiya təminatı şöbəsi idarə statusunda təsis edilmişdir.

Qeyd edilməlidir ki, nüfuzlu beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq münasibətlərinin qurulması istiqamətində məqsədyönlü tədbirlərin təşkilində, ikitərəfli və çoxtərəfli əməkdaşlığın yaradılması və inkişafına xidmət edən işgüzar səfərlərin həyata keçirilməsində, anti-korrupsiya sahəsində digər dövlətlərin dövlət qurumlarının iş təcrübəsinin öyrənilməsin-

də, nəzəri bilik və peşə hazırlığının artırılmasına xidmət edən təcrübə mübadiləsinin aparılmasında, təhsil və ixtisasartırma fəaliyyətinə cəlb edilməsində idarənin kollektivinin də xüsusi rolu olmuşdur. Belə ki, idarə tərəfindən 10-a yaxın dövlət əhəmiyyətli, 50-yə yaxın təşkilati səviyyədə tədbirlərin, 45-ə yaxın xarici dövlətə səfərlərin təşkili həyata keçirilmiş, beynəlxaq təşkilat və xarici ölkələrin nümayəndələrinin Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlər, habelə Prokurorluğun və Baş İdarənin fəaliyyəti barədə məlumatlanması üçün müxtəlif xarici dillərdə kitab, bülleten, buklet və digər metodiki vəsaitlər hazırlanıb nəşr edilmişdir.

İdarə tərəfindən "Azərbaycan Xalq Cümhuriyyəti müasir müstəqil Azərbaycan dövlətinin siyasi sələfi" adlı kitabçanın (azərbaycan və ingilis dillərində), "Azərbaycan İslam mədəniyyəti mərkəzlərindən biri kimi" adlı kitabçanın (azərbaycan, rus və ingilis dillərində), "Korrupsiyaya qarşı mübarizə: sistemli yanaşma - Məqalələr toplusu" adlı kitabın, "Korrupsiya qarşı mübarizədə nailiyyətin 10 illiyi" jurnalının (ingilis dilində), "International Relations Newsletter" adlı jurnalın (ingilis dilində), 2016-cı ilin yekununa dair "Bülleten" (azərbaycan və ingilis dillərində), Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi - buklet (ingilis və rus dillərində), "Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi" haqqında məlumat kitabı (ingilis və rus dillərində), "Azərbaycan Respublikasının Prokurorluğu" adlı broşur (azərbaycan, rus və ingilis dillərində), Bülleten KQMBİ (azərbaycan, rus və ingilis dillərində), "Siyasi iradə korrupsiyaya qarşı mübarizənin əsas elementi kimi" (azərbaycan, rus və ingilis dillərində), "Korrupsiya qarşı Mübarizə Baş İdarəsi" Statistik rəqəmlərlə (ingilis və rus dillərində), "Vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq" (azərbaycan, rus və ingilis dillərində), "Korrupsiyaya qarşı mübarizədə nailiyyətin 10 illiyi" jurnalı (ingilis dilində), KQMBİ-geniş buklet (ingilis dilində), Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyası (ingilis və rus dillərində) adlı kitabça və jurnalların və digər nəşriyyat məhsullarının dərc edilməsi bunlara misal kimi göstərilə bilər.

Prokuror adını daima uca tutmaqla, öz xidməti vəzifələrini daim nümunəvi icra etməyə çalışan Təşkilati və informasiya təminatı idarəsinin prokurorları barəsində bir sıra həvəsləndirmə tədbirləri görülmüş, eyni zamanda prokurorluq orqanlarının kadrlarla komplektləşdirilməsi istiqamətində görülən tədbirlər çərçivəsində qulluqda irəli çəkilmişlər. Belə ki, Baş prokurorun müvafiq əmrləri ilə 2015-ci ildə şöbə səlahiyyətli olarkən struktur qurumun rəisi Rövşən Əliyev Baş Prokurorluğun Təşkilati-analitik idarəsinin rəis müavini, idarənin böyük prokuroru Sahib İsmayılov Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi, 2016-cı ildə idarənin rəis müavini Ramin Hüseynov tabe rayon prokuroru, 2017-ci ildə isə İdarənin rəisi Orxan İsayev Baş İdarənin rəis müavini vəzifələrinə təyin edilmişlər.

Azərbaycan Respublikası Prokurorluq orqanlarının bütün əməkdaşları kimi, Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin işçiləri də öz xalqına, vətəninə, ümummilli lider Heydər Əliyevin müqəddəs ideallarına, möhtərəm cənab Prezident İlham Əliyevin siyasətinə, cənab Baş Prokurorun etimadına və əmrlərinə yüksək sədaqət nümunəsi göstərərək, yüksək etimadı layiqincə doğrultmaq üçün bütün səylərini əsirgəməyərək, xidməti vəzifələrinin icrasına daim vicdanlı münasibət bəsləməklə peşə hazırlığın səviyyəsini daima yüksəltməyə çalışırlar və rəhbərlik tərəfindən qoyulmuş vəzifə və tapşırıqların yüksək keyfiyyətlə icra olunmasına daim səy göstərirlər.

Xüsusi vurğulanmalıdır ki, beynəlxalq əlaqələrin genişləndirilməsi, Azərbaycanın dünya birliyinə inteqrasiya olunması, cinayətkarlığın yeni formalarının qarşısının dövlətlərin birgə səyi nəticəsində alınmasının mümkünlüyü hüquq mühafizə orqanlarının, o cümlədən Azərbaycan Respublikası Prokurorluğunun digər ölkələrin müvafiq orqanları ilə institusional əməkdaşlıq etməsini, beynəlxalq təşkilatlarda aktiv iştirakını zəruri edir və bunlar da öz

növbəsində respublikamızın prokurorluq orqanlarının beynəlxalq əlaqələrin həyata keçirilməsi sahəsində fəaliyyətinin xeyli dərəcədə gücləndirilməsini şərtləndirir. Məhz bu fəaliyyət sayəsində regional səviyyədə bölgədə əmin-amanlıq və sabitliyin bərqərar edilməsi, nəhəng nəqliyyat və əməkdaşlıq layihələrinin gerçəkləşdirilməsi kimi strateji hədəflərə nail olmaq, nəticə etibarilə ölkəmizin dinamik sosial-iqtisadi inkişafını qoruyub saxlamaq mümkündür.

Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq dünya standartlarına cavab verən qanunvericilik bazasının yaradılmasına, dövlət idarəetməsində şəffaf mühitin inkişafına, ədalətli məhkəmə sisteminin formalaşmasına səbəb olmuş və səmərəli anti-korrupsiya qurumlarının fəaliyyətinə geniş imkanlar açmışdır. Eyni zamanda, həmin fəaliyyətin nəticəsidir ki, korrupsiya əməlinin milli qanunvericilikdə beynəlxalq normativ sənədlərin tələblərinə uyğun şəkildə təsbit edilməsi, dövlət qulluğuna qəbulda nailiyyətlər, hüquq-mühafizə orqanlarında islahatlar, “ASAN xidmət” mərkəzlərinin və elektron xidmətlərin yaradılması ilə Azərbaycan hökuməti korrupsiyaya qarşı mübarizə, eləcə də qabaqlayıcı tədbirlər görmək istiqamətində uğurlar əldə edilmişdir.

Sadalanan nailiyyətlərin əldə edilməsi gələcəkdə neqativ korrupsiya amilinə qarşı mübarizə işində yeni məqsədləri ortaya qoymuş, yeni hədəflərin müəyyənləşdirilməsinə rəvac vermişdir. Bu baxımdan ölkəmizin bu sahədə beynəlxalq əməkdaşlığı dünya reytinqlərində respublikamızın həqiqi mövqeyinin əks etdirilməsinə nail olunması, xüsusilə korrupsiya qavranma indeksində əks olunan göstəricilərin reallıqda mövcud olan şəkildə ölkəmizin daha uğurlu nəticələrinin tam əks etdirilməsi, bu sahədə dövlətimizə münasibətdə ikili standartlara yol verilməsinin qarşısının alınması və beynəlxalq normativ sənədlərin implementasiyası işinin sürətləndirilməsi kimi yeni hədəflər qoyur.

Bu hədəflərə nail olmaq, o cümlədən korrupsiya və rüşvətxorluğa qarşı mübarizə işini gücləndirmək və bu məqsədlə beynəlxalq əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin əməkdaşları bundan sonra da üzərlərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirəcəklər.